♦ Nəsr

Natiq MƏMMƏDLİ

# ƏN GÖZƏL GÜNAH*



♦ Roman

## BİRİNCİ HİSSƏ

### *Mən fələyə neylədim?*

**Bakı, yanvar, 2018**

Allah şahiddi ki, ona inanmaq istəyirdim. Dediklərinin yalan olmadığını sübut etmək üçün and içsə də, heç buna ehtiyac yox idi. Nəysə içimdən gələn səs məni armuda oxşayan ölkəsindən günəşli şəhərimə pənah gətirmiş bu qarabuğdayı, dərisinin altından sümükləri qabaran gəncin arıq vücudundan dəfələrlə böyük ürək sahibi olduğuna məni əmin edirdi. Elə kabinetimin ağzında boynubükük dayanıb səbirsizliklə növbəsini gözləyəndə də, çəkinə-çəkinə masanın arxasında oturub əllərini ovuşduranda da, arabir ürkək, sınayıcı nəzərlərlə məni altdan yuxarı süzəndə də ona inanırdım. İlk baxışdan anlamışdım ki, onu soyuq ölkələrin sazağından qorunmaq üçün mənim isti şəhərimə pənah gətirmiş quşlarla müqayisə etmək, ya da macəraçı turistlərə tay tutmaq olmazdı. Fırıldaqçı? Əsla! Belə düşünmək lap günah olardı. İyirmi ildən artıq iş təcrübəmdə o qədər dələduz adamlar görmüşəm ki, ağızlarını açmasalar da, yalan danışacaqlarını, öz uydurmalarına adamı inandırmaq üçün hətta utanmadan göz yaşı tökəcəklərini belə qabaqcadan hiss edirəm. Belə qabiliyyətə yiyələnməyim sizə fövqəladə bacarıq kimi görünə bilər, mənim üçünsə, sadəcə, peşə vərdişindən başqa bir şey deyil. İyirmi ildə hər gün söhbət etdiyin beş adamdan dördü səni aldatmağa cəhd edirsə, belə bacarığa yiyələnmək təəccüblü görünməməlidi. Amma ona inanmaq istəyirdim, daha doğrusu, inanırdım da. Hərçənd ki, danışdıqlarını kino kimi təsəvvür edəndə, adicə hind filminə oxşadığından gülməyim tuturdu. Kəndimizin yay klubunda həftə sonları göstərilən hind filmləri uşaqlıq illərimin ilğıma bürünmüş ən şirin xatirəsidir, həmin illər həftənin şənbə günlərini necə də səbirsizliklə gözləyirdim. Bəlkə də, bu qarayanız oğlanın danışdıqlarına inanmaq istəməyim də uşaq vaxtlarımın şirin aludəçiliyindən irəli gəlirdi. Elə

---

** Jurnal variantı*

o zaman da ekranda gördüklərimin gop olduğunu bilirdim. Təbii ki, həyat başqa cürdür, amma heç vaxt ağlıma gəlməzdi ki, nə vaxtsa film kimi həyat hekayəsini mənim özümə danışacaqdılar və onun xoş sonluqla bitməsi, sadəcə, mənim dərkənarımdan asılı olacaq.

- Sizi ölkənizdə bir-birinizi sevdiyinizə görə ölümlə təhdid ediblərmi? - sualım heç özümün də ürəyimdən olmadı, amma nə etməli, qanun-qayda var, hər şeyi protokola yazmaq, iddianı əsaslandırıb rəsmiləşdirmək lazım idi. Bəlkə də ona elə gələ bilərdi ki, mənim ürəyim daşdandı, dəftərxanada eşələnməkdən, lazımsız prosedurlara riayət etməkdən başqa əlimdən bir iş gəlmir. Neynək, qoy elə fikirləşsin, bir Allah şahiddi ki, mən doğrudan ona inanırdım və kömək etmək üçün əlimdən nə gəlirdisə, əsirgəməyəcəkdim. Axı mən də adamam… Yaxşı bilirəm ki, sevmək günah deyil.

- Bizi sıxışdırırdılar… biz qorxurduq…, - onun arıq, sivri dodaqlarından çətinliklə çıxan, sərçə civiltisinə oxşayan ikicə kəlmə söz mənim soyuqqanlı sualımın tam cavabı deyildi, hələ üstəlik, bu cavaba görə ona mənim vətənimdə nəinki sığınacaq verərdilər, əksinə, dərhal öz armuda oxşayan ölkəsinə deportasiya edərdilər. Görünür, o, məsələnin ciddiliyini mənim düşündüyüm kimi təsəvvür edə bilmirdi. Başqa tərəfdən də vəzifə borcum imkan vermirdi ki, ona açıq şəkildə yardım əlimi uzadım. Sualımı yenidən, bu dəfə bilərəkdən yönləndirici formada təkrar etməyə məcbur oldum.

- Başa düşün ki, bu suala verəcəyiniz cavab sığınacaq almağınız üçün çox əhəmiyyətlidir. Heç nədən çəkinməyin, dəqiq deyin, məhz bir-birinizi sevdiyinizə görə ölkənizdə həyatınız üçün təhlükə var idimi?

- Orada bizim sevgimiz günah sayılır. Günahkarı isə bağışlamırlar…

- Yəni?

- Yəni bizi günahkar sayırdılar.

- Belə olmaz, qardaşım, heç mənim ölkəm də günahkarların sığınacağı deyil, - onun tərəddüdləri, açığı, məni özümdən çıxarmışdı. Protokol üçün, həm də onun özü üçün həyati məna daşıyan kəlməni o sivri dodaqların arasından kəlbətinlə dartıb çıxarmaqdan ötrü sanki cərrahi müdaxiləyə ehtiyac yaranmışdı. Amma növbəti gün onun sevgilisini dindirəndə bütün bu tərəddüdlərin səbəbi gün kimi aydın oldu. Aydın oldu ki, Hindistanın cənub ucunda göz yaşı kimi düyünlənmiş adadan qaçaraq, bizim ellərə pənah gətirmiş bu sevən ürəklər həm də öz ölkələrinin vurğunudurlar və başlarına nə müsibət gəlsə də, vətənlərinin namını vermək istəmirdilər. İfadələrində bilərəkdən elə sözlər seçib danışırdılar ki, qürbət yerdə ölkələrinin adına xələl gəlməsin. Lakin ortada təkzibolunmaz fakt var idi – doğma yurdunda sevmək günah sayılır, elə buna görə də dünyanın tamam başqa səmtinə qaçmağa məcbur olmusan.

- Sualı bir də təkrar edirəm…

- Ehtiyac yoxdu, – o, artıq mənimlə höcətləşməkdən cana doymuşdu və səsinin tonuna özündən asılı olmadan əsəbi bir ötkəmlik verərək dilləndi, – bəli, bir-birimizi sevdiyimizə görə bizi təqib edirdilər, hamısını olduğu kimi danışdım axı? Heç nəyi də şişirtmirəm. Bilmək istəyirsiniz ki, həyatımız üçün təhlükə vardımı, yəni demək istəyirsiniz bizi öldürə bilərdilərmi? Keşkə bizi bir yerdə öldürəydilər… Amma o sarıdan da bəxtimiz gətirməyəcəkdi. Məni öldürəndən sonra torpağa basdıracaqdılar, onusa yandıracaqdılar, bizimkilər ruha inanır, onunkularsa yenidən doğuluşa. Başa düşürsünüzmü, mənim vətənimdə hətta öləndən sonra da rahatlıq yoxdu. Bax, beləcə də yazın, biz bura, sadəcə, mənasız ölümdən qaçıb gəlməmişik, sevgimizi qorumaq üçün burdayıq.

O, bütün bunları başını qaldırıb üzümə baxmadan, birnəfəsə söylədi. Bir bilsəydiniz həmin anda ürəyimdən nələr keçdi, istədim bütün rəsmiyyət formalarını kənara atıb onu bağrıma basım və bu lənətə gəlmiş dünyanın bütün qadağalarına tüpürərək hönkür-hönkür ağlayıb deyim ki, “lap xoş gəlmisiniz, lap əcəb eləmisiniz”. Ölümdən sonra belə xoşbəxt ola bilməyəcəyini dərk edərək yaşamağın adına həyat deyilməz qardaşım, bunun üçün nəisə başqa bir ad düşünmək gərəkdi. O dünyanın zülmü bu dünyadan betər, belə həyatmı olur? Özümü toparlayıb onun dediklərini öz bildiyim kimi rəsmi üsluba çevirdim, ölkələrində yaşamağın həyatları üçün təhlükə yaratdığını quru ifadələrlə bacardıqca təsirli ifadə etməyə çalışdım. Lakin nə qədər çalışsam da, onun söylədikləri kimi canlı yaza bilmədim. Təsəvvür edirdim ki, rəisim protokolu oxuyanda qıyıq gözlərini eynəyinin altından heyrətlə mənə sarı bərəldəcək, “nə danışırsan, məgər XXI əsrdə belə şeylər də olur” – deyə soruşacaq, sonra başını bulayıb “Allah sən saxla, dünyanın axırı çatıb deyəsən” söyləyərək, sənədin altından təsdiq möhürünü vuracaq. Rəis, şübhəsiz, mənim prinsipial olduğumu, bütün prosedurlara necə lazımdır əməl etdiyimi çox yaxşı bilirdi, ümumiyyətlə, iyirmi ildən çox işlədiyim dövrdə bir neçə rəis dəyişsəm də, heç vaxt tərtib etdiyim sənədlərə irad bildirən olmamışdı. Amma indi, bu qarayanız oğlan saqqızımı oğurlamışdı və içimdə, niyə ona inanmalıyam, sualı yaranmamışdan qabaq artıq verəcəyim cavab haqqında düşünürdüm, çünki inanmaq lazım idi. Sidqi-ürəkdən, tam varlığınla inandığın iş bəzən səhv yolda olsan belə, adama elə təpər verir ki, hətta o işi axıra çatdıra bilməsən də, həmin inamın yaddaşında ilişib qalmış zərifcə közərtisi bir ömürlük xatirələrə işıq salmağa bəs edir. Bu, elə bir hissdir ki, onu həyatında bir, uzağı iki dəfə qarşılaşdığın möcüzəylə müqayisə etmək olar. Gərək o anda, məhz həmin məqamda özünü itirməyəsən və elə seçim edəsən ki, ömrünün həmin ana qədərki boşluqlarını da dolduran nəysə bir işartı olsun. Elə bir şey ki, vicdanınla baş-başa qalanda əlini ürəyinin üstünə qoyub rahatlıqla deyəsən, “bax mən bunu bacardım”, “bunu mən sevərək, inanaraq etdim” və bəlkə də, mənim yer üzündəki missiyam məhz bu işi görməkdən savayı bir şey deyilmiş.

Oğlan, nəhayət ki, başını qaldırıb yorğun gözlərini üzümə zillədi və anidən gülümsünüb yenidən başını aşağı saldı. Saat yarımlıq söhbətimizdə ilk dəfəydi ki, onun sivri, qara dodaqları altında sıralanmış ağappaq dişlərini gördüm, güləndə yanağının sol tərəfi eynən mənim oğlumdakı kimi içəri batırdı. Görünür, uzun illərdi gülməyi yaddan çıxarıbmış, bəlkə də, gülməyə heç vaxt fürsət tapmayıbmış, amma təbəssüm bütün cavanlar kimi ona da çox yaraşırdı.

Suallarımın bitdiyini və artıq gedə biləcəyini deyəndə, çiynindən dağ götürülmüş kimi, dərindən nəfəs alıb ayağa qalxdı və gözləmədiyim halda mənə əl uzatdı. Onun damarları çıxmış qamış kimi qara əlini sıxaraq “mənim ölkəmə xoş gəlmisiniz, artıq təhlükədə deyilsiniz” - deyə bilərdim, lakin vəzifə borcum buna imkan vermirdi. Gənclərə gözaydınlığı vermək üçün hələ bir neçə proseduru da yerinə yetirmək, bir çox instansiyalardan keçmək lazım gələcəkdi. Ən azından, sabah onun kimi sevgilisini də dindirməli olacaqdım. Sonra bütün bu faktları təhlil etmək, hüquqi çərçivəyə salmaq, verdiyim sorğulara cavabı gələnə kimi gözləmək lazım gələcəkdi. Onun əlini bacardıqca möhkəm və hərarətlə sıxdım ki, məni qarşılaşacağı hüquqi şablonların baiskarı hesab etməsin. Ona inandığımı və ölkəmdə qalmaları üçün əlimdən gələni əsirgəməyəcəyimi deyə bilməzdim. Niyyətim saf və təmiz idi, inanırdım ki, Allah nə vaxtsa belə bir etirafı etməyim üçün mənə şans

verəcəkdi. Bilmirəm, o, bir neçə saniyənin içində qəlbimdən keçən bütün bu fikirləri oxuya bildimi, sadəcə, yüngülvari gülümsünüb qapıya sarı getdi.

***Daqqa, noyabr, 2017***

- Sakura çiçəklərini belə sevdiyini bilsəydim, Yaponiyaya gedərdik. Söz verirəm ki, səni ora aparacam, - Səid açıq pəncərədən otelin alaqaranlıq otağına dolan rütubət iyini ciyərlərinə çəkərək yataqdan qalxdı. Müjdə başını qaldırıb yastığa dirsəkləndi, gözlərini açmadan gülümsündü, - niyə gülürsən, yalan demirəm, Buddanın dişinə and olsun.

- Buddanın adını çəkmə, - qız qorxu içində yorğanı başına çəkdi, - sən necə adamsan? Axı keçən dəfə dedim belə şeylərlə zarafat eləmək günahdı, - Müjdə yorğanın altında dua edirmiş kimi titrəməyə başladı.

- Mən ciddi deyirəm, - Səid onun yanında oturdu, - Allaha and olsun ki…

- Bəli, bax belə, - Müjdə sıçrayıb yerindən qalxdı, - öz Allahına and iç, amma zarafatla yox.

- Kim deyir ki, zarafat edirəm, əgər doğrudan da Sakura çiçəklərini belə sevdiyini bilsəydim…

- Sən dünəndən yalnız bu haqda düşünürsən? Mən onu sözgəlişi demişdim, əzizim, bizim balaca büdcəmiz üçün elə bu üçulduzlu otel də pis deyil. Sakuraya gəldikdəysə, biz onu təsəvvür edə bilərik, bu ki, pulsuzdu…

- Hə, hələ ki, bu dünyada xəyal qurmaq pulsuzdu. Elə təsəvvür elə ki, mən səni ilk dəfə Sakura ağacının altında görmüşəm…

- Aha, yaxşı!

- Başdan ayağa çəhrayı çiçəklərə bürünmüş ağac o qədər gözəl idi ki, mən sizin ikinizi də birdən sevdim.

- Dayan, dayan, bu, bir az şit çıxdı axı. Bir az da bayağı. Necə yəni ağacla məni bir yerdə sevdin?

- Yaxşı, onda belə deyim – qollu-budaqlı Sakuranın ətrafa xoş rayihə saçan çəhrayı çiçəkləri arasında yalnız səni sevdim.

- Burda da təbiətə qarşı ironiya var. Axı Sakura çox gözəldi, belə soyuq qəlblə yanaşsan, onun xətrinə dəyərsən.

- Bəs belə necədi? - “Mən səni dünyanın dörd bir yanından gəlmiş onlarla turisti başına yığıb Buddanın möcüzələrindən həvəslə danışanda, Sakura öz çiçəklərini sevdiyi kimi sevdim”...

- Turistlər… təyyarə… saat neçədi? - hər ikisinin yataqdan atılıb paltarlarını geyinmələri göz qırpımı qədər çəkdi, - bax, görürsən, yaxşı ki, çamadanları axşamdan hazırlamışam, - Müjdə həyəcandan əsə-əsə dilləndi.

- Onsuz da gecikənlər olacaq, - Səid qızı sakitləşdirmək üçün özünü səbirli göstərməyə çalışdı.

- Onlar hamısı çoxdan hazırdırlar. İnan ki, artıq səhər yeməklərini yeyib foyedə var-gəl edirlər. Axı özün onlara dönə-dönə tapşırmışdın ki, gecikən olsa, gözləməyəcəyik.

- Görürsən, əzizim, sən demə bu dünyada xəyal qurmaq heç də pulsuz deyilmiş, -qaçaraq pilləkənləri düşəndə Səid zarafata salıb dilləndi.

- Hələ zarafat da edirsən?

- Axı xəyal qurmağı özün istədin?

- Səhv elədim, gərək əvvəlcə saata baxaydım.

Turistlər üçulduzlu otelin darısqal, alaqaranlıq foyesində adda-budda dayanmışdılar; qrupun yaşlı üzvləri, üzlərindən əbədi təbəssüm asılmış Tomas əmi və Merio xala qapının ağzına zorla yerləşdirilmiş yeganə divanda otur-

muşdular, onlardan bir qədər aralı Mariya ayaq üstə divara söykənib telefonunda nəsə qurdalanır, arabir başını qaldırıb divarda yanbayan asılmış saatlara baxırdı, ata və oğul Kruzlar dünya ölkələrinin iri şəhərlərinin vaxtını göstərən saatların əslində düz işləmədiyini öz aralarında dəqiqləşdirmişdilər, ancaq otel əməkdaşlarından heç kim ingiliscəni anlamadığından, bunu kiməsə başa sala bilməmişdilər. Yalnız gənc videobloger Vəli Özdəmir və elə tur başlayan gündən ona könüllü kameramanlıq eldən nəvə Kruz səhər açılandan işgüzar ovqata köklənmişdi. Vəli Özdəmir növbəti roliki üçün otelin qarşısında dayanıb axşamdan əzbərlədiyi sözləri üyüdüb-tökürdü: “Bəli, dünən mən artıq sizə söylədim ki, biz nağıllar şəhərinə düşmüşük. “Min bir gecə” nağıllarının düz ortasındayıq. Daqqanın hər qarışı sirlə doludur. Hər daşın altında tarix yatır. Bəli! Keçən rolikimdə demişdim sizə, füsunkar şəhərin ortasından…”

- Ay, zəhrimara qalasan! - nəvə Kruz az qala kameranı əlindən yerə salacaqdı, aşağı əyilib ayaqlarını, sonra qollarını ufuldayaraq qaşımağa başladı.

- Nə oldu, Con? - Vəli gözlərini bərəldərək soruşdu.

- Nə olacaq, təriflədiyin şəhərin ağcaqanadları səhərə kimi bədənimi didibdağıdıb.

- Yaxşı, qurtar qaşınmanı. - Vəli də qollarını və ayaqlarını qaşıya-qaşıya gileyləndi, - mənim də bədənim qançır olub, - dedi.

- Dəhşətdi, insanlar burada necə yaşayır? - Con narazı halda kameranı çiyninə qaldırdı.

- Hə, harda qalmışdım? Ağcaqandlar… lənət şeytana...

- Şəhərin ortası…

- Hə, şəhərin ortasından əfsanəvi Braxmaputra və Qanq çayları keçir…

- Stop, - Con gülərək başını buladı, - yenidən başlamalı olacaqsan, əzizim, təbəssümü yaddan çıxarmışdın. Gülə-gülə danış, axı biz tarixin ortasındayıq.

- A-a-a, rikşa, rikşa, çək onu! - Vəli qışqıran kimi Con Kruz kameranı küçənin ortasında bir-birini ötməyə çalışan iki rikşaya tərəf çevirdi.

- Hə, bax budur Daqqanın ləzzəti. Əziz seyrçilər, yolunuz bu şəhərə düşərsə, nəqliyyata əlavə pul xərcləməyə heç ehtiyac yoxdu, rikşalar sizi mənzil başına daha tez çatdırar. Həm də komfortlu. Ümumiyyətlə, komfort və Daqqa bir-birini elə tamamlayır ki. Bu nağıllar şəhərinə gəlsəniz, peşman olmazsınız. Bizsə növbəti dayanacaqda görüşərik. Roliki bəyəndinizsə, “like” etməyi unutmayın. Bay, bay…

- Şükür, qurtardıq. - Con kameranı söndürüb dərindən nəfəs aldı, “daha bəsdi, keçək içəri, heç olmasa, o xarabada kondisionerə oxşayan nəsə işləyir. - Con Vəlini gözləmədən qaçaraq özünü otelin ətürpədən cırıltıyla açılan qapısından içəri tulladı.

- Ver baxım, deyirsən yaxşı alındı? - Vəli soruşdu.

- Super alındı, canım, inan ki, Daqqanı görməsəydim, sənin rolikinə baxdıqdan sonra bu nağıllar diyarına məmnuniyyətlə gələrdim.

- Sənə kim deyir ki, bura nağıllar diyarıdı? - baba Endryu Kruz nəvəsindən soruşdu.

- İndicə rolik hazırladıq, Vəli deyir ki, əsil “Min bir gecə” nağıllarının ortasına düşmüşük”.

- Ay aman, bu gənclərin başı xarab olub. İlahi! Eşidirsiniz, bu şəhərin “Min bir gecə”yə heç bir dəxli yoxdu. Heç nağıllarda onun adı da çəkilmir. Eşidirsinizmi?

Tomas əmiylə Merio xala baba Kruzun sözlərini təsdiqləmək üçün təbəssümlə başlarını tərpətdilər, Mariya da çiyinlərini çəkərək gülümsündü.

- İndi siz başa düşürsünüzmü, gənc nəsil nə qədər diletantdı. Bunlardan heç nə olan deyil, olmayacaq da.

- Ata, yaxşı sən Allah, böyüyəndə düzələcəklər. - Uilyam Kruz atası qəzəblənəndə həmişə onu eyni sözlərlə sakitləşdirməyə çalışsa da, indi bu, işə yaramadı. - Böyüyəcəklər? Bəlkə, böyüməsələr yaxşıdı! - baba Kruz əməllicə hiddətlənmişdi.

- Ata, sakit, eşidən olar?

- Qoy eşitsinlər! XXI əsrdə yaşayırıq, otelin səhv işləyən saatlarını düzəltmək üçün adicə ingilis dilində başa düşən adam tapmaq mümkün deyil. Eşidəndə nə olacaq ki? Bəlkə, onlar elə bilirlər mən rep deyirəm!

Qocanın sözlərindən sonra darısqal foyeyə toplanmış turistlərin hamısı qəhqəhə ilə gülməyə başladı, hətta “resepşn”dakı qaradinməz qızın da dodaqları qaçdı.

- Başa düşürsünüz?- baba Kruz üzünü qıza tərəf çevirib bacardıqca nəzakətlə dilləndi, - sizin saatlarınız geri qalır, onları düzəltmək lazımdı. İndi nə Nyu-Yorkda, nə Tokioda, nə də Parisdə sizin saatların göstərdiyi vaxt deyil. Vaxtdan geri qalmaq yaxşı əlamət sayılmaz, saatlarınızı düzəldin, - dedi. Baxışlarını yerə zilləmiş qaradinməz qızsa çiyinlərini çəkməkdən savayı heç nə etmədi.

- Bax, bu super alındı, rikşaları vaxtında çəkə bildin. Gör necə şütüyürlər? Afərin sənə, - Vəli baba Kruz eşitməsin deyə, pıçıltıyla Cona təşəkkür etdi. Con baxışlarını babasından ayırmadan dodaqlarını səyritməklə kifayətləndi. Səid və Müjdə dəhlizdə görünən kimi, turistlərin arasında canlanma yarandı, Tomas əmi və Merio xala artıq yüngül çantalarını çiyinlərinə asıb çıxış qapısının kandarına yaxınlaşmışdılar. Yalnız “resepşn”dakı qız əvvəlki kimi başını aşağı salmışdı, sanki ya ətrafda olanları görmür, ya da bütün bunların ona heç bir dəxli olmadığını açıqca hiss etdirirdi. Səid açarları təhvil verəndə “axır ki” deyib başını buladı. “Bir başqa problem yoxdursa, biz gedək”, - Səid soruşdu. “Allah xatirinə tez gedin”, - səsindən nigarançılıqdan daha çox qəzəb yağan qız, nəhayət ki, başını qaldırıb gözlərini bərəltdi. Səid həmişəki kimi heç nə söyləməyib aralandı, bir neçə dəqiqədən sonra dünyanın müxtəlif ölkələrindən gəlmiş turistlər onların müşayiəti ilə aeroporta yola düşəcəkdilər.

İşçiləri nə qədər adamayovuşmaz, acıdil olsalar da, Səid də, Müjdə də bu rütubətli oteldən inanılmaz dərəcədə xoşlanır, buranı özlərinin ən sevimli sığınacağı hesab edirdilər. Bura Daqqanın yeganə oteli idi ki, ölkədə hər şeyin onsuz da ucuz olmasına baxmayaraq, onların bələdçi kimi çalışdıqları şirkətin müştəriləri üçün iyirmi faizlik güzəşt paketi də təklif edirdi. Bu da yad ölkələrdə hər kəsin onları soymağa hazırlaşdığını zənn edən, az pulla dünyanı gəzib-dolaşmağın mümkünlüyünə özlərini inandırmış simic turistlərin diqqətindən, təbii ki, yayına bilməzdi. Otelin az sayda personalının niyə həmişə yorğun və qaraqabaq olmasının səbəbini isə “resepşn”dakı qaradinməz qız səfərlərin birində Müjdəyə söyləmişdi. Sən demə, turlar başlayanda onlar, demək olar ki, bütün sutkanı fasiləsiz işləməyə məcbur olurlarmış. Hamısı yaxşı bilirdi ki, hər tərəfə kamera quraşdırmış itigözlü menecer balaca bir xətaya görə ən yaxşı halda onların məvacibini yarıya kimi kəsə, ən pis haldaysa küçəyə ata bilərdi. Küçədə isə gözlərinin yuxusunu qovmaq üçün dərisini çərtib arasına duz basaraq günlərcə ayaq üstə dayanmağa hazır olan milyonlarla işsiz veyillənirdi. “Bunun adına kapitalizm deyirlər”, - Müjdə Səidə bax beləcə söyləmişdi, “hələ sən də onlardan təbəssüm gözləyirsən…”

Doğrudan da insan daşımaq üçün nəzərdə tutulduğu baba Kruzda həmişə böyük şübhə yaratmış avtobusa oxşayan çoxyerli nəqliyyat vasitəsi

nərildəyərək otelin qarşısında dayananda Müjdə baxışlarını turistlərin üzərində gəzdirib siyahıdakı adlara nəzər saldı.

- Dostlar, hamı burdadırmı? - Səid ucadan səsləndi, - cənab Kruzlar, həmişəki kimi vaxtında, o-o-o, Mariya xanım, necə dincəldiniz?.

- Sualı yaxşı olardı belə qoyardınız, ümumiyyətlə dincələ bildinizmi? - Uilyam Kruz Mariyanın əvəzindən dilləndi. Səid buna bəndmiş kimi, uğunub getdi, bu gülüşdən daha çox qara, ətsiz dodaqları arasından ağappaq dişlərini göstərməyə oxşayırdı. Bunu ona turist bələdçilərini hazırlayan üç aylıq kurslarda öyrətmişdilər, xaricilərlə danışanda nə olursa olsun, mütləq dişlərini ağartmaq vacib şərt idi. Bir neçə cəhddən sonra Səid bu jesti elə mənimsəmişdi ki, hətta atasını öldürüb Siqiriya qalasında özünə sığınacaq qurmuş hökmdarın faciəsini turistlərə anladan da qeyri-ixtiyari dişlərini ağardardı.

- Çox zarafatcılsınız, cənab Kruz, - dilləndi, - bəs siz, gənc bloger, işlər necədi?

- Hələ ki, pis getmir, dünənki rolikimə “layk”lar iki mini keçib” - Vəli Özdəmir başını ayfonundan qaldırmadan dilləndi.

- Bu ki yaxşıdı, yes!

-Yox, abi, rekord Kolomboda olacaq, inşallah!

- İnşallah!, - Səid ətrafa baxaraq dilləndi, – bax, buna deyərəm başqa məsələ, Tomas əmiylə Merio xala artıq avtobusda yerlərini rahatlayıblar. Afərin sizə.

- İvanovlar yoxdular! - Müjdə həyəcanla dilləndi.

- Kim yoxdu? - Endryu Kruz başını açıq pəncərədən çıxarıb bağırdı, - İvanovlar? Yubanmaq rusların köhnə adətidi. Lənətə gələsiniz…

- Ata, sakitləş, səhər obaşdan nə olub sənə? - avtobusun yaxınlığında siqar tüstülədən oğul Kruz araya girdi.

- Nədi, onsuz da heç kim ingilis dilini bilmir. Onlara elə gəlir ki, rep oxuyuram! Axı bu ruslar niyə gecikməlidirlər? Axı biz nə üçün bu cəhənnəmin düz ortasında məhz onları gözləməliyik?

- “Min bir gecə” nağıllarının ortasında... - nəvə Kruz qımışaraq atmaca atdı.

- Sən kəs səsini, savadsız gənclik! Kütbeyin əbləhlər! Elə sizin ananız da…

- Ata, bəsdi…- bayaqdan Merio xalanın əlindən bərk-bərk yapışmış Tomas əmi özündən arxada oturmuş baba Kruza tərəf baxıb gülümsəyərək şəhadət barmağını dodağının üstünə qoydu, yəni sakitləş, ya da səsini kəs, zəhmət olmasa. Baba Kruz bir dənə də “lənət şeytana” deyib yana çevrildi.

İvanovların arxasınca getmiş Səid bir xeyli sonra otelin qapısında görünəndə avtobus sürücüsü əlini saatının üstünə vura-vura Müjdəyə nəyisə izah edirdi. Onun hansı dildə danışmasının tərcüməyə ehtiyacı yox idi, Daqqanın hələ də asfalt döşənməmiş darısqal küçələrindən keçərək uçuşa iki saat qalmış aeroporta çatmaq üçün vaxt daralırdı. Gərginlik hamıya sirayət etsə də, Səid təcrübəli bələdçi kimi “hər şey OK” deyib yenə də dişlərini ağartdı və yalnız Müjdənin eşidə biləcəyi pıçıltıyla “yatıb qalıblarmış” dedi.

- Onlar bütün gecəni o qədər içiblər ki, yatıb qalıblar. And içərəm ki, belədir, - baba Kruz yenə də özündən çıxdı.

- And içmək lazım deyil, elədir ki, var - Mariya da babanın sözlərini qüvvətləndirdi, - əslində, vaxtında gəlsəydilər, möcüzə olardı, - dedi.

- Bir dəfə biz onları burada qoyub getsək, ağılları başlarına gələr, - yerini Vəli Özdəmirin yanında rahatlamış nəvə Kruz da babasına qahmar çıxdı.

- Sən nə dedin! Axmaq gənclik, adam da yol yoldaşını atarmı? Sən görürsənmi, bu uşaqlar necə axmaq böyüyürlər?

- Ata, yalvarıram, özünü belə əziyyətə salma, - oğlu yenə onu sakitləşdirməyə girişdi, – bir baxın, gəlirlər.

- Şükür Allaha, - rütubət qarışmış istidən nəfəsi tıncıxan Vəli Özdəmir yarıyuxulu rusları qapının kandarında görən kimi qışqırdı.

İvanovlar – Cənub Şərqi Asiya ölkələrinə bal ayına çıxmış Saşa və Seryoja əzilmiş pomidor kimi dığırlana-dığırlana özlərini avtobusa çatdırdılar. “Sori! Sori” - Saşa az qala hamıdan bir-bir üzr istəyirmiş kimi, dilləndi. “Salam, bratva!”, - onun arxasınca Seryoja da əlini sinəsinə qoyub hamının üzünə acizanə baxırdı, Vəli Özdəmirlə Con Kruzun yanından keçəndəsə hər ikisinə göz vurdu. “Axşamkının adı nəydi?” nəfəsinin sarımsaq qarışmış spirti avtobusu başına götürmüş Seryoja ağzını Vəlinin qulağına yaxınlaşdırıb pıçıldadı. “Uf… hansını deyirsən?”, - Vəli üzünü turşudub soruşdu. “Bığ… bıx… baxx… cıcı…”. “Bəlkə bxaçi?” - Con tez dilləndi. “Yes, doroqoy, bxaçi! Əla getdi”. “Dəlisən? Bxaçi içki deyil, yeməkdi, onu içmirlər ki, yeyirlər”, - Vəli dedi. “A, bəs onda biz axşam nə içirdik?”. “Viski, doroqoy, viski. Sən, sadəcə, bir litrini də özünlə götürdün”, - Saşa dilləndi. “Uy da… deyirəm niyə başım partlayır, Amerikanın zibilləridi hamısı”. Seryoja Vəli və Condan sonra arvadıyla avtobusun lap arxa oturacağında özlərinə yer elədiyindən, yaxşı ki, baba Kruz onun sözlərini eşitmədi. Bürküdən nəfəsləri daralan gənclər isə avtobus tərpənənə kimi dayanmadan güldülər. Gülmək üçün əllərinə yaxşı fürsət düşmüşdü, hər dəfə Seryojanın, sadəcə, “bığ… bıx… cıcı…” deməsi kifayət idi ki, hamının dodağı qaçsın.

Avtobusun qabaq cərgəsində yanaşı oturmalı olsalar da, Səid yol boyu, demək olar ki, ayaq üstə dayanardı. Müştəriləri uzun yolda əyləndirmək üçün nələrsə etmək lazım idi, yəni bələdçi bacardıqca turistlərin diqqətini yayındırmaq, daha doğrusu, keflərini açmaq üçün əməllicə məzhəkə çıxarmalı idi. Qrupda gənclərin sayı çox olanda belə ucuz vodevillərin yeri olardı, amma elə ki, yaşlılar üstünlük təşkil edirdi, xüsusən də Endryu Kruz kimi tərs adamlar meydan sulayanda Səidin də işi çətinləşirdi. “Qarşıda bizi aeroporta kimi təxminən iki saatlıq yol gözləyir. Hər şey qaydasındadırmı? Daqqa gəzintisindən razı qalanlar əllərini qaldıra bilərmi?” “Mən ayağımı da qaldıra bilərəm”, - arxa cərgədən gələn boğuq səsin sahibi, heç şübhəsiz, Seryoja idi. Baba Kruza nəsə elə gəldi ki, bu, onun nəvəsi Condu, “tərbiyəsiz”, - deyə bağırdı, “sal ayağını! Gənclərdə abır-həya qalmayıb”. Seryoja onun nə deməsini anlamadı, bəlkə də, özünü eşitməzliyə vuraraq nəvə Kruzun çiynini dümsüklədi, “sənin də əcəb baban var. Qiyamət kişidi. Cavanlığında rep oxumayıb ki?”, - dedi. “Cavanlığında bilmirəm, ancaq həmişə ona elə gəlir ki, danışanda insanlar elə bilir ki, o, rep deyir”. “Mənə də elə gəlir…” Gənclər elə şaqqanaq çəkib güldülər ki, balaca avtobusun sürücüsü qarışıq hamı geri qanrılıb gülməyə başladı, hətta deyəsən, baba Kruzun da dodaqları qaçdı azacıq. “Yaxşı, dostlar”, - Səid bir az da ürəkli dilləndi, “yol boyu ürəyinizdən nə keçir? Bəlkə, keçən dəfəki kimi edək, lətifə yarışı keçirək, hə, nə deyirsiniz?” “Mənə elə gəlir ki, sakit otursaq yaxşıdı”, - Mariya bələdçinin xətrinə dəyməsin deyə gülümsəyərək cavab verdi. “Düzdür, belə yaxşıdı”, - ata-bala Kruzlar eyni vaxtda təklifi dəstəklədilər. Tomas əmi, Merio xala da gülərək başlarıyla təsdiq işarəsi verdilər. Vəli və Con dünənki roliklərinə gələn şərhlərə cavab yazdıqlarından, heç başlarını da qaldırmadılar, Seryoja nəsə demək istəyirdi, amma nə qədər çalışdısa, özünü toparlayıb ağzından düz-əməlli kəlmə çıxara bilmədi, Saşa isə avtobus tərpənən kimi başını pəncərəyə söykəyib yuxuya getmişdi. “Yaxşı, onda sakitcə yolumuza davam edək”, - Səid gülərək yerinə oturdu və “bu dəfə yaxşı qurtardıq”, - deyə Müjdəyə göz vurdu.

Avtobus daş döşənmiş küçələrdən adlayıb qismən hamar görünən asfalt yola çıxandan sonra yırğalanmaqdan cana doymuş sərnişinlər özlərinə gəldilər. Kənardan hamının gözünə yalnız ekzotik görünən bu Asiya ölkəsinin dünyanın çox az şəhərləri ilə müqayisə oluna biləcək paytaxtını tərk edərkən əsil düşüncələrə dalmağın vaxtı çatmışdı. “Burada ekzotik olan yeganə şey Banqladeşin yalnız xəritədə tutduğu yerdi, insanlarsa hər yanda eynidir; hamı səhər durub balasını məktəbə yola salır, analar yol gözləyir, atalarsa iş dalınca gedirlər, hamı hər yerdə olduğu kimi burada da bir tikə çörək uğrunda vuruşur”, - bu sözləri Tomas əmi arada Merio xalanın əlini buraxdığı vaxtlarda göy üzlü kitabçasına yazmışdı. İndisə yenə də sədaqətli arvadının əlindən yapışıb, hərdən alnında puçurlanmış tərini silə-silə uyuyurdu. Çətin ki, yırğalanan avtobusda o, nəsə böyük şeylər haqqında düşünə biləydi.

Adamların və maşınların eyni vaxtda hərəkət etdiyi dar küçələr yazqabağı məcrasından çıxmış dəlisov dağ çayını xatırladırdı. Avtobus bu selin düz ortasıyla yolunu azmış qayıq kimi ürkə-ürkə öz səmtini axtarırdı. İnsanlar tez-tez qəmli baxışlarını qaldırıb yolunu azmış qayığa, onun dərisinin rəngindən, gözlərinin maviliyindən bu yerlərə yad olduğu sezilən sərnişinlərinə tərəf baxıb gülümsəyir, əl edirdilər. Çoxdandı gülməyi tərgitmiş, ya da buna vaxt tapa bilməyən adamların qara, qırışmış çöhrəsində qəribə işıq oynayırdı. Günəşin böyük səxavətlə yandırıb-yaxdığı bu adamların üzünə təbəssüm elə yaraşırdı ki. Hara gəldi şütüyən maşınların arasından sıyrılıb uşağını darta-darta məktəbə aparan analar da, böyük ümidlərlə dünən divarda təsadüfən gözünə dəymiş iş elanında göstərilən ünvana tələsən atalar da, hətta çiynindəki meymunuyla saatlarca günəşin qızmarında dayanıb şəkil çəkdirmək üçün ağbənizli turist gözləyən dişləri tökülmüş qoca da selin ortasında lövbər vuran qayığı görcək gülümsünürdü. Daqqanın küçələri xüsusən də səhər çağı ilk baxışdan nəhəng xaosu xatırlatsa da, diqqətlə baxanda maşınların da, adamların da yalnız bir səmtə hərəkət etdiyini sezmək çətin deyildi. Bax, həmin bu anda Daqqanın mərkəzi küçəsiylə “Wall Street”in yerini dəyişmək mümkün olsaydı, yaxud tini burulan kimi günəşin qaraltdığı adamlar “Wall Street”ə, oradakı səliqəli kostyumlu, parlaq günəşə həsrət adamlar isə bu küçəyə çıxsaydılar, dünyanın məzmununda heç nə dəyişməzdi. Onsuz da hamı eyni ünvana can atırdı, hamı eyni cür tələsirdi...

Şəhər yuxudan təzəcə ayılsa da, dünyanın həm ucuz, həm də dadlı xörəklərinin bişirildiyi yeməkxanaların bacalarından çıxan iştahaçan rayihə ətrafı bürümüşdü. Dünən axşam Seryojanın viskiylə səhv saldığı “bxaci”nin qoxusu isə yolçunu yoldan saxlamağa bəs edirdi. Əgər bu yolçu tomat souslu kilkə konservi, turş xiyar və iki dilim qara çörəklə yarım litr arağı görəndə özünü cənnətə düşmüş hesab edən, qışın sazağını vətənində buraxıb buralara qədər gəlib çıxmış turistdirsə, məsələ aydındı.

Bal ayını Şri-Lankada keçirmək ideyası hələ toylarından bir ay əvvəl Saşanın ağlına gəlmişdi. Kompleksiz-filansız hamının yanında nişanlısının ondan ağıllı olduğunu dəfələrlə etiraf edən Seryoja təkliflə həmən razılaşmışdı. Toya bir həftə qalanda, gənclərin ürəyini oxuyurmuş kimi, qayınanasının etdiyi sürpriz lap yerinə düşmüşdü, – al, sizə Cənub-Şərqi Asiya ölkələrinə turpaket. Həmin gecə Seryoja arvadı haqqında özlüyündə formalaşdırdığı qənaətinə bir balaca korrektə etmişdi, – düzdür, Saşa ağıllı qızdı, amma anası ondan da ağıllıdı.

Turistlərin adına məscidlər şəhəri də dediyi Daqqanın yol kənarında addabudda gözə dəyən çəhrayı boyanmış yastı hasarlarını görcək Müjdənin

üzündə təbəssüm oynadı “bayaq Sakuranı necə təsvir eləmişdin”, - qıyılmış gözləri yol çəkən Səiddən soruşdu.

- Sakura? Deyirsən təzədən xəyallar dünyasına qayıdaq? - Səidin nigaran sifətində təbəssümə oxşayan nəsə yaransa da, gözləri yenə yol çəkirdi.

- Qayıdaq, əzizim, məgər xəyallar dünyasına getmək üçün bizdən viza istəyən var? Axı özün deyirsən xəyal qurmaq pulsuzdu, - Müjdə dilləndi.

- Pulsuzdu, bəli, amma niyə həmişə bu dünyanın pulsuz və məsuliyyətli işləri bizim bəxtimizə düşür?

- Of, başlama, Səid. Bircə bəxt adını tutma. Müsəlmanlar niyə həmişə bəxtlərindən şikayətlənirlər, başa düşə bilmirəm?

- Bilirsən necədi?..

- Sakura!

- Hə, qoy sən deyən olsun, Daqqanın aeroportuna kimi xəyallar aləminə pulsuz səyahət edə bilərik. Mən səni Sakura öz çiçəklərini sevdiyi kimi sevirəm. Mən səni….

- Artıq heç nə demə. Bu qədər yetər. Elə cümlələr var ki, ondan sonra, sadəcə, susmaq lazımdı. İndi mən Sakura çiçəyiyəm , - Müjdə başını Səidin çiyninə qoyub gözlərini yumdu. Belə vəziyyətdə onlar ikinci cərgədə oturmuş Tomas əmi və Merio xalaya bənzəyirdilər, elə bir zaman maşını hardasa yarım əsr dala qayıtmışdı, gözəl Merio sevgilisi Tomasın uzaq Şərqdə bitən Sakura haqqında dediklərinə elə valeh olmuşdu ki, bir göz qırpımında özü Sakura çiçəyinə dönüb ətir saçırdı.

Avtobus müştəri görən kimi bir-birini ötməyə çalışan balaca rikşaların sıxlığından, nəhayət ki, sıyrılıb uzun enli yolla hava limanı səmtə üz tuta bildi. Dünyanın çox yerində payızın sonuncu ayında gözə görünməyə xəsislik edən günəş burada var gücüylə parladıqca ətrafı sarmış rütubətin ağırlığı adamın nəfəsini daraldırdı. Üzü qışa dönərkən bu yerlərə axışan turistlər təyyarədən enər-enməz, üzlərini qarsan hərarəti Şərqin ən böyük ekzotikası kimi çox sevirdilər. Okean boyu uzanan qumlu sahillərdə çəkilən saysız-hesabsız “selfilər”, yaşıl çəmənliklərdə, çiçəklərin arasında poz vermək qışın oğlan çağında yolları buz bağlamış ölkəndəki ağzıgöyçəkləri, elə dostlarını da qıcıqlandırmaq üçün ələdüşməz fürsət idi. Görəsən, Banqladeşdə rikşa sürən, ya da turist görən kimi çiynindəki meymunu ilə birgə ağzı sulanan kişi də bu nəfəs kəsən rütubətin əlindən canını qurtarıb, məsələn, Alp dağlarının ətəklərində xizək sürmək istəyərdimi, daha doğrusu, bunu arzulayardımı? Sakura kimi insanların da arzularının tumurcuqlayan, çiçəkləyən və solan vaxtları olur. Elə arzular da var ki, heç vaxt çiçək açmır, tumurcuqlayan kimi də solurlar.

Daqqada hər kəsin öz zövqünə görə nəsə bir şey tapması mümkündü. Səid isə bu şəhərdə heç vaxt soraqlamadığı, heç yuxusunda belə təsəvvür etmədiyi məhəbbətini tapmışdı: tanışlıqları dostluğa, ardınca da sevgiyə çevriləndən sonra adına Müjdə dediyi Amamuni Suentayla məhz bu şəhərdə rastlaşmışdı. Elə ilk baxışdanca, nağıllarda olduğu kimi, bir könüldən min könülə vurulmuşdu. Hər şeylə maraqlanan turistlərin mənalı-mənasız yüzlərlə suallarını cavablandırarkən nəzərləri bir kənarda dayanıb saatlarca gözünü ondan çəkməyən qıza sataşmışdı. Pozuq ingilis dilində nə istədiyini soruşanda isə qızın gülümsünərək, senqalca turist olmadığını söyləməsinə təəccüblənmişdi. Bundan sonra onun dediyi bütün sözlərə sifətində donmuş eyni təəccüblə qulaq asmışdı: hər ikisi eyni ölkədən, eyni şəhərdən, hələ üstəlik, eyni firmanın işçiləri idilər. Müjdəylə təcrübəli bələdçinin yanında iki aylıq sınaq müddəti keçdikdən sonra, yaxşı xasiyyətnamə alacağı təqdirdə

müqavilə imzalanacaqmış. Səid adamın beynini buxarlandıran qızmar günəşin altında gözlərini bir an da olsun ondan ayırmayan qızın söylədiklərinə bilmədi qəzəblənsin, ya sevinsin. Dostlarından eşitmişdi ki, firmanın hər şeydə qənaət etməkdə ad çıxarmış simic meneceri sınaq müddətində çalışan köməkçilərin pulunu da bələdçilərin məvacibindən kəsməklə ödəyir. Nə vaxtsa Asiyanın bu qızmar qazanından canını qurtarıb Londonda yaşamaq xəyalları quran Səidə isə əlçatmaz arzularını həyata keçirmək üçün hər şeydən çox pul lazım idi. O, ucuz benqal şorbası və bir-iki bananla gününü yola verməyə hazır idi, boğazından kəsib topladığı qəpik-quruşu hər dəfə sayanda, xəyalında yalnız bir şey vardı – bacardıqca uzaqlara qaçıb getmək, dünyanın o biri başına, daha doğrusu, Londonun dərinliklərinə. O, cırmaqlaya-cırmaqlaya acgöz menecerdən qopardığı halal məvacibini kiminləsə bölüşmək istəmirdi və heç vaxt da istəməyəcəkdi. Haradan ağlına gələ bilərdi ki, cibinin pulunu bölüşmək istəmədiyi bu qarayanız, gülərüz qızla, az keçməz ki, ömür yolunu bölüşəcək… Başını çiyninə qoyan kimi uyumuş Müjdənin yuxusuna gələcəyin şirin xəyalları girdiyindən, yaman qayğısız görünürdü. Yaxşı ki, bu dünyada xəyal qurmaq kimi, yuxu görmək də hələ ki, pulsuz idi, Səid özlüyündə düşünürdü.

Hər dəfə turistlərlə birgə vətənlərinə yaxınlaşdıqca səbəbini yaxşı başa düşdüyü ağırlıq altında sıxılırdı. Elə bil vətənə yaxınlaşdıqca dünyanın ən amansız cəlladı bütün doğmalarının gözü qabağında onun başını məngənənin arasına salıb sıxırdı, hamı elə məhz belə də olmalıymış kimi qımıldamadan kənarda dayanıb ona baxırdı. Adam da anadan olduğu, çörəyini yeyib, havasını udduğu torpağından uzaqlaşanda bu qədər xoşbəxt ola bilərmi yəni? Quşlar, başqa məsələ, qanadları çıxan kimi öz yuvalarından uçub gedirlər və heç vaxt yumurtadan çıxdıqları səmtə tərəf baxmırlar, heç ondan sarı darıxmırlar da. Çünki onların hansısa yaxşı və ya pis fərqi yoxdu, ağacın budağında öz yuvalarını qurmaq imkanı var və bunu, sadəcə, instinktlərinin köməyi ilə edirlər. İnsan quş deyil axı, pərvazlanıb hara baş vurursa-vursun yenə də öz torpağına dönmək istəyir, hətta dönmək imkanı olmasa belə, heç olmasa, bunu arzulayır. Yəni elə adam tapılarmı ki, xəritədə ölkəsinin yerini görəndə gözlərinə işıq gəlməsin? Elə adam təsəvvür etmək mümkündürmü ki, hansısa qürbət elin küçəsində qulağına uşaqlıqdan alışdığı doğma melodiyalar toxunanda nəsə xatırlamasın? Səidin Daqqadan hava limanına ilan kimi uzanan yolun bozluğunda beynini didən bu suallara cavabı beləydi ki, bəli, bu cür adamlar ola bilər. Adam var, öz elində, doğmalarının arasında tənhadı, sanki həmişə qürbətdə yaşayırmış kimi, gəzib-dolanır, adam var ki, zatında naşükürlük var, sadəcə, canını qoymağa yer axtarır, harda yorğanı qalındırsa, oraya da vətən deyir. Adam da var, içini yeyib dağıda-dağıda günahı həmişə özündə axtarır. Nahaq yerə! Əgər torpaq sənə vətən olmaq istəmirsə, neyləyə bilərsən? Belə olan halda ölüb o torpağa qarışmağın mənası nədi? O, başa düşürdü ki, Daqqa turundan sonra Hindistanın ucunda göz yaşı kimi düyünlənmiş vətəninə gedəcəkdi və qiyamət bundan sonra qopacaqdı. Dünyanın dörd bir yanından gəlmiş turistlər öz məzəli xatirələrini də yığışdırıb geri qayıdacaqdı. Və təbii ki, sevinərək. Döndükləri yer onların yuvası, istinad nöqtələri, öz yurdlarıydı axı, niyə də sevinməsinlər? Yalnız o, istisna idi. Vətəninə yaxınlaşdıqca canına daraşan əndişənin əsil səbəbini açıb Müjdəyə deyə bilmirdi. Qızcığazın onu təmiz, saf duyğularla sevdiyini bilirdi, hətta bu hisslər o qədər duru və qüsursuz idi ki, bunu ifadə etmək üçün məhəbbət sözünün özü belə hardasa qüsurlu görünürdü. Məhz Müjdənin xətrinə real həyatda bir dəfə də görmədiyi Sakura

və onun ürəkləri riqqətə gətirən ətirli çiçəkləri haqqında internetdə nə vardısa, tapıb oxumuşdu. O, hər dəfə ağac haqqında elə canlı danışırdı ki, Müjdə doğrudan da onun Sakuranı gördüyünü zənn edirdi. O, bu ağacı görmüşdü, lakin nə yuxusunda, nə də uzaq Yaponiyanın parklarında, Səid Sakura çiçəklərini Müjdənin gözlərində görmüşdü. O gözlərdə həmişə bahar idi, nə nəfəs boğan rütubətli istilər vardı, nə də ilik donduran şaxtalar. Orada həmişə bəxtəvərcəsinə dayanan Sakura qollarını yana açıb çəhrayı çiçəkləriylə insanları heyrətə salır, görənlərin qəlbini yalnız məhəbbətlə doldururdu.

"Günü-günə calamağın nə mənası? Nəyi gözləyirsən? Bir qərara gəl! Gül kimi qızın da gözünü yolda qoymusan", - söhbəti hardan salırsan, sal, anası yenə də həmişə eyni mətləbin üzərinə gəlirdi. Ana hər dəfə sözü evlənməyin üzərinə gətirəndə gözləri elə parlayırdı ki, sanki oğluna toy etməyə yox, özü ərə getməyə tələsirdi. O, uşaq vaxtından nənəsinə isinişmişdi, hər şeydə sözü keçən, nəslin bütün dərd-sərini təkbaşına qərarları, barmağının bir işarəsiylə həll edən ötkəm nənənin dünyasını dəyişməsindən sonra isə təzəcə bığ yeri tərləməyə başlayan Səid yavaş-yavaş doğmaları arasında təkləndiyini hiss elədi. Qəddar qəbilə başçısı taxtdan düşəndən sonra başını itirmiş kütlə yeni başçı meydana çıxana qədər vəhşi xaosun içərisində necə çırpınırdısa, Səidin də əmili, dayılı, xalalı, bibili böyük icması nənənin qəfil vəfatının ardınca bir-birini eləcə didib-dağıtmağa başlamışdı. Nə vaxtsa taxtın həndəvərində hamının barmaqla göstərdiyi yaraşıqlı "şahzadə" bir göz qırpımında yefreytora çevrilmiş generalı xatırladırdı. Hələ həyatın ucundan baxmağa fürsət tapmadığı anda insanların, özü də bir kökdən, bir şəcərədən gələn insanların amansız sifətini görəndə anlamışdı ki, bu dünyada ən soyuq şey uzaq Antarktidanın buzlaqları yox, adamın öz doğmalarının üzüdür. İnsan sifəti necə soyuq olarmış, qəlblər necə buz bağlayarmış, ilahi. Patriarxın gözlənilmədən, kiməsə bircə kəlmə demədən, ən əsası, heç bir vəsiyyətnamə qoymadan ölümü əvvəlcə hamını karıxdırsa da, az keçmədən bu çaşqınlığın yerini qəzəb və acgözlüyə bürünmüş siyasət tutdu. Patriarx-nənə də nə vaxtsa qəflətən, həm də beləcə urvatsız öləcəyini təsəvvür etmirmiş, ümumiyyətlə, ölmək haqqında fikirləşmir. Amma öldü. Nənənin açarını sinəsinin ortasında gizlətdiyi sehrli sandığından tutmuş, mülklərə və torpaqlara, fillərdən, inəklərdən tutmuş itlərə, pişiklərə qədər hər birinin uğrunda xalalar-bibilər, əmilər-dayılar qruplaşmasının amansız davası başladı. Tarix dəfələrlə göstərib ki, irili-xırdalı bütün müharibələrdə ən böyük təhlükə qəfil endirilmiş zərbədən yox, tərəddüddən yaranır. Səid də tərəddüd içərisində çırpınırdı: bu qovğalarda, saysız-hesabsız şantajlar, qarayaxmalar, məhkəmə çəkişmələrində o heç kimin ağlına gəlməyən, heç kimin haqqında düşünmək belə istəmədiyi məsələ ətrafında baş sındırırdı – görəsən, haqlı kimdi? Alayarımçıq həqiqətin əlində əsir-yesir qaldığı vaxtlarda Lələ dayısı gözlənilmədən ona İngiltərəyə dil kurslarına getməyi təklif etdi. Bu, əslində onun öz arzusu idi ki, həyata keçirmək üçün turizm firmasından aldığı məvacibini qəpiyinə də toxunmadan yağıb saxlayırdı. Hətta nənəsinə belə söyləmədiyi arzusunu indi dayısı sanki onun gözlərindən oxuyurmuş kimi dilə gətirmişdi. Kişinin hələ səfərin bütün xərclərini də öz üzərinə götürəcəyini söyləməsi isə aydın səmada gözlənilmədən çaxan şimşək kimi gözlərini qamaşdırmışdı. Maraqlıdı ki, bütün nəsildə xəsisliyinə görə ad çıxarmış atası, heç vasvasılıqda ondan geri qalmayan anası da dayısının təşəbbüsünə həmən razılaşmışdılar. Beləliklə, patriarxın paqonları yonulmuş generalı öz şübhəli tərəddüdləri, mənasız həqiqət axtarışlarıyla nəsil davasında kiminsə əl-ayağına dolaşmaq şansını birdəfəlik itirmiş oldu. Altı ay nəzərdə tutulsa da,

hardasa bir ilə qədər uzanan London mədəni “sürgünündən” qayıtdıqdan sonra isə artıq həyat başqa cür idi: qarşı cəbhədə dayanmış əmilər və bibilər heydən düşmüş, parçalanmış onların yerini tutan dayılar və xalalar isə hər şeyi qamarlamış və möhkəmlənmişdilər. İndi onun nənəsinin sehrli sandığının açarı soyuq qəlbinə hətta şimal buzlaqlarının belə həsəd apardığı bibisinin - atasının evdə qız qarımış bacısı Qaracanın sinəsindən asılmışdı, onun general paqonları isə iki daşın arasında Lələ dayısının on dörd yaşlı balaca qızıyla nişanlanmağa müvəffəq olmuş böyük qardaşının çiyinlərində parlayırdı. Atasıyla anası nənə-patriarxın vaxtında olduğu kimi, Qaraca bibinin zamanında da yalnız maliyyə işləriylə məşğul idilər, daha doğrusu, nəslin, yerdə qalan üzvlərinin cibindəki pulları hesablayıb, onları necə qopartmağın yollarını axtarırdılar. Səid London səfərinin əslində onun bütün ümidlərini puç etməsini, işlərinin elə ilk gündən tərs gətirməsinin izahını vermək üçün kiminləsə danışmaq istəyirdi, amma evdə heç kim onu dinləyəcək ovqatda deyildi. İndi hamı, nəhayət ki, nəsil davasını qələbəylə başa çatdırmış yeni patriarxın zəfərinə – dayısı qızına nişanlanmış təzə generalın toyuna hazırlaşırdı. Nənəsinin vaxtında küncə sıxışdırılmış, səsləri siçan deşiyindən çıxan adamlar indi hardansa peyda olub olduqca vacib personaya çevrilmişdilər. Toya iki gün qalmış anası bundan sonra onun bütün həyatını qara rəngə boyayan sözləri demişdi, “yadından çıxmasın, Lələ dayının böyük qızı sənin göbəkkəsdindi”. Gözləri dörd olmuş Səid nəsə deməyə macal tapmamış, ana əlavə etmişdi “siz anadan olanda belə şərt kəsmişik. Adətimiz belədi. Qaraca bibin də razıdı”. “Axı mən hələ qundaqda olarkən üzünü görmədiyim qızı necə sevə bilərdim”, - Səid başını döyəcləyən bu sualı nə həmin an, nə heç vaxt dilinə gətirmədi. Qardaşının toyu isə toydan daha çox tayfa davasından zəfərlə çıxmış yeni qüvvələrin təntənəli şousunu xatırladırdı. İndi evin hər tərəfində Qaraca bibinin özünə sədaqətli qohum-əqrəbanın uşaqlarından formalaşdırdığı “gənc qvardiya”nın üzvləri qaynaşırdı, nəsil düşməni elan edilmiş əqrəbalar isə məğlubiyyətin acısıyla çoxdan barışdıqlarından hətta evlərini dəyər-dəyməzinə satıb uzaqlara köçmüşdülər. Ata - puldan başqa hər şey onun gözünə iyrənc və məzmunsuz göründüyündən, sanki ətrafda baş verənlərlə maraqlanmırdı, ya da hər şeyin məhz belə olması ürəyindən idi. Ana – nənə taxtının mütləq sahibinə çevrilmiş qarımış baldızının bütün əmrlərinə dinməz-söyləməz əməl edərək sədaqətli köpəyə çevrilmişdi. Qaliblərə və məğlublara bölünmüş ağ-qara dünyada hər şeyi öz rəngində görən nəslin yeganə kişisi Səidin qəlbi isə həyatından çox sevdiyi Müjdənin yanında idi. Adətən atasından çəkinən Şərq kişiləri kimisə sevdiklərini analarına deyirlər, çox zamansa bunu deməyə ehtiyac qalmır, diqqətcil ana hər şeyi balasının nigaran gözlərindən oxuyub yavrusunun məhəbbət alovunda qovrulduğunu anlayır. Amma bura Şərqdi və burada iki dəfə iki heç də həmişə dörd eləmir.

Şri-Lankaya çatanda artıq bir ildən çox acı bağırsaq kimi uzanan bu “göbəkkəsdi” söhbətinə dəqiq nöqtə qoymaq lazım gələcəkdi. Səid yaxşı anlayırdı ki, Qaraca bibini hiddətləndirib özündən çıxaracaq bu nöqtəni elə öz həyatının son nöqtəsi kimi də başa düşmək olardı. Kəbini bələkdə kəsilmiş halalca dayısı qızını qoyub tanınmaza-bilinməzə başqa tayfadan, hətta başqa dindən qız almaq onların nəsil kitabında yazılmamışdı. Yeni səhifə açmağı isə kimsə arzulamırdı, çünki o səhifə yazılmamışdan əvvəl cırılıb atılmışdı. Hər şeyi ağ-qara görən qaliblər və məğlublar dünyasında nə Səidə, nə də Müjdəyə yer vardı. Hər zaman düşünərdi, dünyanın, demək olar ki, bütün rənglərinin əks olunduğu Şri-Lankada nədən insanlar hər şeyi yalnız iki

rəngdə görür? Bu barədə bir dəfə Müjdəyə danışanda qız onun dediklərini zarafat bilib gülümsəmişdi. Onun füsunkar gülüşləriylə elə bil Sakura günəşə sarı boylanıb tumurcuqlarını açırdı, elə bil təzə qanad açmış bülbüllər yasəmənin ətir saçan nəm budağına qonub nəğmə oxuyurdu. Hər dəfə bu zəqqun dadan həqiqəti demək üçün qızın üzünə baxanda, gözləri səhər mehini xatırladan təbəssümə toxunurdu və ağzını açmağa cürət etmirdi. Daqqanın hava limanına acı bağırsaq kimi uzanıb gedən yol nə vaxtsa qurtaracaqdı, turistlərin şit macəraları da arxada qalacaqdı və nəhayət, Kandiyə qayıtmalı olacaqdılar. Səid qəti qərara gəlmişdi ki, vətənə çatmamış təyyarədə - göyün yeddinci qatındaca hər şeyi açıb Müjdəyə danışsın. Ürəyinə dammışdı ki, ayağı vətən torpağına dəyən kimi yenə də dili tutulacaq, yenə həqiqəti deyə bilməyəcəkdi.

“Allahu-əkbər!”, “Allahu-əkbər!”… - əllərində Banqladeşin bayrağını tutmuş, üst-başından his-pas, gözlərindən qəzəb yağan kütlə sanki boşluqdan peyda olmuş kimi avtobusun qabağını kəsdi. Sürücü əyləci basıb maşını saxlamağa zorla müvəffəq oldu; mürgü vuran sərnişinlərin hamısı irəli-geri gedib diksindilər, gözlərini açınca özlərini vahimə saçan insan selinin düz ortasında gördülər. “Allahu-əkbər!”, “Allahu-əkbər!”… sifətləri toz-torpaqdan seçilməyən insanlar avtobusu əhatəyə alıb bağırırdılar.

***Bakı, yanvar, 2018***

Dostum mənə sevgi romanı yazmaq ideyasını verəndə, açığı deyim, yaradıcı böhran içindəydim. Həmin vaxtlar keçirdiyim hissin adına yaradıcı böhran yox, məyusluq desəm, daha doğru olardı. Düzdü, yazıçı kimi tanınırdım, iki hekayələr kitabım, dörd il bundan əvvəlsə romanım çıxmışdı, ölkəmin tirajı azalan qəzetlərində, jurnallarında aradabir müsahibələrim, hekayələrim, bəzən də məqalələrim dərc olunurdu. Hətta İncəsənət Universitetinin tələbələri jurnalların birində oxuduqları absurd pyesimi özlərinin buraxılış işi kimi səhnələşdirmişdilər də. Düzdü, cəmi-cümlətani bircə dəfə oynanılan tamaşanın premyerasına məni çağırmamışdılar, çox yaxşı uşaqlar idi, sonradan üzümə qarşı demişdilər ki, elə bilmişik siz ölmüsünüz. Açığı nə təəccübləndim, nə də onları qınadım, çünki bizim teatrlarda diri dramaturqlardan daha çox ölülərə üstünlük verildiyini hamı yaxşı bilirdi. Nəlbəkidə fırtınaya oxşayan müvəffəqiyyətlərimin hamısını sadalamağa ehtiyac duymuram, ona görə ki, bunların heç biri yeni əsər yazmağım üçün əsas vermirdi, əksinə, günü-gündən ruhdan düşür, daha da bədbinləşirdim. Əgər vicdanlı bir tənqidçi vaxtında deyəsdi ki, sənin nəinki böyük əsərlər yaratmağa, heç ədəbiyyatın sərhədlərinə yaxınlaşmağa istedadın çatmır, özünə əziyyət verib mənasız mətnlər qaralamaqdansa, bacardığın işlə məşğul ol, bəlkə də, mən dayanardım, rahat olardım. Amma bir vaxtlar tirajını deməyəcəyim dərgilərdə haqqımda elə dəhşətli şeylər yazırdılar ki, özümdən xoflanmağa başlamışdım. Hamını söyüb qaralamaqda ad çıxarmış ölkəmin məşhur mirzələrindən biri gözləmədiyim halda nədənsə kitablarım haqqında elə tərifli yazı yazmışdı ki, oxuyan kimi hər iki qoltuğumda qarpız göyün yeddinci qatına qalxmışdım. O məqaləni uzun müddət yazı masamın üzərinə sərib saxlayırdım, sonra böyük məmnuniyyətlə zibil qutusuna atdım. Həmin adam bəlağətli cümlələrlə əsərlərimi vəsf etdikdən sonra özümü də yaddan çıxarmamış və məni Markeslə müqayisə etmişdi. Siz mübaliğənin (oxu: ələsalmanın, həyasızlığın, sırtıqlığın, qanmazlığın, rəzalətin və sairənin) miqyasını təsəvvür edirsinizmi? O vaxta qədər mən Markes deyilən yazıçının

heç bir cümləsini oxumamışdım, utandığımdan, demək olar ki, bütün kitablarını tapıb oxudum və özümlə onun arasında nəinki dırnaq ucu, heç iynənin sapı keçən dəliyi boyda da oxşarlıq tapa bilmədim. Əksinə, bizim aramızda mənim vətənimdən Makondaya qədər uzanan dəf olunmaz, ümumiyyətlə, təsəvvürə gəlməz boşluq gördüm. Az qala unutmuşdum, o zamanlar mənim zərli paqonlarım var idi və onların parıltısından gözü qamaşan mirzələrin hamısı haqqımda paytaxt mətbuatından tutmuş rayon və divar qəzetlərinə qədər harda gəldi nələrsə yazırdılar, iş orasındadır ki, bu səfehlər briqadasının, hara gəldi dürtülənlər dəstəsinin cızma-qaralarına mən də inanırdım. Paqonlarımın zəri yolunandan sonra da mən yenə yazmağa davam etdim, özü də əvvəlkindən də böyük həvəs və şövqlə. Hiss edirdim ki, gecəmi gündüzümə qatıb öz üzərimdə işləməyim; qalın-qalın kitablar oxumağım, saysız-hesabsız bədii kombinasiyalar qurub eksperimentlər aparmağım artıq bəhrəsini verməkdəydi, mən daha yaxşı yazırdım, ən əsası isə yazdıqlarım artıq özümün xoşuma gəlməyə başlamışdı. Romanımdan sonra yeni hekayələr kitabımı həmişə olduğu kimi öz cibimin puluna çap etdirdim, hətta nəşriyyata əlavə ödəniş də etdim ki, qiyməti iki manatdan baha qoymasın. Amma bu dəfə mirzələr heç nə yazmadı. Mənim sadiq oxucularım da qeybə çəkildilər. Kitablarımı şəhərimizin barmaqla sayılan kitab satan mağazalarının vitrinlərindən yığıb dostlarımın çalışdığı qəzetin abunəçilərinə hədiyyə etməkdən başqa çarəm qalmadı. Hədiyyə deyəndə bir az böyük çıxır, onlar bunu mənim xətrimə dəyməmək üçün qəbul etmişdilər. Bir yerdə ki, müəllifin paqonlarının parıltısına görə kitablarıyla maraqlanırlar, bir yerdə ki, oxucuların hamısını az qala şəxsən tanıyırsan, bundan sonra davam etməyə dəyərmi? Gündüzlərini havalı kimi dalğın, gecələrini səksəkəli nigaranlıqla keçirdiyim günlərdə mən yalnız bu haqda düşünürdüm. Özümü qoymağa yer tapmırdım, çünki bu dünyada bacardığım ən gözəl iş yazı yazmaq idi. Məhz beləcə məyusluq burulğanına düşüb çabaladığım vaxtlarda dostum mənə sevgi romanı yazmaq ideyasını verdi. Bu sözləri telefonda deyəndə əvvəl elə bildim zarafat edir, amma görüşüb ciddi söhbət etmək lazım gəldiyini söyləyəndə, mütləq nəyinsə baş verəcəyini və yaxud nəsə böyük bir hadisənin ərəfəsində olduğumu anladım. Qərara aldıq ki, şəhər mərkəzində, iki sinaqoqun arasından uzanan Qış parkında görüşək.

Bağışlayın, özümü təqdim etməyi unutdum –“Allahu-əkbər” qışqıran adamların əhatəyə aldığı avtobusdakı turistlərin taleyindən nigaran qaldığınız anda özü haqqında tragikomik şeylər danışaraq romana dürtüşdürmüş adamın kimliyi ilə maraqlansanız, əlinizdə tutduğunuz kitabın üzqabığına baxa bilərsiniz. Yox, əgər bu sətirləri qımışaraq, hər halda, nəisə mənə elə gəlir ki, siz qımışırsınız, rahat divanda uzanıb planşetdə, ya da metronun basabasında ayaqüstə smartfonda oxuyursunuzsa, onda zəhmət olmasa, əvvələ qayıdıb müəllifin adına bir də baxın - tanışlığımıza çox şadam.

- Sənə yaxşı bir süjet verəcəm, - ağızucu salamlaşandan sonra dostum dərhal mətləbə keçdi. Açığı onun girişsiz-filansız birbaşa mövzudan danışması qəribə görünsə də, xoşuma gəldi. Parıldayan gözlərinə baxandaysa özümü “Müfəttiş” haqqında danışan Puşkinə heyrətlə qulaq asan Qoqolun yerində hiss etdim. Hər şey məhz həmin andan başlayır; heç kimin fikir verməyib yanından ötdüyü, hamının gözünün qabağında olsa da, görə bilmədiyi xırdaca bir detal sonradan böyük əsərlərin bünövrəsinə çevrilir. Sinaqoqların arasındakı uzun parkda yanaşı addımlayan biz dostları rus klassikləri ilə müqayisə etməyin nə boyda allahsızlıq olduğunu başa düşürəm, amma hər halda, söhbət böyük ideyanın kökündə dayanan sadə

həyat həqiqətindən gedir. Hansı ki, indi mənim dostum həmin həqiqəti anladırdı.

- Çox qəribə əhvalatdır, adamın içini göynədir, - deyə o, söhbətinə ayaq verdi. Mən əllərimi arxamda çarpazlayıb ona diqqət kəsilmişdim, – iki gənci bir-birini sevdiyinə görə öz vətənlərində öldürmək istəyiblər və onlar da sığınacaq almaq üçün bizim ölkəyə qaçıblar, - o, bunu deyib azacıq pauza verdi və düz gözlərimin içinə baxdı. Puşkin Rusiyanın ucqar bir əyalətində özünü məmurların gözlədiyi müfəttiş kimi təqdim edərək hamını doladıqdan sonra aradan çıxan Xlestakovun dələduzluğu haqqında danışanda Qoqolun hansı hisslər keçirdiyini deyə bilməsəm də, dostumun rəsmi protokol dilində söylədiyi cümlə məndə heç bir təəssürat oyatmadı. Onun parıltılı gözlərini hələ də mənim üzümdən ayırmadığını görüb ruhsuz bədən kimi dilləndim:

- Sonra?

- Nə sonra? Təsəvvür edirsənmi, XXI əsrdə insanları nəyə görəsə yox, bir-birlərini sevdiklərinə görə linc etmək istəyirlər. Başa düşürsənmi, dünyanın hələ də elə yerləri var ki, orada sevmək yasaqdı. Dəhşətli deyilmi? - Qış parkını o baş-bu başa gəzişə-gəzişə o, mənim nə reaksiya verəcəyimi gözləmədən danışırdı. Hiss etdim ki, çox sarsılıb və sadəcə, ürəyini boşaltmaq istəyir. Mən müdrikcəsinə susub ona qulaq asmaqdan savayı nəsə edə bilməzdim. Ona isə elə gəlirmiş ki, adi protokol cümləsinin təsirindən mən artıq beynimdə gələcək romanın kompozisiyasını qururmuşam. Ax sizi məmurlar, məmurlar... Elə bilirlər ki, yazıçının əlində sehrli çubuğu var, axşam evdə fırladan kimi masanın üstündə təzə roman peyda olacaq. Sizə nə deyim axı? Dünyanın harasına gedirsən get, hamınız bir-birinizə oxşayırsınız; qalstuklu, kostyumlu, əmrə müntəzir və hamıya məsləhət verən. Yaxşı ki, bu dünyada bir-birinə oxşamayan yazıçılar və onların özlərindən sonra heç kimə bənzəməyən ləpirləri var. O danışır, mənsə xətrinə dəyməyib qulaq asırdım və onun hesabına, nəhayət ki, mixəkli çay içəcəyimiz anı səbirsizliklə gözləyirdim. O isə maşallah, dil qəfəsə qoymurdu, yəqin nitqinin səlisliyinə uyub elə güman edirmiş ki, məni təzə roman yazmağa ruhlandıra bilib.

- Bilirsənmi, mən onların bizim ölkədə, bəli, məhz bizim ölkədə sığınacaq almaları üçün əlimdən gələni edəcəm. Onların da xoşbəxt olmaq haqqı var. Bu gün axır ki, oğlanın izahatını bitirdim. Adı bilirsən nədi? Səid – gör necə mülayim səslənir. İlk dəfə onun üzündə təbəssümə oxşayan nəsə sezəndə mənə elə gəldi ki, o, uzun müddətdir gülməyi yadından çıxarıbmış. Necə ola bilər ki, insanın vətənində, öz doğmalarının arasında üzü gülməsin? Onun ürəyi özündən iki dəfə böyükdü. Bəli! O ürəkdə sevgi elə kök salıb ki... İçi yalnız sevgiylə dopdolu olan ürəyin döyünməyə haqqı var. Axı adam buna necə biganə qala bilər? Bax, danışdıqca tüklərim biz-biz olur, hətta gözlərim də sulanıb. Nə fikirləşirsən?

- Çay içməyim… ağlamağım gəlir, - suala belə tez və hazırlıqsız yaxalanacağımı gözləmirdim. Adətən universitetdə, universitet demişkən, mən bu məmurla bir yerdə oxumuşam, hətta bir partada oturmuşam. Elə dostluğumuzun bünövrəsi də otuz il bundan qabaq tələbəlik illərində qoyulub. Yorucu mühazirələrdə müəllim yuxulu gözlərimə baxıb qəflətən sual verəndə də elə indiki kimi çaşıb qalardım. Dostumun gül kimi lirik, sentimental mühazirəsini də şuluq tələbə kimi korladım. Yazıq əməllicə dolmuşdu, mən də deyirəm çay içməyim gəlir.

- Yaxşı, gəl oturaq, - o, məyusluğunu gizlədərək, özünü o yerə qoymadı, – həmişəki kimi mixəyini bol elə, - ofisianta tapşırdı. Bax, bu başqa məsələ, indi mən buğlanan mixəkli çaydan qurtuldadaraq, barmaqlarımın arasında ağ

mələk kimi nazlanan sevimli siqaretimdən dərin qullab alıb lirikanın davamına məmnuniyyətlə qulaq asardım. Lakin oturan kimi elə bil sual yağışına düşdüm.

- Hə, nə düşünürsən? Bir şey alınar? - səbirsizliklə soruşdu.

- Maraqlıdı, - candərdi dilləndim. Başqası olsaydı dərhal deyərdim ki, yığışdır bu düşük lirikanı da məndən uzaq gəz. Aramızda otuz ilin xətir-hörməti, ağrısı-acısı vardı, o biri tərəfdənsə poqonlarımın zəri yolunandan sonra bir vaxtlar başıma pərvanə kimi dolanan mirzələr, tənqidçilər, dost hesab etdiyim kəslərin çoxu onsuz da bacardıqca məndən uzaq qaçırdılar. Cəmiyyətdən az qala təcrid olunduğum halımla bir tərəfdən də onu, ən yaxın dostumu itirmək istəmirdim, sadəcə, ümumi ifadələr və xoş sözlərlə yola vermək lazım idi, – sevgi həmişə ədəbiyyatın əsas mövzulardan olub, - dedim. Belə kitablar da yaxşı satılır, cavanlar alıb oxuyurlar, bir-birlərinə hədiyyə edirlər. Ümumiyyətlə, sevgi mövzusu bütün dövrlər üçün həmişə aktualdı.

- Bu adi sevgi deyil ki? Sən bunu adi oğlan-qız məhəbbəti kimi başa düşürsən?

- Axı sən danışdığın kontekstdə söhbət iki əks cinsin münasibətindən gedir də. Bunu maraqlı etmək üçün yazıçılar, demək olar ki, eyni texnologiyadan istifadə edirlər; qızla oğlan bir-birini sevir, ya valideynlər razı olmur, ya hansınınsa hardansa adaxlısı peyda olur, ya oğlan kasıb olur qız varlı, ya əksinə – təxminən beləcə oxşar kombinasiyalar saysız-hesabsızdı.

- Sən dediyin kombinasiyaların heç biri buna aid deyil. Oğlan da, qız da ayrı dinlərə məxsusdur, yəni sizin dilinizcə desək, konflikt üzdə deyil, dərindədir.

- Yazıblar, vallah onu da yazıblar. İstəsən mən sənə “Şeyx Sənan”ın bir neçə versiyasını danışa bilərəm. İslamın şeyxi sevgisi yolunda dinini dəyişir, hətta gedir…

- Saxla! Səid müsəlman olsa da, dinini dəyişmək istəmir, qız da onu sevir, amma öz Buddasına sitayiş eləyir. Üstəlik bu sevgini anlamayan cəmiyyət gəncləri parçalamağa hazırdı. Bunlar fərqli şeylərdir. Yox, əgər sən hesab edirsənsə ki, bu danışdıqlarım cəfəngiyatdı o başqa məsələ.

- Nə danışırsan, qardaşım, - artıq söhbət ciddiləşmişdi, o, mənim belə soyuq münasibətimi gözləmirmiş. Neyləyim ki, həqiqətin dadı həmişə acı olur. Axı qarşımdakı başqa adam deyildi, uzun illərin dostu idi, onun melodramı xatırladan məhəbbət süjetini yalandan tərifləsəm və hətta elə bu gecədən oturub nəsə yazacağımı desəm, riyakarlıq çıxmazdımı? İndi mən elə ehtiyatlı cümlələr seçməliydim ki, həm onun xətrinə dəyməsin, həm də bu söhbətə birdəfəlik nöqtə qoyulsun, – sənin danışdıqlarını başa düşürəm, doğrudan da təsirli əhvalatdı. Elə Şeyx Sənanın məhəbbətini də cəmiyyət məhv edir və final da çox təsirlidi - sevənlər əl-ələ tutub özlərini qayadan atırlar. Nakam sevgi…

- Bunların sevgisi isə nakam deyil, - o, yenə də sözümü kəsib israrla öz bildiyini deyirdi, onu fikrindən daşındırmaq heç də rahat olmayacaqdı. Bu arada ofisiant yaxınlaşıb çayları süzdü, bayaqdan umsuq olduğum mixəyin ətri burnuma toxunan kimi dünya gözümdə gözəlləşdi. Yenidən müdrik poza alıb dostuma qulaq kəsildim, – nəyə görə hesab edirsən ki, əsil sevgi mütləq yarımçıq qalmalıdı? Mütləq nəsə faciəvi sonluq olmalıdı?

- Faciə maraqlıdı axı, - çaydan bir qurtum alıb, mənasız replika atdım.

- Faciə maraqlıdı deyə Füzuli Leylini, Şekspir də Cülyettanı öldürüb?

- Əşi, sən hara getdin çıxdın? Tay elə də yox də, yəni deməyim odu ki, faciə janr kimi maraqlıdı.

- Sən də elə bir əsər yaz ki, orada segililər ölməsin, öz vüsallarına çatsınlar, bizim qəhrəmanlar kimi. Axı yazıçılar niyə gözlərinin qabağındakı həyatı görməyib, mütləq özlərindən nəsə uydurmalıdırlar? Mən sənə real həyatdan danışıram, real insan taleyindən, özündən nəsə kəşf eləməyə, artırıb-azaltmağa ehtiyac yoxdu.

Yaman yerdə axşamladıq, buna deyərlər. Büruzə verməsəm də, artıq əsəbləşməyə başlamışdım, bütün məmurluq karyerası boyu quru, rəsmi dildə izahat və protokoldan başqa bir şey yazmayan adamın indi qarşımda Emil Zolya kimi realizmdən master-klass keçməsinə dözməyə halım yox idi. Qulaqlarım yavaş-yavaş qızarırdı, bir az da belə davam eləsəydi yüz faiz “partlaya” bilərdim. İstədim deyəm ki, bilirsən nə var, belə ürəyindən keçir, götür özün yaz, onsuz da məmləkətimin o qədər mundirli yazıçısı var ki, biri də ol sən, bundan ədəbiyyat nə itirəcək, nə də qazanacaq. Demədim, dost idik axı. Dostluq belə şeydi də, uzun kəndirə oxşayır, gərək heç zaman qırılmasın, hərçənd qırılandan sonra da dartmaq olur, amma ortasında düyün qalır.

- Bilirsən, qardaşım, - yenə mülayim, bacardıqca diplomatik formada sözə başladım, - hərənin bir yazı tərzi var – kimi realizmi sevir, kimi magik realizmi, kimi naturadan çəkir…

- Amma hamı həyatdan yazır!

- Sən mənim canım, sözümü kəsmə də… Əsas odu yazıçı yazmaq istədiyi mövzuda ədəbiyyatı görsün. Başa düşürsənmi? Həyatda çox şeylər olur, bilmirəm hər dəqiqə dünyaya nə qədər insan gəlir, nə qədər insan ölür. Hərəsi bir taledir, hərənin özünə maraqlı görünən hekayəsi var, amma bunların hamısının içində ədəbiyyat yoxdu axı. Elə sənin danışdığını götürək, müxtəlif dinlərə sitayiş edən sevgililər qoşulub qaçıblar bizim ölkəyə. Deyim sənə ki, onlar çox zirək tərpəniblər, hiss olunur ki, təzə əsrin diribaş gənclərindəndilər. Amma Şeyx Sənan öz Tamarasıyla qayadan atılmışdı, heç yana qaçmamışdı. Elə bilirsən qaça bilməzdi, əksinə, onlar hamının gözü qabağında özlərinə qəsd eləməklə insanlığa dərs verdilər. Bax, buna deyirlər böyük ədəbiyyat. Sənin danışdığın əhvalatsa maraqlıdı, amma bağışla mən orda ədəbiyyatı görə bilmədim.

- Qulaqlarıma inanan bilmirəm bütün bunları sən danışırsan? Həyatın öldürə bilmədiyi sevgililəri ədəbiyyat öldürmək istəyir, bu ki, dəhşətlidi… Yəni onları öldürsəydilər, ya da özləri əl-ələ tutub Qanq çayına atılsaydılar, onda ədəbiyyatı görə biləcəkdin? Bəs onda “həppi-end”lə qurtaran sevgi romanları, ya da elə bizim öz dastanlarımız ədəbiyyat deyil?

- Çox israr edirsən, qardaşım. Demədim ki, onlar ədəbiyyat deyil, sadəcə, mən orada ədəbiyyatı görmürəm. Yəni bu, mənim mövzum deyil. Axı kitablarımı oxumusan, nə vaxt görmüsən ki, sənin dediyin tərzdə nəsə yazım? Ola bilsin ki, kimsə bu ideyanı göydə qapıb maraqlı roman yaza bilər, dərhal da bestsellerə çevrilər, hətta serial da çəkə bilərlər, amma mən bacarmaram. Bircə mən yox.

Mən hələ ehtiyatda bir-iki arqument də saxlamışdım, onun növbəti həmləsini gözləyirdim. Ondan çıxmayan iş, səsini kəsdi. Hərçənd bunu razılıq əlaməti də hesab etmək olardı, lakin onun xarakterinə yaxşı bələd idim, bilirdim ki, belə rahatlıqla qılıncını qınına salan deyildi. O isə buxarlanan mixəkli çaydan içib susurdu, hər halda, özünü incimiş adam kimi göstərmirdi.

Mən doğrudan da heç vaxt sevgidən yazmamışam, deyim sizə ki, bu mövzunu sağmal inək kimi istismar edən yazıçılara da ciddi yanaşmıram. İçi məhəbbət romanları qarışıq, detektiv və ya vahimə kitablarına aludə olan

insanları da heç vaxt başa düşməmişəm. Əsasən evdar xanımlar üçün sentimental şeylər yazan kişi müəllifləri hardasa anlamaq olar, içi mənasız söhbətlər, qeybət və dedi-qoduyla dolu kitabların tirajı artdıqca ciblərini doldururlar və heç kim də onları qadınların zərif hissləri ilə oynadıqlarına görə qınamır. Amma həyatı əyri-üyrü krossvord kimi təsvir edən qurama süjetli detektivləri, insanları milçək kimi öldürən, şiddət və qorxudan başqa heç bir effekt yaratmayan vahimə romanlarını başa düşə bilmirəm. Mən bilmirəm, anlamıram, lakin adamlar anlamadığım bu "əcinnə" kitabları əldə etmək üçün hətta yağışlı havalarda belə saatlarla növbəyə dayanmağa hazırdırlar. Milyonlarla insanın eyni vaxtda başının xarab olmasını iddia edə bilmərəm, iş orasındadır ki, mən də dəli deyiləm axı.

Yeri gəlmişkən, sizə bir uğursuz eksperimentimdən danışım. Nə gizlədim, hərdən ürəyimdən keçirdi ki, mənasız bir macəra süjeti götürüm, hadisələri də salım içərisində qorxulu ruhlar dolaşan şəhər kənarındakı alaqaranlıq villaya, gətirim ora təzə sevişən cütlükləri və hamısını kefim istəyən kimi şaqqalayım. Məni düzgün başa düşün, axı adam nə qədər öz cibinin puluna kitab çap etdirər, mən də istəyirəm sərf etdiyim enerjinin əvvəl-axır bəhrəsini görə bilim. Nəysə, başladım qorxu romanı yazmağa, nələr fikirləşməmişdim; detektiv araşdırma, köməksiz halda vahimə içərisində bağıran sevgililər, hətta evdar qadınları da yaddan çıxarmamışdım – sən demə, camaatı parçalayan manyak həm də peşəkar aşpaz imiş, aradabir yaxşı şirniyyat reseptləri verirdi. İşlər gözlədiyimdən yaxşı gedirdi – qorxunu elə kreativ (bu söz hardan gəldi düşdü kitabın içinə, lap yamaq kimi görsəndi. Neynək, qoy qalsın.) təsvir edirdim ki, axşamlar masanın arxasına oturanda özümü də vahimə basırdı, məcbur qalıb yazmağa gecələr yox, səhərlər davam etdim. Lakin… uzun təsvirlərdən sonra nəhayət, kimisə öldürmək məqamı yetişdi, neçə dəfə cəhd elədim… heç kimi öldürə bilmədim. Aydın məsələdir ki, söhbət qəddarcasına icra olunan qətlin yazılı şəkildə təsvirindən gedirdi. Bacarmadım. Qılıncla ya qələmlə, həyatda ya ədəbiyyatda öldürülən insandı axı… Mən adam öldürə bilmədim. Heç bir prinsip uğrunda yox, sadəcə, elə-belə, məzə üçün insan ölümünün təsvirini özünün biznesinə çevirmiş yazıçılar inanıram ki, gecələr yatanda heç vaxt işığı söndürmürlər. Qəddarlığa yalnız qorxaqlar sitayiş edir – bu, yüz faiz belədir. Məsələnin başqa tərəfi də var – ölümdən ləzzət alan oxucunu sevgiyə inandırmaq nə dərəcədə mümkündür? Bax, indi mən dostumla oturub şəhərimizin ortasında yaşıl zolaq kimi uzanan parkda çay içirik, səkilərin kənarında, ağacların altındakı skamyalarda yanlarından ötənlərə əhəmiyyət verməyən cavanlar qolboyun oturublar. Onlara yaxınlaşıb "sevgi nədir" sualını versən, sənə dəli kimi baxarlar. Bizim zamanın cavanları belə şeyləri kitablardan öyrənmirlər, onların bildiklərinin yanında ədəbiyyatın aşılamaq istədiyi ideya divara vurulmuş lax yumurta kimidir. Fikir vermisinizsə, artıq çoxdandır ki "sevgi" kəlməsinin qabağında "ülvi" sözü işlənmir, çünki buna ehtiyac yoxdur, artıq bu arxaizmdir, sevginin özü isə çoxları üçün əlverişli biznes növünə çevrilib. Gənclər rahatlıqla tanış olur, bunun üçün kitaba dəxli olmayan saysız-hesabsız vasitələr - tanışlıq saytları, sosial şəbəkələr var və rahatlıqla da ayrılırlar. Tərslikdən həyat da davam edir. İndi mənim dostum düşünür ki, onun danışdığı əhvalat əsasında roman yazsam, insanlar bunu oxuyub bir-birlərini daha dərindən sevə bilərlər, yaxud da sevməyi öyrənərlər. Bir kitab ki, sevgidən bəhs edirsə, orada mütləq erotik yerlər axtaracaqlar, necə ki biz uşaq vaxtı "Min bir gecə" nağıllarında izdivac səhnələrini tapıb dönə-dönə oxuyar, altından karandaşla xətt çəkər, abzasların kənarında "quş" qoyardıq. Yataq sərgüzəştlərinin təsviri, əlimin içi

kimi bilirəm, mənim qələmimdə bayağı alınacaqdı, belə götürəndə heç özümü əziyyətə salmağa ehtiyac da yoxdu. Axı smartfonla gəzən gənclər bunun daha keyfiyyətlisini İnternetdən asanlıqla tapıb oxuya yox, baxa bilər. Yox, əgər söhbət ilahi eşqdən gedərsə, bu, haqda heç danışmaq istəməzdim, bəlkə də, XIX əsrin ikinci yarısında, heç olmasa XX əsrin birinci yarısında yaşasaydım, danışardım, amma indi uzun parkda mixəkli çay içərkən nəinki bu haqda danışan, hətta fikirləşən yazıçıya adamlar birtəhər baxar.

- Sevgidən yazmaq həm də xatasızdı, - armudu stəkanına təzə çay süzərək, dostum, nəhayət, sükutu pozdu. Ağzını açan kimi hiss elədim ki, artıq taktikasını dəyişib, bu dəfə israrla məni fikrimdən daşındırmağın faydasız olduğunu görüb indi qılığıma girməyə çalışır, – sənin yazdıqlarında ideya yükü çox olur, həm də həmişə sosial mövzulara girişirsən, hələ siyasi rəngləri demirəm. Niyə başını ağrıdırsan? Fəlsəfə hamı üçün deyil, sevgisə hamı üçündür.

- Bəh, bəh! Təbrik edirəm, yaxşı tənqidçiliyin də varmış ki. Fəlsəfi yazdığımı bilmirdim. Düz deyirsən, fəlsəfə hamı üçün deyil, amma hamı da sevə bilmir axı.

- Bax, elə ona görə də istəyirəm bunu sən yazasan, çünki sevməyi bacarırsan, - o, bu sözləri deyərkən qımışdı, elə bil nəsə zəif yerimdən yapışıb inadımı alt-üst edəcəyinə əmin idi. “Sevməyi bacarırsan” nəydi – yəni bununla nə demək istəyirdi? Bu vaxta kimi bizim bütün ömrümüz, demək olar ki, bir-birimizin gözünün qabağında keçmişdi, toylarımız eyni ildə olmasa da, eyni ayda olmuşdu, uşaqlarımız müxtəlif məktəblərə getsələr də, bir-birlərini tanıyırdılar, yəni otuz ili haqlayan dostluğumuzda elə an olmamışdı ki, yadıma salmağa çətinlik çəkim. Düşünmürdüm ki, bizim aramızda deməyə çəkindiyimiz, ya heç vaxt dilə gətirə bilməyəcəyimiz nələrsə qala bilərdi. Yaddaşıma nə qədər güc eləsəm də ağlıma heç nə gəlmədi, – yadındadı rus qızı? - bic-bic gülümsəyib dilləndi, - tut ağacının altında yanağından öpmüşdün?

- Nə rus qızı? - təəccübümdən donub qalmışdım. Həmən alnımı soyuq tər basdı, sən bir buna bax, ən yaxın dostum məni şantaj edirdi, – sən hansı qızdan danışırsan?

- Rus yox e, ukraynalı… kəndinizdə... adı nəydi, Marqarita, Rita, yox, yox, Mariyana…

- Mariya?!

- Hə, Mariya.

- Qardaşım, sən nə təhlükəli adamsanmış! Bu hardan yadına düşdü? Mən onu otuz il bundan qabaq unutmuşam, sən adını çəkənə qədər də yadıma düşmürdü. Gör ağlın harda qalıb? “Sevməyi bacarırsan” deyəndə Mariyanı nəzərdə tuturdun? İncimə qardaşım, sən məzuniyyət götür, istirahətə get, bunlar hamısı çox işləməyin fəsadlarıdır, sadəcə, başın şişib, “refleş” olunmalısan.

- A, incimə, xətrinə dəydim? Kim var burda, söhbətdi də edirik. Hə, yaxşı, mısmırığını sallama. Mənə elə gəlir ki, mənim danışdığım əhvalatla sənin Mariyanı sevməyin arasında nəsə bir əlaqə var…

- Əcəb işə düşdük? Bu nə əhvalatdı e, quraşdırmısan? Balam, məmur kimi sənin işinin adı ölkəyə gələn miqrantların sənədlərini araşdırmaqdı, tay roman konsepsiyası uydurmaq deyil ki?

- Nahaq elə düşünürsən. Mən sənə roman ideyası-zadı vermirəm, sadəcə, olmuş hadisəni danışdım. Bir də nədənsə yadıma sənin Mariyan düşdü, bu qədər.

- Qəribə oğlansan. Qəribə… - başımı bullayıb yalandan dodaqlarımı qımışdırdım. Əslində onun fantaziyasına heyran qalmışdım, özünə aid olmayan, başqasının çoxdan unudulmuş xatirəsiylə dünən baş vermiş hadisə arasında əlaqə axtarmaq üçün məmur yox, yazıçı olmaq lazım idi. Görünür, bu da taleyin zarafatı imiş, bizim yerlərimiz səhv düşübmüş.

Həmin axşam dostum bir daha söhbətin üstünə qayıtmadı. Lakin mənim içimdəki cin artıq şüşədən çıxmışdı. Heç nə olmamış kimi tamam başqa şeylərdən söz salsaq da, hətta arada təzə lətifələrdən danışıb hırıldaşsaq da, gözlərim yol çəkirdi. Məndə həmişə belə olur; yazmağın havası gələndə gözlərim elə hey yol çəkər, qaşlarım çatılar, iştaham pozular, yuxularım qarışar, bir sözlə, dünya gözümdə qoz qabığına girərdi. Elə bil, dibi görünməz sərt bir uçurumun kənarında dayanıb düşünürsən – aşağı tullanıb amansız qayalara çırpılıb tikə-parça olmaq yox, qanad açıb qaranlıq yarğanın üzərində uçmaq və bacardıqca buludlara qədər qalxmaq haqqında düşünürsən. Lakin addımını atan kimi dərin yarğanın dibinə yuvarlanıb heç nədən ölməyin və unudulmağın daha realdı, amma qanad açmaq ehtimalın da ola bilər. Bax, beləcə, içini didib-dağıdan tərəddüdlərlə ilk cümləni yazırsan, yəni gözlərini yumub yarğana sarı addım atırsan və bu zaman bütün yazıçılara elə gəlir ki, onlar səmanın yeddinci qatındadırlar, ola da bilsin ki, məhz həmin an hamımız uçurumun dibinə yuvarlanıb ölürük, sadəcə, xəbərimiz olmur. Yazı necə yaranır? Bu sualın milyon cür izahı, saysız-hesabsız yozumu ola bilər, hətta verilən cavablar dünyanın gəlmiş-getmiş yazıçılarının sayından on dəfə, yüz dəfə çox da ola bilər. Bax, mənim yazılarım ürəyimdəki səsdən yaranır. Bayaq dostum bir zamanlar həyatımı alt-üst etmiş acı məhəbbət əhvalatıyla dünən baş vermiş hadisə arasında əlaqədən danışanda, qulağıma ürəyimdən gələn zərif bir səs toxundu. Elə bil, nəsə “tık” elədi.

Mariya… səni necə unuda bilərdim axı, unutmuşdummu məgər?

Gözlərim yol çəkirdi. Ürəyimdəsə artıq hay-küy qopmuşdu…

***Daqqa, noyabr, 2017***

“Allahu-əkbər!” qışqıran kütlənin toz-dumanı ətrafı elə sardı ki, avtobusdakı turistlər bir anlıq özlərini səhranın ortasında qum fırtınasına düşmüş kimi hiss etdilər. Sürücü pəncərədən bağıraraq camaata nəyisə başa salmağa çalışırdı. Hansısa izah olunmaz enerjidən vəcdə gəlmiş adamlar onun nə deməsinə əhəmiyyət vermədən avtobusun qabağında sıralanıb qışqırırdılar. Səid yarıyuxulu olduğundan bayırdakı vahimənin istər-istəməz turistlərə də sirayət etdiyini gec anladı və dərhal da yerindən sıçrayıb həyəcandan gözləri dörd olmuş sərnişinləri sakitləşdirməyə çalışdı. “Narahatığa əsas yoxdu! Biz dəmiryolu xəttinə yaxınlaşmışıq, qatar keçdikdən sonra yolumuza davam edəcəyik. Bəzən belə də olur. Hər şeyi nəzərə almışıq”, - dedi. Yalnız Tomas əmi və Merio xalanın gülümsəyərək başlarını tərpətmələrindən savayı sifətlərində qorxu donmuş sərnişinlərdən heç biri qımıldanmadı; onlar yanlarından ötüb keçən torpaq rəngdə adamlara elə baxırdılar ki, sanki təngnəfəs olmuş ceyran balası bu dəqiqə nərildəyərək onun üzərinə atılacaq aslanın sonuncu həmləsinə təslim olmağa hazırlaşırdı.

- Qatar gözləyirik? - Endryu Kruz bərəlmiş gözlərini bayırdakı insan dumanından ayırmadan xırıltıyla dilləndi. - Nə dedin? Qatar?

- Bəli, cənab Kruz, qatar indi bu ərazidən keçəcək. Bəzən qrafikimiz toqquşur… - Səid yenidən izah etməyə cəhd göstərsə də, baba Kruzun heç

də bayırdakı insanların səsindən az vahiməli görünməyən xırıltılı bağırtısı hamının qulağında cingildədi.

- Sizin başınız xarab olub! Bu axmaq qrafiki kim fikirləşib? Lənət olsun sizə də, sizin turunuza da! Belə qatar gözləyərlər? Vəhşilər! Mən şikayət edəcəm, sizi biabır edəcəm! Az qalmışdı şəkər olam! Qanmazlar!"

Baba Kruz bağırmağa başlayan kimi Müjdə həmişə avtobusda gəzdirdiyi "apteçka"sından valerian çıxarıb plastik stəkana bir neçə damcı süzdü. Oğlu nə qədər çiyinlərindən dartsa da, kişi yerindən qalxıb bağırırdı, əsəbindən dili dolaşdığından arada, sadəcə, qırıq-qırıq səslər çıxarırdı. Bu vəziyyətdə onun dolaşıq nitqi repdən daha çox öz səsindən vəcdə gələn, boğazının damarları göyərmiş rok müğənnilərinin çılğın ifasını xatırladırdı. "Rədd olsun sizin turunuz! Mənim nə işim var bu vəhşilərin arasında! Mən sizdən tələb edəcəm..."

- Kəs səsini, qoca kaftar! - axşamkı viskinin təsirini artıq çoxdan unutmuş Sergey avtobusun axırıncı oturacağından dartınıb baba Kruza sarı gəlmək istəyirdi. Sifətinin qanı qaçmış Aleksandra bir əliylə onun çiynindən basır, o birisiylə ağzını yummağa çalışırdı. "Açın avtobusun qapısını, atın bu qoca kaftarı "vəhşi" dediyi adamların arasına! Kaftar! Yum ağzını! Ay camaat, eşidirsiniz – burda bir kaftar var sizə "vəhşi" deyir!"

- Kaftar sənin atandı! - baba Kruz içib qurtardığı valerian süzülmüş plastik stəkanı Sergeyə tərəf tulladı, Vəli Özdəmir vaxtında ayağa qalxıb onun qarşısını kəsdiyindən Sergey bunu hiss etmədi.

- Siz bilirsiniz, bu niyə tir-tir əsir? Hə, ay camaat bilirsiniz? - Sergey də qışqırırdı. "Bu kaftar "Allahu-əkbər" sözündən qorxur. Qorxur nədi, baxın şalvarını isladıb!" Bunu deyəndən sonra o, əllərini bir-birinə vuraraq ləzzətli qəhqəhə çəkdi – "Tomas əmi, Tomas əmi, yalvarıram mənə baxın. Siz "Allahu-əkbər"dən qorxursunuz?" Tomas əmi arxaya qanrılıb gülərək başıyla "yox" işarəsini verdi. "Bax görürsünüz, Tomas əmi qorxmur, kişi adamdı çünki! Mən də qorxmuram! Amma sən, Endryu Kruz, üyüdürsən!"

- Cavan oğlan, siz lap ağ elədiniz. Özünüzdən böyüklə bu nə danışıqdı? - atasını sakitləşdirməkdə olan Uilyam Sergeyə gözlərini ağartdı.

- Cənab Uilyam Kruz, siz bunu atanıza deyin.

- Sənin xoşuna gələr ki, hamının gözünün qabağında atana "kaftar" desinlər, - Uilyam dilləndi. Baba Kruz sanki öz-özünə danışırmış kimi, əslində isə hamının eşidəcəyi tərzdə dodaqaltı mızıldandı: "O, bilir ki, atası kimdi?"

- Siz də ağzınıza yiyə durun də, - Aleksandra da Sergeyə qahmar çıxdı, – Seryojanın atası Əfqanıstanda vuruşub. Elə orda da həlak olub.

- Mən də Vyetnamda vuruşmuşam, bala, - baba Kruz dilləndi.

- Bilmək olar sizin Vyetnamda nə itiniz azmışdı?

- Bəs siz Əfqanıstanda nə itirmişdiniz?

Uzaqdan gələn fit səsi qurbağa gölünə atılmış daş kimi ətrafda sakitlik yaratdı. Vəli Özdəmirlə Cek Kruz Səidin xəbərdarlığına məhəl qoymadan kameralarını da götürüb avtobusun üstünə qalxmışdılar. Buradan hər şey çox aydın görünürdü: uzaqdan qatardan daha çox qıvrıla-qıvrıla metrlərlə uzanan nəhəng ilanı xatırladan tüstülənən bədheybət insanları uda-uda növbəti dayanacağına yaxınlaşırdı. Uzaqdan nə qədər qorxunc görünsə də, yaxınlaşdıqca onun ilandan daha çox insanların pərçimləndiyi aciz və heybəli soxulcandan başqa bir şey olmadığı aydınlaşırdı. Qatarın içərisini tam doldurandan sonra qapılarından sallanmış adamlar, elə belə də olmalıymış kimi, açıq qatarın üstündə də barmaq basmağa yer saxlamamışdılar; kimisi bardaş qurub oturmuş, kimisi heybəsini başının altına qoyub uzanmış, bəziləri arvad-uşağını, bəzilərisə toyuq-cücəsini qoltuğuna vurub əyləşmişdi. Birinci vaqo-

nun üstündə dayanmış cavanlarsa qatar hərəkət eləyən kimi “Titanik” pozasında əllərini yana açıb üzü küləyə dayanaraq qışqırır, onların arxasındakı cərgədən kimsə Banqladeşin bayrağını yellədirdi. Nədənsə hamı sevinirdi - az qala bütün Banqladeşin yerləşdiyi vaqonların içində və üstündə olan adamların hamısı qatar hərəkətə başlayan kimi gülürdülər. Hamı gülürdü, bir Allahları bilirdi nəyə. Bayaqdan avtobusun ətrafında toz-duman yaratmış kütlə gözünü açıb yumunca heybəli soxulcanın hansısa buğumlarına dürtülüb özlərinə yer tapdılar, deyilənə görə, hələ qabaqda bir neçə stansiya da olmalı idi. Bəlkə də bu stansiyalar sonsuza qədər uzansaydı, insanların kürək-kürəyə, ət-ətə sıxışdığı qatarda yenə də kimlərəsə yer tapmaq mümkün olardı. Banqladeşin himni və Endryu Kruzun canına vəlvələ salmış “Allahu-əkbər” sədaları səngiyən kimi toz dumanı yatdı. Avtobus yoluna davam elədi. Yolüstü belə adrenalin yaşamaq daha çox cavanların işinə yaramışdı – Vəli Özdəmir kamerasının obyektivindən yayınmayan kadrlara baxdıqca artıq minlərlə “layk”ları, saysız-hesabsız “komet”ləri sanki əvvəlcədən hiss edirmiş kimi, qımışırdı.

- Amma yaxşı iş çıxardıq, - Vəlinin yanında oturmuş Cek Kruz da elə onun kimi sevinirdi.

- Super! Bundan yaxşısını təsəvvür eləmək olmazdı. Amma bunu necə təqdim eləmək lazımdı, bilmirəm? Sponsorlarım inciməz ki?

- Niyə incisinlər ki? Yolüstü macəra, bundan yaxşı nə ola bilər? - Cek dedi. “Yaz ki, ekstrim turdan fraqment!” - bayaqdan iki dostun boynunun arxasından roliki izləyən Sergey daha yaxşı variant tapdığını düşünərək dilləndi.

- Yox, nə ekstrim? Bu vaxta qədər roliklərimdə ancaq komfortdan danışmışam. Adamlar yaxşı başa düşməz, - Vəli mızıldandı.

- Sadəcə, yaz “Banqladeş”. Vəssalam, hər halda biz Fransada deyilik, - yan cərgədə oturmuş Mariya gülərək söhbətə müdaxilə etdi. Vəli Özdəmir başına alma düşən Nyuton kimi sevindi, dönə-dönə Mariyaya təşəkkür elədi. “Mariya, sənin də başın işləyir ha”, - Sergey irişərək göz vurdu. “Bəs elə bilirdin ancaq sənin başın var?” -Mariyanın özünü gözlətməyən hazırcavablığı hamıdan çox elə Sergeyin özünə ləzzət elədi, Aleksandra çiynini dümsükləyənə qədər uğunub getdi. Artıq alayarımçıq tikililəri, rikşaların şütüdüyü əyri-yürü döngələri, ən əsası torpaq rəngdə adamların qaldırdığı toz-dumanı arxada qoyan avtobus Daqqanın aeroportuna yaxınlaşırdı.

Yol boyu yalnız Sakura ətirli çəhrayı rəngdə yuxular görən Müjdənin bayaqkı çaxnaşmadan sonra gözləri yumulmadı, sadəcə, başını Səidin çiyninə qoyaraq baxışlarını məchul nöqtəyə zilləmişdi. Turistləri müşayiət etdikcə başına kiməsə gülməli, kiməsə qorxulu görünən az hadisə gəlməmişdi. Hər şeylə maraqlanan, bir gəlişiylə Asiyanın dadını çıxarmağa çalışan turistlərdə yaxşı təəssürat yaratmaqdan ötrü onların türlü kaprizinə dözmək lazım gəlirdi. Şirkətinin reputasiyasına az qala öz namusu qədər, bəlkə də, ondan da ötə həssaslıqla yanaşan xəsis menecer ölkələrinə qayıdan hansısa turistin tur haqqında bir balaca mənfi rəy yazmasına görə bəzən saatlarca onları danlayır və məsələni o həddə çatdırırdı ki, işçi özü “səhv”ini etiraf edib məvacibindən tutulmaqla cərimə olunmasına razılaşsın. Müjdənin də, elə Səidin də bir neçə dəfə belə “səhv”ləri olmuşdu. Ürəklərinə dammışdı ki, bu səyahət də başa çatandan sonra başı çiyninin üstündə sağa-sola laxlayan menecer üzünə “narazı” maskasını taxıb onların maaşını kəsmək üçün necə lazımdı çənə döyəcəkdi. Hər şey ölkəsinə qayıtdıqdan sonra Endryu Kruzun verəcəyi rəydən asılı olacaqdı. Görünür, bayaq hədər yerə bağırmırdı, açıqca şikayət edəcəyini də dilə gətirmişdi. İndi “Allahu-

əkbər”dən qorxan bir ağciyər amerikalıya görə insafsız menecer “uf” demədən onların maaşlarını kəsə bilərdi. “Bilirsən…”, - Müjdənin qayğılı gözlərinə baxanda Səid onun ürəyindən keçəni göydə tutdu. “Endru Kruzla işin olmasın. Onu mənə burax. O, heç də göründüyü kimi pis adam deyil. Kobuddu, amma pis adam deyil”. Müjdə artıq heç bir sual vermədi, ağzını açmadan Səidin onun nə demək istəməsini göydə tutmasına da təəccüblənmədi. Onlar çoxdan idi ki, kəlmə kəsmədən, eləcə qırıq-quruq səslərdən, sadəcə, baxışların toqquşmasından bir-birlərini anlayır, başa düşürdülər. İnsanların bir-birini bax beləcə tamamlamasının, ani baxışdan içindən keçənləri oxumasının geniş izahını verməyə, necə deyərlər yenidən velosiped icadına ehtiyac yox idi, bunun bircə adı vardı – sevgi.

Turistlər Daqqanın adam qaynayan hava limanında bir-birlərindən ayrı düşməmək üçün gözlərini irəlidə gedən Səidin başı üzərinə qaldırdığı sarı balaca üçkünc bayraqcığazdan ayırmadan addımlayırdılar. Bu basırıqda hətta elə təəssürat yaranırdı ki, avtobusun qabağından löngər vurub keçən qatar bütün sərnişinlərini təyyarələrə təhvil verib relsindən çıxmışdı. Vaqonların üstündə üzü küləyə kürək-kürəyə dayanmış gülərüz adamlar sanki bu dəfə təyyarələrin qanadlarından, təkərlərindən sallanıb əllərində Banqladeşin bayrağı buludların üstünə qalxacaqdılar. Nə gömrük məntəqəsində, nə də sərhəd keçidində dərisinin rəngindən bu yerlərin adamlarına oxşamayan şəxsləri çox da yubatmırdılar, hətta bəzən adama elə gəlirdi ki, heç çantaları yoxlamağa da həvəs göstərmirlər. Ədviyyatlı yeməklərin damaqda ilişib qalmış dadından, sadə, qarabuğdayı adamların nigaran təbəssümündən, bir də günəşin yandırdığı ölkənin qəlbinə hopmuş istisindən başqa Banqladeşdən nə aparmaq olardı ki?

Saatlardı ciyərlərinə çəkdiyi rütubətli havadan bezib guruldayan təyyarədə hamı öz yerində oturmuşdu, heybəli soxulcana oxşayan qatardan fərqli olaraq onun gövdəsindən heç kim sallanmamışdı. Müjdə tur iştirakçılarının göyərtədə olduqlarını dəqiqləşdirmək üçün sonuncu dəfə narahat nəzərlərlə turistlərə, bir də əlində tutduğu vərəqə baxırdı. Nəhayət, yerinə keçəndə oturacağın üzərində bir dəstə Sakura çiçəyini, bir də Səidin ona zillənmiş parlayan baxışlarını fərq etdi.

- Sakura hardan çıxdı? Özü də noyabr ayında…

- Yuxuma girmişdi, mən də sənin üçün dərdim.

- Yaxşı görək?

- Nə var ki, burda. Demişdim axı, səni Sakura öz çiçəklərini sevdiyi kimi sevirəm.

- İndi noyabrdı axı?

- Bizim Sakuramız ilin bütün fəsillərində, bütün aylarında çiçəkləyir. Bax, bu da sübutu.

- Axı sən bunu necə elədin?

- Dedim axı, yuxuma girmişdi.

Müjdə artıq israr etməyə söz tapmadı, heç buna cəhd də göstərmədi. İnanılmaz idi, bir azdan göyün yeddinci qatına qalxacaq təyyarədə yerdə soraqladığı çiçəkləri əlində tutmuşdu. Bir istədi soruşsun ki, axı Sakura həmişə mənim yuxularıma girir, sən başqasının yuxusundan necə çiçək dərə bilirsən? Səidin parlaq gözlərində qışı qabaqlamış baharın hərarəti elə yer etmişdi ki, heç nə soruşmadı. Bəlkə, ikimiz də eyni vaxtda eyni yuxuları görürük, məgər dünyada belə qəribə şeylər olmurmu? Müjdə gözlərini rayihəsi ruhunu oxşayan çiçəklərə zilləyib bu sual haqqında düşünürdü. Təyyarə Sakura ətirli məhəbbət qaranquşu kimi rütubətli havanı yarıb artıq çoxdan buludların üstünə qalxmışdı.

Vəli Özdəmir Cek Kruzla xısın-xısın nədənsə danışıb pıqqıldaşır, Aleksandra ilə Sergey Şri-Lankadakı macəralar üçün ciblərində nə qədər pulun qaldığını hesablayır, Uilyam Kruz hələ də əsəbləri soyumamış atasının peysərinin arxasından buludlara baxıb düşünür, Tomas əmi Merio xala həmişəki kimi əl-ələ tutub oturmuşdular, hərdən baxışları toqquşanda gülümsəyirdilər. Qrupdan bir qədər aralı düşmüş Mariya isə yanında əyləşmiş qara çadralı əndamlı qadının təyyarə havaya qalxar-qalxmaz xoruldamasından heyrətə gələrək smartfonunu qurdalamaqdaydı.

Təxminən qırx dəqiqəlik uçuşdan sonra təyyarə dərin çuxura düşmüş kimi qəflətən aşağı yuvarlandı, sonra bir təhər müvazinətini tənzimləmək istəyirdi ki, bu dəfə də sol qanadı üstə əyilib bir müddət ləngər vurdu. Yırğalanma elə möhkəm oldu ki, stüardessalardan biri özünü saxlaya bilməyib yerə yıxıldı, arxa cərgələrdə kimlərinsə ürəyi bulanmağa başlamışdı, ara-sıra eşidilən qışqırıq, hıçqırtı səsləri təyyarənin ikinci ləngərindən sonra artıq bütün salona sirayət etdi. Mühərrikin səsi dəyişilib ətürpədən uğultuya çevriləndə insanlar mütləq nəsə pis bir şeyin olacağını anlayıb qaynaşmağa başladılar. Oturacaqlardan yapışaraq birtəhər yerdən qalxan stüardessa əliylə nəsə işarə eləməyə macal tapmamış orta cərgələrdən kimsə “Allahu-əkbər” qışqırdı, hələ də nəyin baş verdiyini fərq etməyən Endryu Kruz bu sözə bəndmiş kimi bayıldı, amma onun ürəyinin getməsini heç yanında oturmuş oğlu belə fərq etmədi. Onun armud kimi sinəsinə sallanan başına baxan Uilyama elə gəlmişdi ki, uzun yolun yorğunluğundan atası mürgü vurur. Sərnişinlərin içərisində ən acınacaqlı vəziyyətdə olan qapısı heç cür açılmayan tualetdə ilişib qalmış şişman bədənli kişi idi; o, əvvəlcə var gücüylə qapını döyəclədi, bacardığı qədər ucadan bağırdı, sonra pişik kimi xoruldadı və səsini kəsdi. Şiddətli külək təyyarəni saplağından qırılıb yerə düşməyə hazırlaşan axırıncı payız yarpağı kimi titrətdikcə, adamlar vahimə içərisində artıq axırlarının çatdığını zənn edib bağırırdılar.

Həmin anda kiminsə rasional düşündüyünü güman etmək, sadəcə, mümkün deyildi, labüd ölümün qabağında dinindən, dualarından, savadından və pulundan asılı olmayaraq hamı, sadəcə, ət və sümük parçasından başqa bir şey deyildi. On min kilometr hündürlükdən okeana, bəlkə də yerə çırpılacaq bu qədər ət və sümük parçasının bir-birinə qarışıb “doğmalaşacağının” ölüm mələyi üçün fərqi yox idi. Hamının hönkürtüylə ağlayaraq sona çatmağa saniyələr qaldığını düşündüyü anda qara çadralı əndamlı qadının mışıl-mışıl uyuması Mariyada heyrətamiz qibtə hissi yaratmışdı və elə həmin an – bu vurhavurun o, özünün çarşabın altında xoruldayan qadının yerində olmasını arzulayırdı. Xışıltının arasından pilotun zorla eşidilən qırıq-quruq səsi isə adamları sakitləşdirmək əvəzinə gərginliyi bir az da artırmış oldu: “…Çalışacağıq… çalışırıq aşağı enək… cəhd göstəririk…” Yırğalanan təyyarənin salonunda hərəkət edə bilməyən stüardessalar, sadəcə, kənarda əl-qol işarələriylə nələrisə izah etməyə çalışsalar da, başının hayında olan adamlar bu mənasız jestlərə əhəmiyyət vermirdilər. Sürətlə aşağı enməkdə olan hava gəmisi yalnız buludların arasında bir qədər yavaşıyıb müvazinətini düzəldə bildi. Hərə öz bildiyi dildə, öz tanıdığı tanrısına dodağının altında dua edərək titrəyirdi. Salona çökmüş ani sükutu stüardessanın tualetin qapısını şappıltıyla açması pozdu, daha doğrusu, qapı açılan kimi şalvarının belini çəkməyə imkan tapmamış güllü tuman geymiş yoğun bir cəmdək yerə sərildi. Qızlar onun qollarından tutub sürüyərək Mariyanın yanında xoruldayan qadının arxasındakı oturacağa pərçim etdilər. İnsanlar təyyarənin ağ buludların arasında toxtayıb sakitləşdiyinə elə sevinmişdilər ki, burunlarını deşən pis qoxunun fərqinə varmadılar.

"Hörmətli sərnişinlər, danışan kapitandır. Həyəcana əsas yoxdur. Xahiş edirəm yerlərinizdə əyləşib kəmərlərinizi bağlı saxlayasınız. Marşrut üzrə hərəkətimizi davam etdiririk", - pilotun sözləri istər-istəməz adamlarda toxtaqlıq yaratmalı idi. Lakin, bayaqdan ətürpədən uğultuya çevrilmiş səslər çıxaran mühərrik bu dəfə cəllad kötüyünə çırpılan balta kimi taqqıldamağa başlayanda ağ buludların üzərinə zərif qara xəttə bənzəyən tüstü cığırı göründü. Yenidən vahimə və bağırtılar…

Yavaş-yavaş hamının burnunu deşib canına vəlvələ salan tüstü qoxusu hətta pilot kabinesinə qədər gedib çatmışdı. Nə vaxtsa belə bir xaosun içərisinə düşəcəyini ağlına gətirməyən stüardessa orta cərgədə illüminatora qısılıb siqaret tüstülədən bığıburma kişini vaxtında aşkarlamasaydı, çox güman ki, pilot da təyyarənin yandığını güman edəcəkdi. "Cənab, nə edirsiniz? Söndürün siqareti!". "Niyə axı?!" - kişi eyni qəzəb və təəccüb dolu səslə bağırdı – "onsuz da ölürük, sonuncu dəfə siqaret çəkmək istəyirəm. Rədd olun!" - o, qorxudan, ya stressdən axan göz yaşını silib, yenidən dərin bir qullab aldı. "Cənab…". "Rədd olun!". "Xəbərdarlıq edirəm, yığışdırın xuliqanlığı. Sizə qarşı sanksiya tətbiq edərik. Bir daha təyyarədə uça bilməzsiniz". "Bundan sonra uçsam, əclafam! Bu artıq sondur. Biz ölürük!..". "Mən sənin kimi heyvanla bir yerdə ölmək istəmirəm", - bu, kişinin arxasında oturmuş Mariya idi, əlini uzadıb közərən siqareti onun barmaqlarının arasından götürdü. Kişi elə buna bəndmiş kimi döş cibindən yenisini çıxarmaq istəyərkən Mariya müdhiş bir cəldliklə bütün qutunu qamarlayıb stüardessaya tərəf tulladı. Qorxu və hikkə bığıburma kişinin gözlərini elə tutmuşdu ki, çiyinlərinin arxasından uzanan ağappaq mələk əllərinin incəliyinə fikir verə bilmədi, ona elə gəldi ki, nəsə artıq hərəkət etsə, iblisin alovlu barmaqları ulğumunu üzüb buludların üstünə ata bilər. Müqavimətin mənasız olduğunu anladığından başını illüminatora döyəcləyərək "ölürük, ölürüüüük…" deyə zarıdı. Mariyanın gözləri elə qızarmışdı ki, nəinki stüardessanın heyrətlə ona təşəkkür etməsinə, xoruldayan çadralı qadına belə əhəmiyyət vermədi. Ədəbsiz birini yerində oturdacaq qədər qətiyyət göstərməsi özünü də heyrətləndirmişdi, əgər qarşısına məqsəd qoysaydı, heç vaxt belə addım ata bilməzdi. İçindən keçən hansısa hiss, babalarının genindən süzülən hansısa instinkt idi ki, cahilliyin üzərinə vulkan kimi püskürmüşdü. Mariya elə indicə, göyün yeddinci qatında içində gizlənmiş üsyankar təbiəti kəşf eləmişdi və bundan sonra yalnız yaşamaq istəyirdi. Ölmək olardı – istənilən vaxt, istənilən saatda, bircə indi yox. Salonun ön tərəfində oturmuş qrup üzvləri onun şücaətindən xəbər tutmadılar, bu qədər hay-küyün içərisində heç ona sarı çevrilib baxan da olmadı.

Cəllad kötüyü dayanmadan taqqıldayırdı; ölümlə gizlənpaç oynayan şıltaq bir baş boynunu kötüyün üzərinə uzadır, balta enən kimi dərhal geri çəkilirdi, boş yerə çırpılmaqdan ağzı küləşmiş balta əvvəl-axır ona meydan oxuyan bu həyasız başı saplağından ayırmaq üçün daha da qəzəblə qalxıb-enirdi. Yarıməzəli, yarıağlamalı bu təhlükəli tryukun tamaşasına yığılmış adamlar həyatla ölüm arasında kəndirbazlıq edən yaramaz başdan daha çox onu bədənindən ayırmaq üçün qəzəb içində boğulan baltanın tərəfində idilər. Əzrayılın pəncəsindən sıyrılıb qaçmağa nail olmaq – kiminsə göstərdiyi fərdi qəhrəmanlıqdı və bu, geniş kütlə üçün o qədər də maraqlı gəlmir. Ölümlə nəticələnən, kiminsə həyatı bahasına göstərilmiş fədakarlıq başqa məsələ – bu əhvalat hamının gözünü yaşardır. Elə buna görədir ki, insanlar ölü qəhrəmanları dirilərdən daha çox sevirlər. Ən yaxşı şeirlər, hətta ən düşük şairlərin ifasında ölümündən sonra qəhrəman olduğu bilinənlər haqqında

yazılır. Bu təyyarənin sərnişinləri arasında nə qəhrəman, nə də qorxaq vardı, lakin artıq dəqiq idi ki, insanlar bu siçan-pişik oyunundan boğaza yığılmışdılar. Hətta bəziləri buludların arasında gah o, gah da bu biri qanadı üstə löngər vuran hava milçəyinin, nəhayət ki, yerə çırpılıb dağılmasını səbirsizliklə gözləyirdi. Ani bir tappıldı vəssalam, qalanı təfsilat idi, qalanı dirilərin işi olacaqdı.

“Görürsənmi, ata? Ölümə gedirik, deməli, hər şey bura qədərmiş. Sənə qəribə gələcək, istəyirəm son nəfəsimizdə sənin qəzəbli sifətində nəsə təbəssümə oxşayan bir şey görüm. Həmişə bunu arzulamışam. Bütün ömrüm boyu. Səni güldürmək üçün nə qədər oyunbazlıq eləmişəm, bir bilsən? Heç vaxt mənim üzümə baxanda eynin açılmayıb. Nəvəni doğum evindən gətirəndə, onu qəsdən evimizin kandarında qucağına verdim və diqqətlə sifətinə baxdım, heç dodağın da qaçmadı. Rəhmətlik anam deyərdi ki, sən heç öz toyunda da gülməmisən. Bu ki dəhşətdi ata, belə necə yaşamaq olar? Eşidirsənmi, Allahıma şükür edirəm ki, mən sənə oxşamamışam. Heç nəvən də sənin tayın deyil. Amma bunu çox arzulayırdın, eləmi? Axırımız çatana yaxın axırıncı sirrimi də deyim ata, mən biseksualam. Mən sənin arzuladığın adam deyiləm, heç buna cəhd də eləməmişəm. Sənin öyüd-nəsihətini qulaqardına vurmaqdan keyfli nə ola bilərdi ki... Yaxşı ki, indi ölürəm. Bilirsən, mən buna sevinirəm, çünki sənin kimi qocalmaq da istəməzdim. Ata, eşidirsənmi…” Uilyam Kruz bütün bunları həyəcanlı pıçıltılarla atasına söyləyəndə təyyarə buludların arasından sıyrılıb dağları, qayaları nöqtə boyda sezilən materikə yaxınlaşırdı. İllüminatora yaxın oturmuş adamlar seyrəlmiş duman qatının arasından yağlı boya ilə işlənmiş tablonu xatırladan torpaq parçasını görərkən daha ucadan qışqırmağa başlamışdılar. Bu, bağırtıların arasında Uilyamın bütün ömrü boyu hamıdan gizlətdiyi sirlərinin faş olması heç kimin eyninə deyildi. Ata Enrdyu Kruz isə oğlunun səmimi etiraflarından sonra sinəsinin üstündə löngərləyən başını qaldırıb heç onun üzünə də baxmadı.

“Saşa, möhkəm ol! Saşa, Saşacan! Bizim axı nə itimiz azmışdı Asiya cəngəlliyində?! Hər şeyi sənin anan elədi. Bəli, Saşa, günah anandadı”, - Seryoja təyyarənin birinci təkanında özünü itirmişdi. Aleksandranın onu sakitləşdirmək üçün etdiyi bütün cəhdlər boşa çıxmışdı. Affekt vəziyyətində gözünə görünən nə varsa, dağıtmağa hazırlaşan Seryojanı stüardessanın iki daşın arasında hardansa tapıb gətirdiyi yüz əlli qramlıq vodka bir balaca toxtatmışdı. Mühərrikin uğultusu cəllad baltasının taqqıltısına çevriləndə, o da əksər sərnişinlər kimi hönkür-hönkür ağlamağa və sistemsiz sözlər danışmağa başlamışdı. “Saşa, mən atam kimi ölmək istəmirəm. Onu elə mən yaşında… hə mənimlə eyni yaşda olanda öldürüblər. Saşa, bilirsən atamı necə öldürüblər? Onu da Əfqanıstanda vertolyotda partladıblar. Mən ölmək istəmirəm, Saşacan. Lənət olsun sənin anana! Saşa, sənin anan fahişədi, bunu bilirdin? Onun çoxlu pulu var. Hamısını atandan oğurlayıb. Səndən gizlədir. Bilirsən mənə necə təkliflər eləyib… mən də hamısına razılaşmışam. İstəyirəm ölməmişdən qabaq bunu biləsən. Onsuz da əvvəl-axır biləcəkdin… Saşa, mən səni sevirəm… mən ölmək istəmirəm atam kimi…” Aleksandra başını əllərinin arasında sıxıb dayanmışdı; o, göyərtəni başına götürmüş insan nalələri arasından bal ayına çıxdığı ərinin dediyi bütün sözləri yaxşıca eşidirdi və bu söz yığınını ölümə gedən adamın sayıqlaması bilib ciddiyə almaq istəmirdi. Seryoja daha hündürdən bağıraraq yenə nəsə qırıq-quruq səslər çıxarmağa davam edə bilərdi, Saşanın onun sifətində partlayan tərs şapalağı monoloqun davamına imkan vermədi.

Vəli Özdəmir təyyarənin ikinci silkələnməsində burnuna tüstü iyi dəyən kimi kamerasını çıxarıb bağıraraq dua edən adamları çəkirdi və bu nəhəng xaosun içərisində yaşamağı hamıdan çox, o, arzulayırdı. Real ölümə gedənlərin əsil hiss və həyəcanını lentə almaq dünyanın hələ heç bir blogerinə nəsib olmamışdı. Bu artıq realiti-şou deyildi, bu, elə həyatın özü idi və ölüm qulağının dibində dayanıb səninlə məzələnirdi. Vəlinin həmin anda ürəyindən keçən yeganə arzu hansısa möcüzə nəticəsində ölümün pəncəsindən xilas olub bütün bunları internetə yükləmək idi. Vəssalam, bircə rolik və dünya şöhrəti! O, kamerasının obyektivini yanında əyləşmiş Cek Kruza tərəf tuşlayanda, hərəkətinin kənardan nə qədər tragikomik göründüyünün fərqinə vardı. Başına hava gəlib, onsuz da hamımız ölürük, hərənin heç olmasa, bir tikəsi tapılacaq sənin kameranın isə heç izi-tozu da qalmayacaq – Vəli içindən gələn səsə təslim olub titrəməyə başladı.

- Ata! Ata! - Cek Kruz yan sırada iki cərgə arxada əyləşmiş atasını haylayanda Uilyam başı sinəsinin üstündə ləngər vuran atasına nələrisə etiraf edirdi və bu qədər bağırtının arasında az qala yadından çıxardığı doğma oğlunun onun haylamasını eşidə bilmədi, - mən səni sevirəm ata! - Cek səsinə güc verərək hıçqırırdı.

- Cek, bəxtin gətirib, atanla, babanla bir yerdə öləcəksən. Mənimkilərsə çox uzaqdadılar, hərəsi də bir tərəfdə, - Vəli kamerasını dizinin üstünə çırpıb əyləşdi, - bəxtin gətirib, Cek...

- Sən əsil axmaqsan. Nə danışdığını bilirsənmi?

- Cek, mən atamı çox sevirdim, amma o, məni atdı. Mən anamı ondan da çox sevirdim, o da məni atdı…

- Başın sağ olsun.

- Onlar ölməyiblər, Cek, yaşayırlar, sadəcə, məni atdılar. Hərəsi bir ayrı cürə xoşbəxtdi, məndən savayı. Sevdiklərim hamısı məni atır, yaxınlarım, doğmalarım…

- Vəli, niyə belə danışırsan? Biz ölürük, ona görəmi?

- Cek, mən adamlardan çox, pulu sevirəm. Bilirsən niyə? Çünki Avropada yaşamaq istəyirəm, orada tualet təmizləmək, taksi sürmək yox, əsil adam balası kimi yaşamaq istəyirəm. Avropada pulu olmayana hörmət eləmirlər. Bilsəydim ki, bədənim Hind okeanında balıqlara yem olacaq, heç olmasa, pullarımın yerini kiməsə deyərdim.

- Mənsə LGTB-nin üzvüyəm, Vəli. Bunu hiss eləmişdinmi?

- Mən indi heç nə hiss eləmirəm, Cek!

- Atama deməmişəm, hər halda, bilsə, məni öldürməzdi. Babamsa başqadı. Eşitsə, yəqin ürəyi partlayar. Əgər nə vaxtsa o, öz əcəliylə ölərdisə, mən hər şeyi atama etiraf edə bilərdim. Babam istəyir mən də onun kimi dəniz piyadası olum. Mənsə Amerikanın prezidenti olmaq istəyirdim. Oval kabinetdə dünyanı dəyişəcək qərarlar vermək idi mənim arzum. İşə bax, indi üçümüz də eyni vaxtda ölürük… arzularımızla bir yerdə…

Sakura ətirli məhəbbət qaranquşunun göyün ənginliyinə qalxar-qalxmaz şıltaqlıqla qanadlarını səyritməsi nə Səidi, nə Müjdəni qorxutmuşdu, çünki, onlar indi çox uzaqda idilər; okeanın ortasında dünyanın heç bir xəritəsində görünməyən, heç bir səyyahın bu vaxta kimi arayıb tapa bilmədiyi sakit adada bitən yeganə Sakura ağacının altında əyləşib dalğaların pıçıltılarına qulaq asırdılar. Nə ürəkləri, nə dilləri danışırdı, eləcə okean pıçıldayırdı. “Mən səni sevirəm” kəlməsi lazımsız adamların dilində o qədər işlənib, bayağı mahnılarda, məzmunsuz şeirlərdə o qədər istismar olunub ki, əsil sevgililər bir-birlərinə bu cümləni lap axırda utana-utana, çətinliklə ya da candərdi

deyirlər, bəzən isə heç vaxt demirlər, sadəcə, ləpəli sahilin pıçıltısına qulaq asırlar. “Mən səni sevirəm” - əvvəlcə ürəkdə boy göstərib tumurcuqlanan bu sözlər gəlib dilin ucunda düyünlənənə kimi nə qədər yol qət etmək lazım gəlir, bilən varmı? Bu kəlmənin elə sehrli qatı var ki, onu bütün varlığınla deyəndə mütləq ətrafına baxmağı unutma – bir göz qırpımında dünyanın necə gözəlləşdiyinin şahidi olarsan, hətta qarlı-şaxtalı havada belə, burnuna Sakuranın xoş ətri toxuna bilər. Və bir də güc! Qarşını kəsən maneələri – aşılmaz sədləri, qaranlıq yarğanları hamarlayıb düppədüz edən gücü yalnız sevərkən hiss eləmək olur. Ölüm sevginin ayağına dolaşan quyruğu kəsik küçük kimi yalnız zingildəyə bilər, lakin heç vaxt ona qalib gələ bilməz. Bəlkə də, təyyarənin göz yaşı tökən sərnişinlərindən heç olmasa bircəciyi “ilahi, bizi sevənlərə bağışla” deyərək dua eləsəydi, sürətlə yerə çırpılmağa hazırlaşan hava gəmisi özünə gəlib toxtayardı. Müjdə başını sevgilisinin çiyninə qoyub çəhrayı çiçəkləri burnuna sıxmışdı, Səidin gözləri illüminatordan aşağı zillənsə də, qulağında tənha adanın sahillərinə çırpılan azman okeanın ləpələrinin xışıltısından başqa heç nə eşidilmirdi.

Elba sahilindəki Florensiyada isə tufan qopmuşdu. Fevralın ilik donduran şaxtasında dəmir başlı əjdahaların püskürtdüyü alov insanları diri-diri yandıraraq külə döndərirdi. Göydən od yağırdı. Küçələri, tinləri yalayıb keçən dəmir donlu, qəzəbli əjdahaların ağzından çıxan alov dilimləri arasında övladlarını haraylayan anaların nalələri, tərk edilmiş mənzillərdə siçovultək civildəyən qundaqdakı körpələrin iniltisi bir-birinə qarışmışdı. Kimlərinsə uzaqda tüstü-dumanı içərisində çətinliklə sezilən silueti görünür və elə həmin an da alov dalğalarının ağuşunda yoxa çıxırdı. Başlarına yağan bombalardan qorunmaq üçün zirzəmilərə doluşmuş adamlar sadəlövhcəsinə sağ qalacaqlarını ümid etsələr də, küçələri dəmirçi sobası kimi qızdırmış qasırğa onların elə gizləndikləri yerdəcə canlarını alırdı. Açıq havada canını qurtarmaq üçün hara gəldi qaçanlar alov dilimləri arasında yanıb külə dönür, sığınacaqda gizlənənlər isə havasızlıqdan boğulurdular. İnsanların əllərini göyə qaldırıb Allahı axtardıqları səmtdən aşağı baxanda Elba sahilində nəhəng bir tonqal yanırdı, göyün yeddinci qatına insan hayqırtıları çatmasa da, eləcə tonqala baxmaq kifayət edirdi ki, amansız cinayətin miqyasını görə biləsən. Həmin an Yer kürəsinin qaynar qazana çevrilmiş bu nöqtəsində nəyin baş verdiyini və yaxud da niyə baş verdiyini aydınlaşdırmalı olan tarix özü də heç vaxt bu sualların dəqiq cavabını tapa bilməyəcəyindən xəcalət çəkirdi. Bəs məntiq? Məntiq çoxdan yanıb külə dönmüşdü. Şəhərin qürur mənbəyi sayılan Frauenkirxe kilsəsinin xarabalıqları arasından sıyrılıb ayaqyalın qaynar sobanın üstüylə qaçan altı yaşlı oğlan dağılmış bəndin üzərindən tullanaraq nəhayət, Elbaya yetişdi. Göydən od yağdıran əjdahaların nəriltisi arasında qulağına soyuq çayın bir qədər yoxuşa düşən sahili tərəfdən pişik miyoltusuna oxşar inilti səsləri gəldi. Əynində hisə batmış gecə köynəyi, sağ ayağına keçirdiyi burnucırıq corabından savayı heç nəyi olmayan tifil bir qız titrəyə-titrəyə ağlayırdı. Onu görcək, bircə kəlmə söz dedi - “əlimi buraxma”. Bu, onların əl-ələ verib yaşadıqları bütün ömürləri boyu bir-birlərindən eşitdikləri ilk və sonuncu sözlər olacaqdı – “əlimi buraxma”. Sonradan, lap sonralar dünyanın bütün həkimləri onlara anadangəlmə lal diaqnozunu qoyanda da, sadəcə, gülümsəyib başlarını yelləyəcəkdilər. Onlar lal deyildilər, dünyanın misli görünməmiş dəhşəti, sümükləri sızladan ədalətsizliyin qabağında səsi qulaqardına vurulan bütün vicdanlı adamlar kimi dilləri qurumuşdu. ...Bir-birinin əlini buraxmayan tifillər ayaqlarının altı qançır olana qədər Elba boyu qaçırdılar - arxada doğmalarını, dəyərlərini, mədəniyyətlərini buraxaraq

qaçırdılar... İndi hərənin öz dilində Allahını harayladığı təyyarənin göyərtəsində bircə Tomas əmi və Merio xala əl-ələ tutub gülümsəyirdi. Sən bir təsadüfə bax, bir vaxtlar başına göydən od yağsın, indi isə özün od olub yerin üstünə düşməyə hazırlaşasan – hər ikisi labüd ölüm idi, amma onlar artıq bir dəfə nəsə buna oxşayan ölümə qalıb gəlmişdilər. Onlar bir dəfə ölüb dirilmişdilər. Bircə, əlimi buraxma…

Ərşə dayanmış insan bağırtıları arasında pilotun çətinliklə eşidilən səsindən belə anlamaq olardı ki, bəxtləri gətirsə, təyyarə qəza enişi etməyə məcbur olacaq. Qanadı yaralı göyərçin sonuncu qüvvəsini toplayıb yerin səthinə yüngülvari çırpılıb silkələnəndə Mariyanın yanında oturmuş çarşablı qadın gözlərini açıb ürəkdolusu əsnədi, ondan arxada əyləşmiş əri isə əvvəlcə kərəlib ətrafa baxdı, sonra iri qarnını dala verərək şalvarının qabağını bağlamağa çalışdı, sifətlərində göz yaşı donmuş adamların hamısı bir nəfər kimi əl çalırdı. Alqış sədaları altında gözlərini açan Endryu Kruz, nəhayət, armud kimi sinəsinə sallanmış başını yuxarı qaldırdı və həmin an Uilyama elə gəldi ki, atasının sifətində nəsə təbəssümə oxşayan cizgilər peyda oldu.

Bir neçə dəqiqədən sonra dünyanın bütün informasiya agentlikləri göyərtəsində 189 nəfərin olduğu, Daqqadan Kolomboya uçan Boeinq-737 təyyarəsinin mühərriklərindən birində yaranmış nasazlığa görə, Banqkok aeroportunda qəza enişi etdiyi barədə xəbər yayacaqdı. Gözlərində yaş donmuş insanlar əl çalırdılar.

# İKİNCİ HİSSƏ

## *Sarı yağış*

***Bakı, yanvar, 2018***

Səhərə yaxın, saat beşə işləmiş yatağımda o tərəf-bu tərəfə çevrilməkdən bezib siqaret çəkməyə qalxdım. Oğlum balaca, toppuş əlini çənəsinə dirəyib elə mışıl-mışıl yatmağındaydı, yenə də üstünü açmışdı, yorğanını çəkib alnından öpdüm. Yanağının sol tərəfinin içəri batıb qımışmasından hiss etdim ki, yuxusunda da nəsə oyunbazlıq eldir. Pəncəmin üstündə ehmalca irəliləyib eyvanda siqaret yandıranda tək oğlumun deyil, bütün şəhərin mışıl-mışıl uyuduğunu gördüm, mənə elə gəldi ki, hardansa peyda olmuş şən kloun indi bu dəqiqə hamının yuxusuna girib oyunbazlıq edir və hamının yanağının sol tərəfi batıb, hamı qımışır, məndən savayı.

Dirigözlü açdığım səhərdə ağlımda yalnız Müjdənin bu gün mənə verəcəyi cavablar dolaşırdı. Yalnız protokol doldurmaq üçün əvvəlcədən hazırlanmış və bu vaxta kimi saysız-hesabsız miqranta ünvanladığım suallar haqqında heç düşünmürdüm. Ölkəmdə yaşamaq və ya, sadəcə, burada qaçqın statusu aldıqdan sonra üçüncü ölkəyə göndərilmək üçün nə qədər nağıllar uyduran asiyalı miqrantlar dindirmişdim. Asiyada nağılları çox sevirlər, lakin onların hamısının əcaib dərəcədə bir-birinə bənzəməsinin, bir-birini təkrarlamasının çox az adam fərqindədir. Həmin o az sayda adamların siyahısını tərtib etmək mümkün olsaydı, şübhəsiz, mənim adım da ilk onluğa düşərdi. Vəzifə borcum tələb edirdi ki, nağıllara yox, uzun-uzadı dindirmələr nəticəsində ortaya çıxardığım faktlara, yazıçı dostumun diliylə desəm, həyat həqiqətlərinə istinad

edim. Həqiqətsə həmişə olduğu kimi zəhər təki acı və sadədən sadə idi: hamı yaxşı həyat sorağındaydı. Vətənində bunu tapa bilməyən milyonlarla insan dünyanın dörd bir yanına səpələnib qeyri-müəyyən üfüqlərdə duracağı bilinməyən axtarışa baş vurmuşdu – vətən axtarışına. Bu vaxta kimi eşitdiyim nağıllar içərisində bircə onların nağılı fərqli idi – Səidlə Müjdənin. Öz vətənini sevən və sevgisinə görə ondan bacardıqca uzaqlaşan iki çırpınan qəlbin nağılını mən uydurmamışdım, lakin bundan savayı heç nə eşitmək istəmirdim. Səhərə kimi yerimin içində vurnuxanda Allaha dua edirdim ki, bugünkü dindirmədə keşkə Müjdənin dilindən ürəyimdən keçənləri eşidə biləydim. Uzun avqust axşamlarında kəndimizin üstüaçıq kinoteatrında hind filmlərini seyr edərkən hansı hissləri keçirdirdimsə, indi də həmin həyəcanla titrəyirdim. Quldurların qoluna zəncir vurduğu sevgilisini xilas etmək istəyən qız ayaqyalın sərt qayalığın, sındırılmış şüşələrin üstündə oynaya-oynaya ona yaxınlaşır və bu zaman dünyanın yaxşı adamları axışıb köməyə gəlir, xeyir şər üzərində təntənəli, bəli, məhz təntənəli qələbə çalır. Müjdə haqqında düşünəndə özümdən asılı olmadan həmişə gözümün qabağında həmin cəsur rəqqasə canlanırdı. Mən o zamanlar o filmi də, o qızı da çox sevərdim. Heç vaxt inanmazdım ki, aşırma şalvar geyinmiş kənd uşağının üstüaçıq kinoteatrda yaşadığı hisslər illərdi dövlət qulluğunda saç ağartmış kişinin də qəlbinə dolub ona yenidən uzun avqust gecələrinin unudulmaz romantikasını yaşada bilərdi. Aradan illər keçsə də, gözünü bərəldib heyranlıqla hind filmlərinə baxan, heç olmasa, kinolarda xeyrin şər üzərində qələbəsindən ürəyi iftixarla dolan, güləndəsə yanağının sol tərəfi içəri batıb bütün dişləri ağaran o aşırma şalvarlı uşaqdan ötrü elə darıxmışdım ki. Mən inanırdım, danışdıqlarının qurama əhvalat olmadığına, gənclərin məhz bir-birlərini sevdiklərinə görə təqibə məruz qalmalarına inanırdım.

Dünyanın harasına gedir-getsinlər, şablon sorğu-suallarını yağış kimi yağdıran məmurlar ağızlarını açan kimi onların ixtisaslı miqrant olmadığını, ölkələrinin iqtisadiyyatına çətin ki töhfə verəcəklərini anlayacaqdılar. Amma onların verəcəyi faydanın hər hansı maadiləşmiş formayla müqayisə eləməyin qüsurlu, daha doğrusu, günah olduğunu hamıdan əvvəl mən duymuşdum: onlar qədəm qoyduqları torpağı öz sevgiləriylə birgə vətən edəcəkdilər. Deməli, mənim ölkəmdə sevənlərin sayı artacaqdı. Deməli, dünyanın heç də hər yerində rast gəlinməyən təmənnasız və saf məhəbbətin sərhədləri bir az da genişlənəcəkdi. Mən bütün bunları özünə kifayət qədər uğurlu karyera qurmağa nail olmuş təcrübəli məmur kimi yox, ölkəsində sevənlərin sayının artacağından qəlbi fərəhlənən aşırma şalvarlı kənd uşağı kimi düşünürdüm. Nə yaxşı o uşaq öz təmizliyi və məsumluğuyla həmişə mənimlə olub. Onun gözləriylə baxanda dünyamız necə də gözəl görünür.

Amamuni Sunetanın, daha doğrusu, Müjdənin sağ biləyindəki kəsiyi görəndə zavalı qızcığazın acısını öz biləyimdə hiss etdim. Ətim ürpəndi. Təəssüf, çox təəssüf ki, kişilər vaxtında ağlaya bilmirlər, bunu qadınların yanında etməyi isə heç özlərinə sığışdırmırlar. Mən də başımı yana çevirib göz yaşlarımı sonraya saxladım. Belə vəziyyətdə bizim ikimizin də ürəyindən xəbər verən bir təsəlli var idi – sükut. Müjdə bütün suallarıma çox dəqiq, elə mən istəyən kimi cavab verdi. Onun danışdıqlarıyla Səidin protokolunda yazdıqlarımın hamısı üst-üstə düşürdü. Amma içimi didib-dağıdan, düşüncələrimə hakim kəsilmiş nağılın bəzi detalları var idi ki, onlar məni protokol xatirinə yox, bir insan kimi maraqlandırırdı. Qaraca bibisini fikrindən daşındıra biləcəyini əminliklə söyləyəndən sonra Siqiriya qalasında Səidin birdən-birə yoxa çıxmasının heç cür izahını tapa bilmirdim.

“Heç mən də bilmirəm”, - Müjdə də eynən mənim kimi təəccüblənərək çiyinlərini çəkdi, “gözümü açanda onu başımın üstündə gördüm. Heç gözümü açmaq istəmirdim, açığı yenidən həyata qayıtmağın, qaldığımız yerdən davam eləməyin mənası qalmamışdı. Burnuma Sakura ətri dəydi. Yəqin inanmırsınız, noyabrın axırlarında bu, necə ola bilər? Sadəcə, gözlərimi açdım və çarpayımın yanında onun mürgü vurduğunu gördüm. Sən demə, o da burnuna dəymiş Sakura ətrinin dalınca düşərək gəlib məni tapıbmış. Biz qaladaykən qeyb olması barədə bir kəlmə də danışmadı, heç mən də soruşmadım”. “Siqiriya qalasında azıb qala bilərdimi?” - bu sualı verməyim içimdəki məsum uşağın sadəlövhlüyündən irəli gəlirdi, elə bil, qılığıma girib qulağıma pıçıldadı, mən də xətrinə dəymədim. “Yox, Səid Siqiriyanı beş barmağı kimi tanıyır, amma heç vaxt oradan xoşumuz gəlməyib. Turistlərin hamısı məhz o qalanı görməyə can atır. Bizimsə həmişə orada ürəyimiz sıxılıb. Məncə, onu tutub saxlayıblarmış, bəlkə də, girov götürüblərmiş”. “Bu necə ola bilər? Səid heç bu barədə danışmayıb”. “Deyirəm axı danışmaq istəmir, mən də üstünü vurmuram. Amma bilirəm ki, başına nəsə qəza gəlibmiş, yoxsa heç vaxt məni tək buraxıb qeybə çəkilməzdi”.

***Kandi, noyabr, 2017***

Anasının Bandarın oğlu Murinin onu istəmək üçün elçi göndərməyə hazırlaşdığını söyləyəndən sonra Müjdənin sağ qolunun damarlarını doğrayaraq özünü öldürməyə cəhd göstərməsi xəbəri Muridən daha çox filləri pərişan edib depressiyaya salmışdı. Bu hadisə 2017-ci ilin noyabr ayının son həftəsində baş vermişdi. Elə həmin gün də insanları qorxuya salan qəribə işlər olmuşdu. Kandi şəhəri adi payız günlərini yaşayırdı, amma adi olmayan üç gün üç gecə aramsız buz kimi soyuq yağışın yağması idi. Əslində, havası rütubət qoxuyan bu yerlərdə payızın sonlarına yaxın selləmə yağışların artmasında qeyri-adi heç nə yox idi, hətta sinoptiklər də yağıntının illik norma daxilində olduğunu söyləmişdilər. Adi olmayan göydən tökülən suyun rənginin sarılığında və buz kimi olmasındaydı. Sarı yağışda islanmaqdan canlarına vəlvələ düşmüş Budda məbədinin kahinləri başlarını çölə çıxarmadılar, bütün günü şam yandırıb ibadətdə oldular və hətta yağış kəsəndən sonra da üç gecə dualarına davam etdilər. Yalnız heç nə olmamış kimi buludların arasından sıyrılan günəşin isitdiyi torpaq sarı yağışın axırıncı damcısını da canına hopdurandan sonra kahinlər bunun böyük günah ərəfəsində xəbərdarlıq olduğunu dedilər. İnsanların günaha batacağından duyuq düşən buludlar toqquşaraq Kandi camaatına sarı rəngdə qəzəb məktubu yollayıblar ki, təmiz qəlblərini çirkaba bulaşdırmasınlar. Kahinlərin yozumuna görə, belə xəbərdarlıq heç də hər yerə göndərilmir, dünyanın çox şəhərlərində insanlar günah işlətməkdə davam edir və gələcək nəsillər özləri də bilmədən babalarının eyni səhvlərini təkrarlayaraq günah içində ömürlərini başa vururlar. Yalnız Buddanın dişlərinin qorunduğu Kandi şəhəri müqəddəs olduğundan göylər rəhmə gəlmiş, hələ ki, sarı xəbərdarlıqla kifayətlənmişdi. İnsanlar harda günah işlədiklərini anlayıb, nəfslərinə “dur” deməsələr, heç şübhəsiz, bir gün göydən sarı yağış əvəzinə qara daş da yağa bilərdi. Camaat kahinlərin həyəcanlı çaığrışından sonra əllərində Yasəmən çiçəkləri Dalada Milqava məbədinə axışıb şam yandırdılar. Hamının bircə duası var idi: Budda onları bəd nəzərlərdən, yaman əməllərdən qorusun və bu torpağın adamlarını günahlardan saxlasın. Payız vaxtı soyuq ölkələrdən gələn turistlərə Buddanın dişləri yerləşən məbəddə adamların dayanmadan dua etməsi olduqca ekzotik

görünürdü, hətta turistlərdən də şam yandıranlar olurdu – dua eləmək yox “selfi” çəkdirmək üçün. Adamlar günah hissindən qorxurdular, amma söhbətin hansı günahdan getdiyini bilən yox idi.

Bandarın oğlu Muri təkgöz ağ fili çayda çimizdirəndə söhbətin hansı günahdan getdiyini onun yekə pələ qulaqlarına pıçıldamışdı “biz hamımız Sunetanın ahına gəldik. Belə olmamalı idi. Belə olmasını heç vaxt düşünməzdim. Damarlarını doğramış bakirə qızın qanı torpağa düşən kimi gurultu qopdu. Nə yer, nə də göy bunu götürdü”. Təkgöz ağ fil xortumunu yuxarı qaldırıb uladı, özünü itirmiş Muri vaxtında geri sıçramasaydı, iri pəncələrin altına düşəcəkdi. Adamların günahından xəbər tutan yetimxanadakı fillərin hamısı xortumlarını yuxarı qaldırıb zarıdılar. Həyatlarında ilk dəfə belə möhtəşəm mənzərəylə qarşılaşan turistlər dərhal telefonlarının kamerasını sazlasalar da, kimsə nəsə çəkməyə müvəffəq ola bilmədi. Muri ağlı kəsəndən bu yana qulluq etdiyi fillərin hamısının eyni vaxtda xortumlarını göyə qaldırmasını heyvanların da insanlar kimi, bəlkə də, onların əvəzinə dua etməsi kimi başa düşdü. Bundan sonra yetimxanadakı fillər başlarını aşağı salıb heykəl kimi yerlərində donub qaldılar, yalnız toran qovuşana yaxın küskün-küskün pələ qulaqlarını tərpətməyə başladılar. Heç şübhəsiz ki, insanların əvəzindən fillər xəcalət çəkirdi. Belə götürəndə yaxşı ki, sarı yağış yağdı, yoxsa bakirə qızın qanı həm torpağın sinəsində, həm insanların vicdanında qırmızı ləkə kimi ilişib qalrdı.

Axırıncı dəfə turistləri Siqiriya qalasında birgə müşayiət edərkən, Səid işlərin hətta onun gözlədiyindən də yaxşı getdiyini söyləyib tezliklə elçi göndərəcəyini demişdi. “Bibim heç də düşündüyüm kimi çətin adam deyilmiş, nahaq bu vaxta kimi ondan saxlamışam. Hər şey yaxşı olacaq, Müjdə”, - söyləsə də, günlərdi gözə dəymirdi. Telefonuna zəng çatmır, vatsap mesajları isə oxunmamış qalırdı. Anası bir az ürkək, bir az utancaq səslə onu istəmək üçün elçi gələcəyini söyləyəndə isə Müjdə hər şeyin belə sürətlə və asanlıqla baş verməsindən çaşıb qaldı. Əbəs yerə Səidin ötkəmliyini ciddiyə almamışdı, görünür, nəsə bilirmiş. Bəs niyə zənglərə cavab vermirdi? Bəlkə, növbəti sürprizinə hazırlaşırdı? Müjdə təyyarədəki Sakura çiçəklərini xatırladı, nə illah eləmişdisə Səid onları hardan aldığını, kimsəni duyuq salmadan göyərtəyə necə keçirdiyini söyləməmişdi, “yuxuma girmişdi, sənin üçün dərdim”, - söyləmişdi. İndi neçə gündü pəncərənin qabağındakı güldandan boy göstərən çiçəklər elə bəxtəvər görünürdülər ki, balaca evi başdan-başa öz ətrinə qərq etmişdilər, hətta Müjdəgilin məhəlləsindən uzaqlardan da məhəbbət qoxusu gəlirdi. Anası “elçi” sözünü eşidəndə qızının yanaqlarının çiçək kimi çırtladığını görcək, dərhal ikinci həmləsini elədi, “özü də çox yaxşı oğlandı”, - dedi. “Anam Səidin yaxşı olduğunu hardan bilir? Bunlar nə vaxt tanış olublar? Bəlkə, hamı ona sürpriz etmək üçün sözü bir yerə qoyub? Əgər anam belə düşünürsə, deməli, atam da razı olacaq. Afərin sənə, Səid, doğrusu, gözləməzdim”, - Müjdə özlüyündə düşündü. “Bilirsən qızım”, - anası onun sakit davranışından, sanki bu xəbəri çoxdan gözləyirmiş kimi sevincəyə düşməsindən ruhlanmışdı, ürəyində nə vardısa hamısını açıb tökmək istəyirdi, - “xoşbəxt olmaq sənin haqqındı, özü də hamıdan çox. Biz də sevinirik. Belə yaxşı adamlar hər kəsin qabağına çıxmır. Gözümüzün qabağında böyümüsünüz, bir-birinizi tanıyırsınız, bundan artıq bizə nə lazımdı? Bu qismətdi, qızım”.

Duruxub qalmış Müjdə anasının xeyir-dua qarışıq uzun-uzadı verdiyi arayışdan ona doğrudan da sürpriz hazırlandığını anladı. “Gözümüzün qabağında böyüyən” oğlanın Muri olduğunu eşidəndə isə dünya başına

fırlandı. Ona görə yox ki, məktəbdə bir parta arxasında oturmuş, bütün sirlərini hamıdan əvvəl bir-birləriylə bölüşən dostu Muri pis oğlan idi, ona görə ki, Muri onu yox, bacısı Sonalini sevirdi, hələ üstəlik Səidi sevməsindən də xəbərdar idi.

- Yox! - qəzəb və hiddət dolu kəlmə sevincindən danışa-danışa gözləri dolmuş ananın xeyir-duasını ağzında qoydu.

- Nə! Yox? Bəs bayaqdan gözlərin elə parlayırdı ki…

- Yox! Belə şey olmaz. Mümkün deyil! - Müjdə dəli kimi bağırdı.

- Niyə birdən-birə göyərdin? Murini tanımırsan? Özün həmişə tərifləyirdin, “dostumdu” deyirdin. Sənə birdən-birə nə oldu?”

- Ana, yığışdır bu söhbəti! Murinin başına hava gəlib, deyəsən. Bunu özü niyə mənə deməyib? O, bu xəyanətə necə cürət edib?

- Nə xəyanət, bala? Qıza elçi gəlmək, kimisə sevmək nə vaxtdan xəyanət olub?

- Ana, sən çox şeyi bilmirsən. Bu, alınan iş deyil…

- Sakitləş, Suneta, nədən danışdığını bilmirəm. Heç vaxt səni belə görməmişəm. Bəs atana nə deyim? Onun üzünə necə baxım?

- Bu, alınan iş deyil, ana.

- Yenə də eyni sözü deyirsən. Murinin yox, sənin ağlın çaşıb. Mən həmişə sənin işləməyinin əleyhinə olmuşam. Görünür, turist turları ağlını aparıb. Sən bizim qızımızsan, bunu unutma. Sizi necə əziyyətlə böyütmüşük, indi üzümüzə ağ olursunuz?

- Ana…

- Heç nə eşitmək istəmirəm!

- Bəs Sonali hanı? Sonali!..

- Bağırma! Bacın da sənin kimi səfehdi. Elçi sözünü eşidəndə qışqırıb evdən qaçdı. Yox, bu işi belə qoymaq olmaz. Nə qədər ki, bizi biabır eləməmisiniz, buna bir əncam çəkmək lazımdır.

Müjdə Muri ilə görüşmək, nə baş verdiyini onun öz dilindən eşitmək üçün evdən çıxmaq istəsə də, anası tərsliyinə salıb icazə vermədi. Ana bərk qəzəblənmişdi, qızlarının ikisinin də özlərini dəli kimi aparması, Müjdəninsə açıqdan açığa üzünə qayıtması qəlbinə toxunmuşdu. Ayağının birini müharibədə qoyub gəlmiş ərinin fil nəcisindən düzəltdiyi suvenirləri turistlərə satmaqla yaman dünyada iki qız övladı böyütmək hər ananın işi deyildi. Hərçənd ki, qonşuluqda onlardan da betərləri vardı, amma Müjdənin anası Suzan Pale heç vaxt aşağılara baxıb şükür edən adamlardan deyildi, o, yalnız yuxarılara baxıb fikir edərdi. Səhər o başdan şəhərin ensiz küçələrini süpürüb, gün əyiləndən ta axşama qədər otellərin mələfələrini yuyub qurudanda ağlından yalnız bir şey keçərdi, yaman dünyada qızlarını böyüdüb xoşbəxt edə bilmək.

Müjdə anadan olanda Şri-Lankanı ağuşuna almış vətəndaş müharibəsinin on dördüncü ili idi, sonra bacısı Sonali dünyaya gəldi – sevinc və dərd göz yaşlarının bir-birinə qarışdığı anlaşılmaz dünyada onlar yavaş-yavaş böyüməyə başladılar. Müjdənin yalnız on iki yaşının tamamına az qalmış vətənin başı üstündə asılan qara buludlar nəhayət çəkildi. İndi onların evində savaş illərini atasının itirilmiş ayağına geyindiyi protezdən başqa heç nə xatırlatmırdı. Pis günlərin adamın canına üşütmə salan vəlvələsi yalnız yaddaşlara köçüb heç vaxt unudulmayan ədəbi nifrətə çevrilmişdi. Doğmalarını, yaxınlarını itirmiş, burnunda barıt qoxuyan, cibində quru çörək gəzdirən müharibə dövrünün adamları üçün xoşbəxtlik anlayışı çox sadə olur - açıq səmada sinə dolusu nəfəs almaq kimi, övladlarının böyüməsinə tamaşa

etmək kimi. Müharibə dövrünün uşaqlarının arzusu isə sadədən də sadədi – qarnını doyurmaq, şirin yuxular görmək kimi.

Suzan Pale əsəbindən titrəyirdi. Müjdə nə qədər israr etsə də, onu evdən buraxmamışdı. Qapını arxadan qıfıllayıb gün əyilənə yaxın ərini qarşılamaq üçün üzüyoxuşa məhəllənin şimal səmtinə getmişdi. Ayağını itirəndən sonra həyatdan əlini birdəfəlik üzmüş Daruna Pale məhz arvadının inadkarlığı sayəsində sanki yenidən dünyaya gəlmişdi. Onun israrıyla depressiyadan çıxmış, onun təkidi ilə suvenirlər düzəldib satan balaca mağaza açmışdı. Hər dəfə toran qovuşanda məhəllənin şimal tərəfində yolunu gözləyən arvadına uzaqdan əl eləməkdən, gülərək qoluna girib evinə getməkdən o qədər zövq alırdı ki, ayağının yoxluğunu yalnız axşamlar yerinə girən vaxt protezi çıxaranda yadına düşürdü. Suzan ərinin müharibədəki sücaətindən elə şeylər quraşdırıb danışardı ki, qulaq asanların gözünün qabağında “Rembo” filminin bütün fraqmentləri canlanardı. Əlində avtomat cəngəlliklərdə düşmənə qənim kəsilmiş Daruna Pale haqqında bitib-tükənməyən rəvayətlər ya o yatanda, ya da evdə olmadığı vaxtlarda boy göstərərdi. Hərçənd hərbi xidmətdə olduğu dörd il on gündə çoxlu döyüşlərdə iştirak etsə də, Daruna Pale bir dəfə də olsun adam öldürməmişdi, bunun üçün hamıdan çox imkanı olmuşdu, amma tətiyi çəkmək istəməmişdi, bəlkə də, ürək etməmişdi. Ayağını da bədbəxt bir təsadüf nəticəsində minalınmış sahədən keçərkən itirmişdi. Özü də bilirdi ki, o, savaş adamı deyildi, amma savaşın düz ortasına düşmüşdü. Hər dəfə bu haqda danışmaq istəyəndə Suzan əlini onun dodaqları üstünə qoyub sözünün dalını gətirməyə imkan verməzdi, “bizə qəhrəman lazımdır, sən də qəhrəmansan, vəssalam”, - deyərdi. Qızlar hətta yuxarı siniflərdə atalarının sücaəti haqqında yaşıdlarını heyrətə salan inşalar yazanda da, suallara nə üçünsə həmişə analarının cavab verməsinin fərqinə varmırdılar, ağılları kəsəndən sonra isə bu haqda heç düşünmədilər də. “Bizə qəhrəman lazımdır, vəssalam…”

Əsəbindən titrəyən Suzan ərini uzaqdan görən kimi yenə də əl salladı, lakin nə illah etdisə gülümsəyə bilmədi. Çəliyini yerə dayaq verərək, yavaş-yavaş yaxınlaşmaqda olan ərinə qızının oyunbazlığını necə çatdıracağını götür-qoy edirdi. Elə sözlər seçmək lazım idi ki, müharibənin şikəst elədiyi adamın könlü də yaralanmasın. Şimşək çaxanda Daruna Pale ona lap yaxınlaşmışdı, göyün bağrı yarılıb yerə buz kimi soyuq sarı yağış tökəndisə Suzan artıq ərinin qoluna girmişdi. Leysanın soyuqluğu damarlarına işlədikcə çənələri şaqqıldasa da, həmişəki kimi addımlarını asta-asta atırdılar. Hələ arada ərinin yanağından süzülən sapsarı suya baxanda Suzanı gülmək tuturdu. Daruna Pale bir göz qırpımında sarı cücəyə dönmüş arvadının nəyə güldüyünü, onun qolundan əvvəlkindən möhkəm yapışdığını yaxşı bilirdi. Əgər yenidən müharibə başlasaydı, məhz bu təbəssümün uğrunda ikinci ayağını da qurban verməyə hazır idi. Sarı yağışın altında islandıqca başa düşürdü ki, milyonlarla insanın həsrət qaldığı belə təbəssümün sahibi indi göydən daş yağsa belə, onun əlini buraxıb qaçası deyildi. Daruna Palenin sapsarı saralmış buz bağlayan başına bu vaxta kimi ağlından keçməyən fikir gəldi – o heç vaxt bu fədakar qadına “mən səni sevirəm” söyləməmişdi. İndi, məhz doğma evinə gədən palçıqlı yolda o bu sehrli sözləri bacardıqca ucadan bağırmaq istədi.

- Suzan! - dəhşətli ildırım gurultusuyla eyni vaxtda ağzından çıxan kəlməni heç öz qulaqları eşidə bilmədi ,– bunu çoxdan deməliydim…

- Bilirəm, əzizim, darıxdırma özünü. Heç əsəbləşib eləmə. Mən bilirəm onun inadını necə ram etmək olar, - arvad başını aşağı salıb donquldandı.

Belə vəziyyətdə Darunanın boyda özündən ən azı iki dəfə balaca arvadının daha məzəli göründüyünün fərqinə varsa da qımışmadı. Boy fərqinə görə onlar evlənəndə də hamıya qəribə gəlmişdi. Hələ siftə vaxtlarda arvadıyla yanaşı addımlayanda hətta Darunanın özünü də gülmək tutardı. Başı sərv qamətli ərinin dirsəyinə ancaq çatan Suzan isə təbiətin bu qeyri-mütənasibliyini heç vaxt eyninə almazdı, əksinə, buna ağzıgöyçək rəfiqələrini qısqandırmaq üçün əla fürsət kimi baxardı. Ayağını itirəndən sonra ərinin çəliyə dayaq verib yeriməsini də, özünə dərd etməmişdi, çünki o, ölkəsini düşmənlərdən rəşadətlə müdafiə edərkən şikəst olmuş qəhrəmanın arvadı idi.

- Suzan nədən danışırsan? - Daruna Pale gözlərinin içinə qədər sarı gəlinciyə çevrilmiş arvadının qolundan dartdı –kimin tərsliyi tutub?

- Bəlkə də, günah bizdədi. Nə bilim? Çox ürəyi yumşaq olmuşuq. Bu yaman dünyada gərək sərt üzümüzü göstərəydik. İndi də gec deyil, eybi yox, öz payıma günahımı boynuma alıram…

- Sən əməlli-başlı titrəyirsən, Suzan. Yəqin başına soyuq dəyib?

- Mən özümü çox yaxşı hiss edirəm! Həmişə demişəm, Sunetanın işləməsinə ehtiyac yox idi. Qız uşağı evdə oturar, valideynlərinin sözünə baxar, heç olmasa, anasına söz qaytarmaz!

- Sunetayla dalaşmısan? Qəribədi.

- Qəribə olan nədi? Ananın övladının xoşbəxtliyini istəməsi ya övladın ananın üzünə ağ olması? Ayıb olsun ona! Məgər Muridən yaxşı oğlan tapacaq? Kim bilir ağlı haralara gedir? Nahaq onun işləməsinə razı oldum, nahaq.

- Dayan görüm, nə Muri? Bu hardan çıxdı?

- Bəs özün deməmişdin ki, Bandarın oğlu Muri elçi göndərmək istəyir. Əvvəlcə çiçəyi çırtladı, Murinin adını eşidəndə isə dəli kimi bağırmağa başladı. Hələ Sonali… onunla işim sonraya qalsın. Göstərərəm ona anasının üzünə qapını çırpıb qaçmaq necə olur.

Daruna Pale bilmədi başını saralmış palçıqdan qaldırmadan üyüdüb-tökən arvadının halına acısın ya gülsün. Bir-birlərinə oğrun-oğrun baxıb təzəcə tanış olanda da, uşaqları dünyaya gələndə də, əri müharibədən şikəst qayıdan da Suzan heç vaxt özünün qurduğu xəyallar dünyasından ayrılmamışdı. Daruna Pale bunların hamısını yaxşı bilirdi və susurdu. Bilirdi ki, Suzan kimi arvadı xoşbəxt etməyin yalnız bir yolu var, onun eşitmək istədiyi sözləri söyləmək və onun arzuladığı dünyanın çərçivələrindən bayıra addım atmamaq. Elə buna görə də həmişə susmuşdu, hətta etmədiyi qəhrəmanlıqlar haqqında Suzanın uydurduğu rəvayətləri eşidəndə burnunun ucuna qədər qızarsa da, ağzını açmamışdı. Lakin indi yuxudan ayılmaq vaxtı idi, indi susmaq günaha batmağa bərabər idi.

Uzaqdan Sonali ilə Murinin bağıraraq evlərinin qapısını döyəcləməsini görcək çəliyini atıb onlara tərəf yüyürdü. Ürəyinə damdı ki, elə bu dəqiqə, bu an bağlı qapının arxasında nəsə pis bir şey baş verməkdədi və bu pis şeyin acısı ayağını itirərkən yaşadığı vahimədən də dəhşətli ola bilərdi. Damarlarını doğramış qızını otağın qaranlıq küncündə yarımcan vəziyyətdə tapanda da, Bandarın oğlu Murinin Sunetaya yox Sonaliyə elçi göndərməyə hazırlaşdığını biləndə də, Suzan ana hələ də xəyallarının yarımçıq yuxusundan ayılmamışdı. İlk dəfəydi ki, nə ərindən, nə də qızlarından eşitmək istədiyi sözləri eşidirdi. İlk dəfəydi ki, bütün ömrünü bünövrəsini bərkitməyə həsr etdiyi dünyası buz kimi sarı yağışın altında əriyib yoxa çıxırdı.

“Ayıl, özünə gəl! Bu gedişlə hər şeyi məhv edəcəksən! Biz sənin uydurduğun adamlar deyilik, bizim də ürəyimiz var, bizim də başımız işləyir.

Lənətə gələsən, biz də adamıq axı!", - Daruna Pale başına döyəcləyib bağırırdı. Qapının kandarında hərəkətsiz qalmış Suzan ana bu sözlərin mahiyyətinə lap sonralar vardı və hər dəfə bu müdhiş günü yadına salanda ürəyi sızlasa da, heç vaxt günah hissini özünə yaxın buraxmadı. Övladının xoşbəxtliyini arzulamaq ana üçün günah sayılmaz, bu yolda mən nələrdən keçmişəm; cavan ömrümü xərcləmişəm, müharibədən şikəst gəlmiş axsaq kişinin yox, qəhrəmanın arvadı olmaq istəmişəm, məgər bu, ayıbdımı? Öz illüziyalarına bəraət qazandırmaq üçün hazırladığı nitqi Suzanın qəlbini çoxdan yara eləmişdi və həmişə dilinin ucunda düyünlənib qalırdı. Artıq onları kiməsə deməyin mənası da qalmamışdı – sarı yağış yağan günü onsuz da görmək istədiyi dünya yıxılıb məhv olmuşdu. "Mən demişdim ki, Bandar bu axşam bizə gəlmək istəyir, xeyir iş üçün. Keşkə dilim quruyaydı! Axı Murinin Sunetanı sevdiyini hardan çıxardın? Çünki sən belə istəyirdin, eləmi? Yalnız özünün doğru bildiyin şeylərə inanırsan. Yalnız eşitmək istədiyin şeyləri eşidirsən. Sən kar və korsan Suzan!", - Daruna Pale bu sözləri bağırarkən həkimlər Müjdənin həyatını xilas etmək üçün son həmlələrini edirdilər.

Sarı yağış səngimişdi. Pale ailəsinin sapsarı oyuncağa oxşayan evinin sağ yanındakı pəncərənin aşağısında iki körpə fidan torpağın kəhrəba sinəsini yarıb günəşə sarı boy göstərməyə çalışırdı. İlk baharın nəfəsini duyan kimi çəhrayı çiçəklər açanda insanlar bu körpə fidanların Sakura olduğunu biləcəkdilər. Amma bu sonralar olacaqdı, sonralar.

* * *

İki gündü qəsəbə xəstəxanasının reanimasiya şöbəsinin darısqal palatasında yatan Müjdənin yuxusuna odlu torpaq girmişdi. Sakura ətrini alar-almaz gözlərini açanda isə Səid başı sinəsinə əyilmiş heykəl kimi çarpayının yanındakı kətildə mürgü vururdu. Heyi olsaydı sevincindən sıçrayar "bəs bu vaxta kimi harada itib-batmışdın, ay zalım" deyib, boynuna sarılar, hönkür-hönkür ağlayardı. Sinəsindən qopan küt ağrı bunların heç birinə imkan vermədi, sadəcə, sevgilisinin əyilmiş başına, altı tulumlanmış gözlərinə baxaraq qımışdı. Nəsə pıçıldamaq, heç olmasa, onun əlindən yapışmaq üçün özünü toparlamaq istəsə də, nə dodaqları tərpəndi, nə də qolunu qaldıra bildi. Hər şeyi aydınca görürdü; palatanın nəmişlikdən kif basmış divarlarını, pəncərənin yarımaçılı nəfəsliyindən içəri düşən gün işığında oynaşan toz zərrəciklərini, tavandan asılmış tək lampası yanan lüstrun içində tor qurub təkəmseyrək uçuşan milçəklərə, ağcaqanadlara iştahayla baxan hörümçəyi də seçə bilirdi. Qapının o tərəfindəki ensiz dəhlizdə o baş-bu başa yeriyən gonbul tibb bacılarının cırıltılı ayaq səslərini, payız yarpaqlarının altında eşələnən sərçələrin acgöz civiltilərini də eşidirdi, hətta xəstəxananın həyətində doğmaları əməliyyata girmiş nigaran adamların duaları da qulağına çatırdı. Gördükləri və eşitdikləri ona o qədər doğma gəlmişdi ki, Müjdə buranın evlərində iki tin yuxarıdakı məhəllədə yerləşən xəstəxana olduğunu anladı. Bura heç də yaxşı yer deyildi və xəstəxanadan daha çox əlacı kəsilmiş adamların ağrılarını ovundurmaq üçün üz tutduqları Nuh əyyamından qalmış köhnə bir binaydı. Düzdür, bəzən Buddanın möcüzəsi nəticəsində əməliyyatdan sağ qurtulanlar da olurdu, amma əsasən bu binanın qapısından ümidi kəsilmiş adamların meyiti çıxardı və hamının reallığın bu acı üzüylə razılaşmaqdan savayı əlacı qalmazdı. Ölüm! Heysiz bədənin içində çırpınan ürəyi qara-qura fikirlərin məngənəsində bir az da sıxılmağa başladı və Müjdəyə elə gəldi ki, bəlkə də, o, əslində ölüb. Gördüklərinin hamısı il-

lüziyadan başqa bir şey deyil, yanında əyləşmiş adam da Səid yox, onun boynubükük müqəvvasıdı. Bir azdan qapı açılacaq, gonbul tibb bacıları onu süni nəfəs aparatından ayıracaq, əslində bu xəstəxanada heç vaxt belə bir aparat-filan olmayıb, sadəcə, ölümcül xəstələrin yaxınlarından pul qoparmaq üçün belə şeylər uydururdular. Bir azdan vay-şüvənlə onun da cəsədini yandırmaq üçün aparacaqdılar. Ağlayanlar əlbəttə ki, çox olacaq, özü də ürəkdən, hönkürə-hönkürə ağlayacaqdılar. Qınayanlar da tapılacaq və bəlkə də ağlayanlardan daha çox, Allahın verdiyi cana qəsd etdiyi üçün bütün dinlərdə olduğu kimi lənətlənəcəkdi. Çox güman ki, onun ölümündən sonra Muriylə Sonalinin izdivacı da mümkünsüz olacaqdı, buna hamıdan əvvəl heç Sonalinin özü razı olmazdı. Ölüm –bütün günahları yumağın, özünü təmizə çıxarmağın tək yolu sayılmaz, adam var ki, öləndən sonrakı günahı yaşadığından betər olur. Müjdə qımıldanmayan bədəninə göz atıb köks ötürdü, Səidin müqəvvaya çevrilmiş yazıq sifətinə baxanda isə göz yaşlarını tuta bilmədi. Ölülər xiffət çəkəndə ağlayırmı görəsən? Bəlkə də…

Gonbul tibb bacısı qapını açan kimi gözləri parladı, əlini qızın alnına qoyub dişlərini ağartdı, “Ayıldı! Ayıldı! Bu ki lap möcüzədi!”, - qışqırıb dəhlizə qaçdı. Həkimlərdən qabaq Suzan, onun ardınca isə Daruna Pale özünü palataya atdı, hətta Bandar da oğlu Muri və Sonali ilə birlikdə çarpayının yanında dayanıb heyrətlə xəstəyə baxırdılar. Hamının gözləri qızarmışdı, hamı ağlayırdı. Acı bağırsaq kimi uzanan əzabla dolu bu iki gündə onlardan heç biri palatanın yanından çəkilməmişdi, Bandar nə illah eləmişdisə, nə Suzan, nə də Daruna Pale gözlərinin çimirini almaq üçün evə getməmişdilər. Yorğun, üzücü gecələri yola verib səhərləri dirigözlü açan adamlar məhz bu anı – Müjdənin həyata qayıtmasını görmək üçün öz həyatlarından keçməyə hazır idilər. Hamı günahkar idi, hamının üzərində bakirə qızın torpağa tökülmüş qanının ləkəsi vardı, bu, yalnız Müjdə gözlərini açandan sonra təmizlənə bilərdi. Doğmalarını görcək ürəklənən qız həkimlər gələnə qədər özünü toparlayıb bekara gülümsünən kimi oldu. Sarğılı qoluna baxıb hönkürən anasını özünə tərəf çəkib boynuna sarıldı “dünyanın ən gözəl anası, bağışla məni”, - pıçıldadı. “Yox, sən bizi bağışla qızım! Mən axmağam, mən qanmazam… məni atıb hara gedirdin, Suneta?” - bu sözlərin ağırlığına, ya balasının ikinci dəfə həyata qayıtmasının sevincinə ürəyi tab gətirməyən ananın dizləri büküldü, müvazinətini itirməmək üçün onu çarpayının yanındakı yeganə kətildə əyləşdirdilər. Elə bu zaman Müjdəyə elə gəldi ki, Səidi yenidən itirdi, nəzərləri doğmalarının üzərində nə qədər səyrisə də, onu tapa bilmədi. Bayaqdan bəri başı heykəl kimi sinəsinə əyilmiş adam sanki bir göz qırpımında qeybə çəkilmişdi, onun mürgü vurduğu kətildə isə indi anası əyləşmişdi.

Bəlkə qara-qura fikirlər bayaqdan ona görə qəlbini sıxırmış ki, ölən o yox, Səid imiş. Heç yuxusuna girmiş odlu torpaqda da Səidi görə bilməmişdi. Nə qədər qəribə və əsrarəngiz mənzərə idi; qartal dimdiyi kimi dənizə əyilmiş torpaq başdan ayağa oda qərq olmuşdu, əzəmətli quş qanadlarını gərib Quzğun dənizin suyunu canına çəkdikcə alovlar daha da şiddətlənirdi. Alovun suya meydan oxuduğu o qəribə yer ürəyinə elə yatmışdı ki, əgər vətən seçmək imkanı olsaydı, heç şübhəsiz, məhz buranı seçərdi, sadəcə, alovlar arasında yaşamaq marağından, sadəcə, heyrətdən… Amma Səid gözə dəymirdi.

Həkimlər palataya daxil olanda elə kobudluqla hamının çıxmasını tələb etdilər ki, çəliyinə söykənmiş Daruna Pale belə üz vurmadı, səssizcə gözlərinin yaşını silib arvadının qolundan yapışdı. Doğmaları qapını örtən kimi divarın küncündə peyda olan Səid gülə-gülə əlindəki Sakura çələngini çarpayının ayaq tərəfinə qoydu.

- Səid… Sakura… - Müjdə pıçıldadı, yaralı qolunu ona tərəf uzatmaq istəsə də, həkimlər imkan vermədilər. “Qara basır”, - həkimlərdən biri dodaqaltı mızıldandı.

- Axı o burdadı? - Müjdə dikəlib Səidə sarı baxdı, o isə yenə də divarın küncündə dayanıb gülümsəyirdi.

- Burda olan bizik, mənim balam, - onun nəbzindən tutmuş həkimlərin ən yaşlısı dilləndi –belə şeylər olur. Sən yenidən həyata qayıtmısan, bu, möcüzədi. Ayağa duranda mütləq Dalanda Milqavaya gedib şam yandırarsan. Nəbzin normaldı, indi sənə yalnız dincəlmək qalır. Çoxlu qan itirmisən, yalnız dincəlməlisən, - dedi.

- Siz heç Sakuranın da fərqində deyilsiniz? - Müjdə soruşdu. Yaşlı həkim duruxaraq başını bulladı “burada bir Sakura var, o da sənin özünsən. Dincəl, qızım, bir azdan sistem köçürəcəyik”, - söyləyərək, otağı tərk etdi.

- Səid, bu doğrudan sənsən? Yoxsa, həqiqətən məni qara basır?

- Mənəm, əzizim.

- Bəs bu vaxta kimi hardaydın, Səid? Qalada yoxa çıxdın. Çox soraqladım səni, tapa bilmədim. Niyə məni tək qoydun?

- Həmişə sənin yanında olmuşam, əzizim. Başına gələnləri bilirəm, mən də əzab çəkirəm, Müjdə. Həmişə səbirsiz olmusan. Özünə qəsd eləyəndə heç məni fikirləşdinmi?

- Sən yoxa çıxmışdın axı. Tək, yalqız, əlimdən nə gəlirdi?

- Mən məcbur oldum, Müjdə. Siqiriyadan sağ çıxmamalı idim. Əmr beləymiş. Bilirsən, o qalaya necə nifrət edirəm, elə məni öz nifrətimlə də boğub öldürmək istəyirdilər. Dadıma Sarı Aşıq yetdi. Elə səni tapmaq üçün də yolu mənə o, göstərdi.

- Nələr deyirsən? Nədən danışırsan, əzizim?

- Ağlınla fikirləşmə, Müjdə, məntiqi bir kənara at, sən demə, məntiq çoxdan ölübmüş, sadəcə, heç kimin bundan xəbəri yoxdu. Qəlbinin səsini dinlə. Aşıq məni qalanın sirli yollarından keçirdi, sonra dedi ki, burnuma dəyən Sakura ətrinin dalınca düşüb getsəm, səni taparam. Və bir daha heç vaxt, heç vaxt yanından ayrılmayacağam. İstəyirsən Tomas əmi və Merio xala kimi heç vaxt bir-birimizin əlini buraxmayaq.

- Səid, sən ölmüsən, ya hələ də sağsan?

- Sağam, əzizim, özü də sapa-sağlamam. Artıq ölümdən qurtulmuşuq, onun bizə gücü çatmaz. Əslində ölmək istəyirdim. Sarı yağış yağanda anladım ki, sən məni qabaqlamısan.

- Axı niyə səni öldürmək istəyirdilər? Bizim günahımız nədi? Səid, nəsə gizlədirsən məndən?

- Bizim günahımız bir-birimizi sevməyimizdi. Bilirsən, bu, necə gözəl “günahdı”, bütün ömrüm boyu bu günahla yaşamağa hazıram. Mən qorxaq deyiləm, əzizim, ölümdən çəkinmirəm. Səni itirmək ölümdən də betər olardı, bu, əzabla yaşamağı heç vaxt bacarmazdım.

- Mən də bacarmaram. Hər yanda səni görürəm –çiçəklərin ətrində, bütün yuxularımda … içdiyim suya da yalnız sənin əksin düşür, Səid. Siqiriyada elə inamla danışmışdın ki, zavallı anam elçi gələcək deyəndə uçmağa bircə qanadım yox idi.

- Yalançı vədlərə inanıb ürəklənmişdim. Əslində hamısı tələ imiş. Amma mən yenə də israrlıyam, heç vaxt, heç vaxt inadımdan dönməyəcəm. Bu dəfə məni aldada bilməyəcəklər, öz qurduqları tələyə özləri düşəcəklər.

- Məni sevdiyin üçün sənə tələ qurmuşdular?

- Sənin nə günahın var, əzizim, səni sevdiyim üçün yox, ümumiyyətlə, sevdiyim üçün. Darısqal dünya sevənləri anlamır. Sevgini unutdurmaq istəyirlər, bunu mənə Aşıq dedi. Onu da söylədi ki, sevgi heç vaxt təslim olmayacaq.

- Kimdi o pis adamlar? Tanıyırsanmı?

- Adam öz doğmalarını tanımazmı? Qəfil və sağalmaz zərbəni adama kim vurar – öz yaxınları? Düşmən məlumdu, həmişə göz-gözə dayanırsan, amma doğmaların… onlar arxadan vururlar axı… Səni sevdiyimi söyləyəndə Qaraca bibim elə sakit dayandı ki, özüm də duruxub qaldım. Atam, anam özündən çıxsalar da, o, heç halını da pozmadı, gözlərini də bərəltmədi. Ümumiyyətlə, onun üzündə heç vaxt heç bir ifadə olmur, təsəvvür edirsənmi? Məni öldürmək üçün Siqiriya qalasına Lələ dayım özü gəlmişdi. Onu özündən çıxardan mənim kimisə sevməyim yox, böyüklərin yanında “sevirəm” sözünü işlətməyim imiş. O, bunu tərbiyəsizlik kimi başa düşübmüş. Müjdə, sən də mən də “tərbiyəsizik” və bu “əxlaqlı” adamların yanında bizə yer yoxdu. Qaçmaq, bacardıqca uzaqlara qaçmalıyıq…

- Qaçmaq? Buna atamın ürəyi tab gətirməz. Anam möhkəmdi, atam isə dözə bilməyəcək…

- Onların sevinmək üçün hələ bir dəfə də şansları olacaq – Muri ilə Sonali tezliklə evlənəcəklər, yaman günlərin hamısı yaddan çıxacaq. Bizimsə artıq şansımız yoxdu…

- Bu sözləri söyləmək nə qədər asandı, Səid. Hər şeyi geridə buraxıb, sadəcə, qaçmaq – sözdə adama asan gəlir. Bu qədər xatirələri, öyrəşdiyimiz torpağın ətrini götürüb hara qaça bilərik ki?

- Burdan çox uzaqlarda qartal kimi dimdiyini dənizə əymiş odlu torpaqlar var…

- Alovun suya meydan oxuduğu qəribə torpağı deyirsən? Səid, bu ki mənim yuxumdu. Yoxsa, biz yenə eyni yuxunu görürmüşük…

- Mən heç bir yuxu görməmişəm, əzizim, o yeri mənə Sarı Aşıq nişan verdi. Qaçmaq, bacardıqca tez, uzaqlara qaçmaq lazımdı…

- Qaçmaq?

- Qaçmaq… qaçmaq…

Ensiz dəhlizdə getdikcə yaxınlaşan cırıltılı ayaq səslərini eşitcək Səid əvvəlki kimi küncdə dayandı. O, yenə də işıq saçan baxışlarını Müjdənin üzündən ayırmadan gülümsəyirdi. Gonbul tibb bacısı içəri daxil olan kimi çarpayıya baxıb heyranlıqla köks ötürdü:

- A...a... gülləri kim gətirdi? Necə də gözəldilər, - o, gül dəstəsini burnuna yaxınlaşdırıb dərindən köks ötürdü.

- Siz onları görürsünüz? - Müjdə təəccüblə gözlərini bərəltdi.

- Görürsən nədi, mənim balam, indi onları bankaya qoyaram, heyif bu çiçəklərə layiq güldanımız yoxdu. Bəxtin gətirib sənin, inan ki, bu yaşa çatmışam, hələ heç kim mənə gül bağışlamayıb.

Qəsəbə xəstəxanasının darısqal palatasından yayılan Sakura ətri ətrafı elə sarmışdı ki, hər yandan - hətta çox-çox uzaqlardakı odlu torpaqlardan belə onun qoxusu gəlirdi.

# ÜÇÜNCÜ HİSSƏ

## *Dünyanın üzü*

***Banqkok, noyabr, 2017***

Dan yerinin təzəcə ağartmış sübh şəfəqləri Vəli Özdəmirin göz qapaqlarını döyəcləsə də, onun hələ bu dadlı röyadan oyanmaq fikri yox idi. Top atsaydılar belə, oyanmazdı. Arabir burnuna dəyib-qayıdan qadın ətrindən bihuş olmuşdu, elə bilirdi ki, yuxu görür. Sinəsinin üstündə gəzişən yumşaq barmaqlar çənəsini, dodaqlarını və nəhayət, burnunun ucundakı yastı nöqtə kimi yumrulanmış qara xalını tumarlayanda yuxusu qaçdı, əvvəlcə möhkəm asqırdı, həmən də dikəlib kənara sıçradı. "Bismillah" deyib gözlərini elə bərəltdi ki, sanki yumşaq əllərdən bədəninə elektrik cərəyanı ötürülmüşdü. Qızın otağın tavanını silkələyən qəhqəhələri altında özünün qıc olmuş bədəninə baxdı və adyalı tələsik qurşağına çəkib titrəməyə başladı.

- A, Vəli, qorxuzdum səni? Niyə belə əsirsən? - Saşa özünü zorla ələ almağa çalışsa da, hıçqırtılarına hakim ola bilmirdi.

- Sən… sən… burda nə gəzirsən? Nə vaxtdan burdasan?

- Dəlisən? Necə yəni burada "nə gəzirsən"? Sən gətirmisən ki məni bura. Bütün gecəni lap pələng kimi idin… yox, yox aslan kimi. Yox, pələng yaxşıdı…

- Nə danışırsan? Olmaz… ola bilməz... Get, get burdan…

- Nədi, ərimdən qorxunsan? Nahaq yerə. Onun boyuna-buxununa fikir vermə, ağciyərin biridi. Əgər onunla rinqə çıxsan, bir yumruğa sərərsən yerə. Düz sözümdü. Nə olsun köntöydü. Yaxşı da, titrəmə! Bu dəqiqə ürəyin partlayacaq. Özüm gəlmişəm bura. Eşidirsən, özüm öz ayaqlarımla. Guya sən məni bura zorla gətirə bilərdin?

Vəli Özdəmir Aleksandranın sözlərindən sonra hələ də nəyin baş verdiyini aydınlaşdırmaq üçün bir qədər də titrəyə bilərdi, bir yandan da qızın dayanmadan hırıldaması artıq əsəblərinə işləyirdi. "Mən heç nəyi xatırlamıram? Seryoja viski içirdi… Sən də yanındaydın də. Sonra Ceklə mən gəldim… sonra…", - Vəli hiss edirdi ki, nəinki baş verənləri xatırlamaq, heç bütöv cümlə qurmağa da taqəti qalmayıb. Gicgahlarını sarmış küt ağrı bütün bədənini elə süsləşdirmişdi ki, ağzını açan kimi ürəyi bulanırdı. Bir neçə dəfə gözlərini ovuşdurub bərəltsə də, çarpayısındakı çılpaq qadının ancaq ümumi siluetini seçə bildi, səsini çıxartmasaydı heç onun Saşa olduğunu da zənn etməyəcəkdi. Başı isə heç sözünə baxmadan yırğalanırdı, zərif boyunun onu saxlamağa gücü çatmırdı.

- Sonra biz qol-qola girib otelə qayıtdıq. Sonra bütün gecəni romantika…

- Yox, axı sən elə bil, nələrisə buraxdın?..

- Mən Seryojanı buraxdım, daha doğrusu, o, məni tərk etdi. Sən demə heç zaman mənim olmayıbmış. Nə isə bunlar xırdalıqlardı. Unudulmaz gecə üçün sənə təşəkkür edirəm. Borcum nə qədərdi?

- Nə? Saşa, sən nə danışırsan? - belə gedişlə artıq özünü tuta bilməyəcəkdi, mədəsindən burula-burula qalxan hərarət boğazına dayananda, adyalı belindən tullayıb vanna otağına qaçdı. Və boğula-boğula "mən kişiyəm", söyləyə bildi.

- Başa düşürəm, kişisən. Elə ona görə soruşuram nə qədər ödəməliyəm? Sağ ol, bütün gecəni mənə həsr elədin. Özün deyirdin ki, vaxt puldu. Burda

dramatikləşdiriləcək nə var ki? Adi işgüzar münasibətdi də. Hə, de də nə qədər ödəməliyəm? - özüylə danışırmış kimi çıxsa da, Saşa bu sözləri onun arxasınca tam ciddiliyi ilə deyirdi. Vəli isə tualetdə boğuq-boğuq səslər çıxarırdı. Tailanda gələndən onsuz da mədəsi pozulmuşdu, indi isə bütün vücudu titrəyirdi.

- Yığışdır bu söhbəti Saşa! Təhqirə keçmə! Lənət şeytana! Çıx get! Heç nə xatırlamıram… - Vəli özünü toparlayıb yalnız bunları deyə bildi və təzədən öyüməyə davam etdi.

- Mənimsə hər dəqiqəsi, yox-yox, hər saniyəsi yadımdadı. İstəyirsən bir-bir danışa bilərəm – qapıya çatana kimi lap gülməli idin, ayaqların bir-birinə dolaşırdı, elə küçədəcə məni yemək istəyirdin. Təsəvvür edirsən, düz küçənin ortasında! Bilirsən, sən içəndə lap məzəli olursan…

- Get burdan! Get...

- Niyə qovursan axı məni? Seryojaya görə belə edirsənsə, nahaq yerə, onunla sənsiz də bacararam.

Vanna otağından artıq əcaib səslər gəlmirdi, su kranı da bağlanmışdı. Araya çökən ani sükutda Saşaya əvvəl elə gəldi ki, Vəlini unitazın üstündə yuxu tutub, lakin o, güzgünün qabağında dayanıb özünün əzilmiş pomidora dönmüş sifətinə baxaraq hər şeyi yerli-yataqlı xatırlamağa cəhd edirdi. Hərçənd xatırlanacaq elə bir şey də yox idi, hər şey iki butulka pivədən başlamışdı, sonrakı epizodların hamısı Saşanın diktəsiylə olmuşdu, adama bir qədəh tekila, sonra yenə bir qədəh, bunların qədəhləri niyə belə balacadı, yaxşısı budu elə özümüz süzək, bunu da içək o sağlığa, bunu da o biri sağlığa, bunu da içək tay bəsimizdi. Vəlinin dəqiq yadındaydı ki, "bəsimizdi" sözünü başı incə boynunun üstündə ləngər vurmağa başlayanda özü dilə gəlib demişdi və dərhal da Saşanın məzəmmətinə tuş gəlmişdi. Qız düz onun gözlərinin içinə baxaraq "birinci dəfədi sənin kimi içən incə-mincə kişi görürəm" - deyəndə Vəlinin içindəki yatmış vulkan yerindən oyanmışdı, qızın utanmadan ona irişməsi əməllicə heysiyyətinə toxunmuşdusa da, həmin gecə bunu üzə vurmamışdı. Bundan sonra Saşanın kinayəli atmacalarına tuş gəlməmək üçün onun etdiklərini bacardığı qədər məharətlə təkrarlamaqdan başqa çarəsi qalmamışdı. Seryojanın birdən-birə onları qərib küçənin tinində təkbaşına buraxıb getməsi Vəliyə çatmamışdı, əvvəlcə nəsə iş dalınca yollandığını düşünmüşdü, lakin gecə yarısını keçəndən sonra Saşanın öz otağına qayıtmaq istəməməsini, hətta səhərədək elə otelin qabağındakı skamyada yatacağını söyləyəməsindən sonra Seryojanın arvadını qoyub qaçdığını başa düşmüşdü. "Axı niyə o, səni atıb qaçdı? Niyə axı onu vurmaq istəyirdin?" suallarını gecə boyu dəfələrlə Saşadan soruşmuşdu və qız hər dəfəsində yerli-yataqlı hər şeyi açıb danışmışdı, lakin indi onun dediklərinin heç biri Vəlinin yadına düşmürdü. İçindəki yatmış vulkan oyanandan sonra onun qığılcım oynaşan gözləri Saşanın dodaqlarında, sinəsində kilidlənib qalmışdı. "Khaosan Road"un rütubətli gecəsində qızın uzun-uzadı nə danışmasından, niyə qəzəblənib ərinin başına butulka çırpmaq istəməsindən daha çox Vəlinin başında yalnız bir fikir vardı, bunu Saşa da hiss edirdi. O, xəyanətin gözlənilməz zərbəsindən sarsılmışdı və bundan sonra hər şeyi öz bildiyi kimi edəcəkdi.

- Bilirsən, biz yataqda olanda "selfi" çəkib Seryojanın telefonuna göndərdim", - Saşanın sözlərindən sonra araya çökmüş sükutu vanna otağında Vəlinin təzədən öyüməyə başlaması pozdu, o, qusurdu, ya öskürürdü fərq etmək mümkün deyildi. Nəhayət, Vəli oğru pişik kimi başını qapıdan çıxarıb acizanə miyoltuyla "axı sən niyə belə edirsən ki, - söylədi.

- O axmaqdan həyatımın ən gözəl qisasını aldım. Ürəyimdən tikan çıxdı! Bax, belə! Bundan sonra heç nə əvvəlki kimi olmayacaq. Heç nə.

- Demək, ərindən qisas almaq üçün məndən istifadə eləmisən? Bəs, təsəvvür edirsənmi mən Seryojayla necə üz-üzə gələcəm? - Vəli hamamdan çıxan kimi dərhal şalvarını əyninə keçirib dilləndi.

- Vəli, təsəvvür edirsən biz bal ayına çıxmışıq...

- Aman Allah, doğrudan e, siz axı bal ayındasınız… Bilirsən mən...

- Sənin niyə dilin topuq vurur axı? Dedim axı mən özüm belə istəmişəm. Sən gəlməsəydin, “Khaosan Road”da kiminlə gəldi...

Mobil telefonun qəfil cingiltisi Saşanın sözünü ağzında qoydu. Vəli hələ də özünü dəhşətli yuxuda zənn etdiyindən bir müddət yerindən qımıldanmadı. Çağıran Vəlinin çarpayının yanına atılmış telefonu idi. Nömrəni görəndəysə, sifətinin özünə gəlməmiş rəngi bir az da ağardı – zəng vuran Seryoja idi. Özünü xəyanət və məhəbbətlə dolu serial qəhrəmanı kimi aparan Saşa hər şeyin ssenarisinə uyğun getməsinin məmnunluğunu yaşayırdı və qımışa-qımışa telefonu açmaq lazım gəldiyini işarə etdi. Vəlinin həmin anda hansı həyəcan yaşamasını heç çiynindəki mələklər də duya bilmədi, o, sadəcə, əlində telefon, gözləri bərəlmiş ağappaq heykələ dönmüşdü. Təyyarə qəza enişi edəndə hamı kimi o da ağlayırdı, qorxudan nitqi tutulduğundan, sadəcə, qırıq-qırıq səslər çıxardıb bağırırdı. Ayağını torpağa basandan sonra Vəliyə elə gəlmişdi ki, yenidən anadan olub və ikinci dəfə yaşamaq şansı qazandığı həyatda bir daha belə sarsıntıyla üzləşməyəcəkdi. Ölümün ağzından sıyrılaraq təzədən həyata qayıtmaq hər insanın ömründə olsa-olsa yalnız bir dəfə təsadüf edərdi, növbətisinə ürək tab gətirməzdi. Onun hələ çatlamamış, paslanıb damarları kirəcləşməmiş cavan, təcrübəsiz ürəyi köksündə guppultuyla elə döyünürdü ki, öz halından məmnun Saşanın belə ona yazığı gəldi və yerindən dikəlib “telefonu açmasan, o axmaq özü bura gələcək” - deyə qışqırdı. Vəli əmrə tabe robot kimi qeyri-ixtiyari telefonu açdı və həmən də Seryojanın spirt hopmuş səsinin alovu qulağını qarsdı: “Doroqoy, yatmısan? Cəld aşağı gəl! Duud, duud, duud…”.

Səs amiranə deyildi, nə qəzəb, nə inciklik duyulmurdu – “aşağıda ol” vəssalam, özü də həmişəki kimi “doroqoy” dedi. Aydın məsələdi, axı hər halda, o da özünə görə kişidi, Saşa razılaşsa da, razılaşmasa da, onun da özünə görə heysiyyəti, mənliyi vardı, yaxud da olmalı idi. Deməli, Seryoja, əsil kişi kimi söhbəti hamının yanında yox, ikilikdə çürütməyə qərar verib. Bir tərəfə baxanda bu, Vəlinin də ürəyindən idi, çünki bundan da pisi ola bilərdi, məsələn, ayıqlığını çoxdan itirmiş Seryoja gecə yarısı otağa hücum çəkə, qapını sındıra, onu da, arvadını da əzişdirə, eyvandan aşağı ata bilərdi. Bütün bunlar heykələ dönmüş Vəlinin beynindən qığılcım kimi keçəndə yadına düşdü ki, Cekin israrına baxmayaraq otağı ikinci mərtəbədən götürmüşdü, otelin həyəti isə təzə biçilmiş qazon olduğundan yəqin aşağı atılanda elə də ciddi xəsarət almazdı. Bəs Saşa? O, hələ də çarpayının üstündə açıq əndamını tumarlaya-tumarlaya balışa dirsəklənib gülümsünürdü və sanki Vəlinin ürəyini köksündən qoparıb yerə salan tufanın dırnaq ucu boyda belə ona dəxli yox idi.

- Qorxursan, ondan eləmi? - Saşanın naqolay sualı nəhayət, Vəlinin heykələ dönmüş vücudunu titrədə bildi.

- Mən qorxmuram, Saşa. Ondan yox, səndən qorxmaq lazımdı. Məni vura bilər, mən də bacardığım qədər müqavimət göstərərəm, amma nəyə görə, hə!? Kimin və ya nəyin uğrunda vuruşmalıyam? Günahkaram axı…

- Sən niyə? Dedim axı öz ayaqlarımla gəlmişəm. Deyə bilərsən ki, mənim günahım yoxdu, get arvadına yiyə dur…

- Bəsdir! Çıx get burdan! Açığı Seryojanın yerinə mən təəssüf edirəm. Bəli, sənin kimi arvaddan qorxmaq lazımdı. Lap yaxşısı, gərək uzaq gəzəsən", Vəli paltarını geyinərkən dişinin dibindən çıxanları qızın üzünə yağdırdıqca ürəyi boşalırdı.

Bu gün oteldə gecələmələrinin axırıncı günü olduğundan balaca çamadanını axşam "Khaosan Road"a gəzməyə çıxmamışdan qabaq hazırlamışdı. Bir gözü saata zillənmiş Vəliyə elə gəldi ki, nədənsə əqrəblər həmişəkindən daha sürətli hərəkət edir, zaman bir azdan yaşanacaq tragikomediyanı yaddaşına həkk etmək üçün bir ayağını qaçaraq qoymuşdu. Qaynar qazana dönmüş başını əlləriylə sıxaraq, otaqda var-gəl etdikdən sonra çarpayının küncündə oturdu və indi onu yalnız bir şey düşündürürdü – xəyanətə necə bəraət qazandırmalı? Hər şeyi olduğu kimi danışmaq: yəni arvadın öz ayağı ilə otağıma gəldi və mən də özümdən asılı olmadan onun istəklərini yerinə yetirdim. Hə də, neyləməliydim, kişiyəm də. Düzdü çox bayağı səslənəcək, amma hansı axmaq bu cəfəngiyata inanardı? Axı o da kişidi. Ya da ki belə variant – "Seryoja, "doroqoy", bunlar hamısı bir zarafatdı, Saşa bütün bunları səni qısqandırmaq üçün fikirləşmişdi, əslində bizim aramızda heç nə olmayıb, bütün gecəni o çarpayıda, mənsə divanda yatmışam – bu, lap səfehlik olardı, onda belə çıxacaq ki, mən kişi deyiləm. "Kişi deyiləm?" - hə, bax bu variant lap əla oldu? Deyərəm ki, mən də Cek kimi LGTB-di, nədi onun üzvüyəm, ah, keşkə cibimdə o təşkilatın üzvlük vəsiqəsi olaydı, deyərdim ki, "doroqoy" bax, bu da mənim vəsiqəm, arvadın sənə sürpriz hazırlamışdı, məndən də, sadəcə, aksesuar kimi istifadə edib, vəssalam. Tutaq ki, Seryojanı buna inandıra bildim, bəs özümü bu cütlüyün həqiqətən də ailə olduqlarına, doğrudan da bir-birlərini sevdiklərinə necə inandıra bilərəm? Bax, bunun mənə heç bir dəxli yoxdu. Vəli fikirləşdi ki, bəlkə, Seryojanın düşüncəsindəki "namus" anlayışı, türklərdəki kimi əşhədü-vacib məsələ deyil. Bəlkə, rus ailəsi haqqında türk kimi fikirləşəndə mənzərə dəhşətli görünür, rus kimi baxanda burda faciəyə çevriləcək bir şey yoxdu? "LGTB" variantı ürəyinə sərinlik gətirdiyindən Vəlinin daxili təlatümləri azacıq soyudu, nəhayət əllərini bərk-bərk sıxdığı gicgahından aralayıb başını qaldıranda qarşısında sinəsi açıq ağ paltarda parıltılı sarışın saçlarını boynunun arxasında düyünləməyə çalışan Saşanı gördü.

Lənət şeytana, o, doğrudan da gözəl idi! Dünən bürkülü gecənin qaranlığında nə əcəbsə buna fikir verməmişdi. Tailandın parlaq günəşi onun təbəssüm qarışıq mavi gözlərini, qar kimi ağ bənizini işıqlandıranda Vəli ikinci dəfə yuxudan ayılmış kimi oldu. Doğrudan da bütün gecəni dünyanın ən gözəl qadınıyla keçirib və bunun dəyərini bilməmək dünyanın ən böyük axmaqlığı deyildimi? Əgər Seryoja həqiqətən də arvadına xəyanət eləyibsə, bu günaha çox güman ki, sərxoş olanda batıb, ayıq başla belə bir səfeh iş tutmaq, sadəcə, mümkün deyildi. Saşa isə gülürdü, təbəssüm onun sifətində sübh şəfəqinin ilk parıltıları altında tumurcuqları təzəcə çırtlamış yasəmən kimiydi. "Qorxma", -tumurcuqların arasından süzülən bircə kəlmə söz Vəlinin bütün vücudunu yasəmən ətrinə qərq etdi, artıq heç kimdən qorxmadığını söyləmək istəsə də, kəlmələr boğazında kilidləndi, "o, mənim gecəni səninlə keçirdiyimi bilmir. Hə, "selfi" çəkməyə həqiqətən cəhd göstərdim, amma sənin bəxtindən telefonumun şarjı bitmişdi", - qız şeytancasına dişlərini ağardıb baxışlarını onun burnunun ucundakı girdə qara xala zilləmişdi. "Bu, anadangəlmədi?" - soruşdu.

- Hə, - Vəli utana-utana pıçıldadı, - uşaq vaxtı mənə "burnu xallı" deyirdilər. İndi də dostlarım elə çağırır. Nədi ki?

- “Burnu xallı” yaxşı ayamadı. Sənə belə desəm inciməzsən ki?

- Niyə belə edirsən, Saşa? Bəlkə, sənin ərin heç düşündüyün kimi pis oğlan deyil? Təzə ailə qurmusunuz axı, nəsə bütün bu olanlar mənə çatmır?

- Ailə?.. Sənin ailə haqqında nə təsəvvürlərin var axı? Hamını öz arşınınla ölçmə?

- Mənim heç bir arşınım yoxdu. Mən yetiməm, Saşa. Daha doğrusu, yetim kimiyəm. Atam lap körpəlikdən məni atıb Avropaya gedib. Heç xatırlaya bilmirəm onu, xatırlanacaq bir şey buraxmayıb çünki. Nənəm deyərdi ki, onun da burnunun ucunda bax belə qara xal olub. Anamsa… onun da öz həyatı var, o, kənd qızı idi, atam böyük şəhərləri, o isə kəndi sevirdi. Mən nənəmin uşağıyam, bir az qayğıma qaldı, sonra da öldü. Bax belə, görürsən, mənim heç ailə haqqında təsəvvürlərim də yoxdu ki, sənə dərs keçim.

- Təsirlidi. Deməli, sən də mənim kimi taleyin ümidinə buraxılmısan. Amma mən həm də aldadılmışam. Bu, daha ağırdı. Qadınların hamısı aldadıldığını hiss edəndə bununla barışa bilmirlər, heç barışmaq lazım da deyil.

- Saşa, bilirsən nə var, sənin kimi qıza xəyanət etmək axmaqlıqdı. Bu, mümkün deyil. Axı nəyə görə?

- Pula görə, Vəli. Bu dünyada hər şeyin öz qiyməti var, hər şey alına və satıla bilir. Bunu dünən axşam yox, təyyarəmiz qəza enişi edərkən kəşf eləmişəm. İndi Banqkokun küçələrində öz bədənini satan adamları başa düşürəm, onlara haqq da qazandırmaq mümkündü. Biri də var həyatında nə varsa hamısını satasan. Bunların ikisi də eyni şey deyil.

- Səni başa düşməyə çalışıram. Amma heç cür alınmır, incimə, mən balaca adamam, heç vaxt böyük şeylər haqqında düşünməmişəm. Bilmək istəyirsənsə, Saşa, mən heç düşünə bilmirəm. Heç cür anlamıram ki, niyə məhz məni seçdin?

- Seçdim? Sən düşünə bilmədiyin kimi mən də seçə bilmirəm, əzizim. Mənə həmişə hər şeyi hazır təklif ediblər, mən də razılaşmışam. Cek Seryojanı sürüyüb aparanda yanımda yalnız sən qalmışdın. Bunun harası seçim oldu?

Qız danışdıqca, Vəli burnuna dolmuş yasəmən ətrindən elə məst olmuşdu ki, bayaqdan bəri dörd nala çapan vaxtın indi bir az da uzanması üçün nə lazımdırsa, edərdi. Otelin dəhlizinə enməyə sayılı dəqiqələr qaldığını eyninə almasa da, Saşa artıq çıxmağa hazırlaşırdı.

- “Bəlkə bir az da söhbət edək”, kəlməsi Vəlinin boğazında elə düyünləndi ki, onu doğru-dürüst ifadə etməyə dilinin gücü çatmadı. Bayaqdan qovmaq istədiyi, nalayiq sözlərlə aşağıladığı qız yanından uzaqlaşdıqca, ruhunun tarıma çəkildiyini, nəfəsinin daraldığını hiss edirdi, elə bil, gözü görə-görə nəsə qiymətli bir əmanətini itirirdi. Əgər indi vaxtın bu qovhaqovunda həmin əmanəti əlindən buraxsaydı, həyatı başdan-başa qapqaranlıq içərisində yeri heç vaxt doldurulmayan mənasız boşluğa çevriləcəkdi. Ürəyində “Saşa, deyəsən axı sənə vurulmağa başlamışam” kəlməsini fikirləşsə də, dilindən “bəs bundan sonra nə edəcəksən” sualı çıxdı. Qız qapının kandarında dayanıb, gülümsəyərək başını buladı. Bu gülüş səhər açılandan bəri qəhqəhələri otağı başına götürmüş şıltaq təbəssümdən daha çox, göz yaşını zorla saxlayan, boğazında ilişib qalmış qəhəri ovunduran təsəlliyə bənzəyirdi. Saşa qapını açıb qırmızı xalı sərilmiş uzun, ensiz dəhlizə çıxdı. Bir neçə dəqiqədən sonra Vəli qızın qırmızı xalının üstündəki iziylə oteli birdəfəlik tərk edəcəkdi.

* * *

Turistləri Daqqadan Kolomboya aparmalı olan Boeinq-737 təyyarəsinin Banqkok aeroportunda qəza enişi etməsi səbəbinin mühərriklərindən birində yaranmış nasazlıq olduğu rəsmi olaraq deyilsə də, adamların hərəsi bunu öz bildiyi kimi yozurdu. Uilyam Kruz əvvəldən belə düşünürdü ki, onların möcüzəvi şəkildə xilas olması və təyyarənin məhz Banqkokda yerə enməsinə ilahinin qisməti kimi baxmaq lazımdır: hətta çoxlarına gülməli görünsə də, o, həmin vaxtı göyərtədəki 189 nəfərin taleyində nəsə oxşar cəhətlərin olduğu qənaətinə gəlmişdi. Onun danışdıqlarını beyin silkələnməsindən yaranmış "sayıqlama" hesab edən atası Endryu Kruz kimi Mariya da bütün uçuş boyu yanında oturub xoruldayan çarşablı şişman qadınla özü arasında nəsə oxşarlıq axtarmağın səfehlik olduğunu anlayırdı. İnsanlar eyni vaxtda, bilərəkdən ya bilməyərəkdən ölümün qarşısında öz hiss və həyəcanları ilə bir-birlərinə oxşasalar da, real həyatda onsuz da hərə öz bildiyi kimi yaşayırdı. Adam cəmi bir dəfə ölür, lakin hər gün yaşamağa məhkumdu - düşünən Mariya hər şeyi qismətə bağlayan Uilyamla höcətləşməkdən özünü zorla saxlayırdı. O, bu fikirlərini Banqkokda qaldıqları sonuncu – ikinci gecədə hamının gülərüz kimi tanıdığı Tomas əmi və Merio xalaya söyləmişdi. Həm də əlavə eləmişdi ki, sürü kimi hamını bir-birinə bənzətməyə çalışmaq həyatı mənasızlaşdırmaqdan başqa bir şey deyil. Onun ixtisasca sosial psixoloq olduğunu eşidəndə isə Tomas əmi sevinərək göy üzlü dəftərçəsini çıxarıb ona öz qeydlərini göstərmişdi. Onlara həmkar da demək olardı: Mariya insan davranışındakı anlaşılmazlığın bu gününü, Tomas əmi və Merio xala isə keçmişini öyrənirdilər. Uilyam psixoloq və tarixçilərin belə tez ortaq məxrəcə gəlib anlaşmalarından xəbərsiz idi, yoxsa bunu da adi bir təsadüfə yox, ilahinin lütfünə bağlardı. Ata Kruz isə təyyarənin niyə məhz Tailandın paytaxtına eniş etməsinə təəccüblənsə də, özünü lazımsız fikirlərlə çox da yükləmədi, hətta nəvəsinin səhər erkəndən yaxınlıqdakı parkın həndəvərində qaçmaq təklifiylə də dərhal razılaşdı. Uilyam adamayovuşmaz atasının yavaş-yavaş ipə-sapa yatmasını, hətta hardasa gülümsəməyə cəhd göstərməsini isə qismətlə yox, Banqkokun rütubəti azalmış havasının onlara düşməsiylə izah etmişdi.

Vəli Özdəmirsə çox məyus idi. Təyyarədəki ekstrim anını lentə köçürə bilməməsini heç cür özünə bağışlaya bilmirdi. Turizm şirkətinin Banqkokdan roliklər hazırlamaq təklifi alanda azacıq eyni açıldı, amma insanları ölüm anında çəkmək şansını əldən verməsini heç vaxt, heç vaxt unutmadı. "Khaosan Road"u o baş-bu başa gəzərək, dadlı tay yeməkləri barədə hazırladığı rolik sosial şəbəkələri partlatmasa da, hər halda maraqla qarşılanmışdı. Hərçənd ki, rolikində bəh-bəhlə təriflədiyi qızardılmış kakos və 80 sentlik ananas şirəsinin ardınca süddə pörtlədilib üstünə darçın səpilmiş banan yedikdən sonra səhərə kimi qarın ağrısına düşmüşdü. Növbəti süjet isə "Koasan rud"un gecə həyatına həsr olunacaqdı. Bu ideyanı ona Cek Kruz vermişdi, lakin rolikin çəkilməsi Vəlinin çox sonralar anlayacağı səbəbdən baş tutmamışdı; o, əvvəlcə Cekin "azad insan azad seksdən doğulur" əsaslandırmasına heyrətlənmiş və yol boyu ciddi-ciddi mübahisə etmişdi, sonra isə ərinin başına viski butulkası çırpmaq istəyən Saşanı sakitləşdirməyə çalışmış, səhər ayılanda isə onu öz yatağında görmüşdü.

Seryoja isə söhbət hansı mövzuda olursa-olsun hamıyla mübahisə etməyə hazır olsa da, qismət məsələsində Uilyamla yüzdə-yüz razı idi – bir qəpik də xərcləmədən Banqkokda peyda olmağın başqa izahı haqqında heç düşünmək belə istəmirdi. Elə xoşbəxt idi ki, Saşanın özünə qapanmasını, bütün günü dinib-danışmadan mısmırığını sallamasını belə, görə bilməmişdi.

Səidi isə təəccübləndirən tamam başqa şey idi; çalışdığı turizm şirkətinin xəsis meneceri yuxusuna girsə belə inanmayacağı fors-major vəziyyətlə hay-küysüz barışmışdı. Təyyarənin qəza enişi xəbərini duyar-duymaz Banqkokdakı tərəfdaşlarının əliylə şəhərin ortabab yox, məhz prestijli hotellərinin birində yerlər bron eləmişdi. Kolomboya uçuşun hava şəraitinə görə bir neçə gün yubanacağı xəbərini eşidəndə isə, "keşkə bu vaxtı menecerimizin üzünü görə biləydim", - deyə Müjdəyə zarafatla söyləmişdi. Sözün bütün mənalarında göydəndüşmə Banqkok səfəri hamı kimi onların da ürəyindən idi, vəziyyət fors-major olduğundan qrafik də buna uyğun qurulmuşdu. Daha doğrusu, heç bir qrafik yox idi, sadəcə, hamı Şri-Lankaya reysin nə vaxt açılacağını gözləyirdi.

Tomas əmi və Merio xalanın Mariyayla isinişib, demək olar ki, həmkar olduqlarını aydınlaşdırdıqları ikinci gecəyə kimi oteldə gözləməkdə olan turistlər arasında kimin üçünsə adi, kimin üçünsə mənasız və mənasız olduğu qədər də qanqaraldıcı hadisə baş verdi. Səhər yeməyinə Saşasız düşən Seryoja hardansa konyak adıyla aldığı butulkanı tək boşaltdıqdan sonra əvvəlcə Cekə "sambo"nun "tay boks"dan daha mükəmməl olduğunu sübut etməyə çalışdı, günorta yeməyində oteldən sifariş etdiyi Çin arağından içərkən Vəliyə rus vodkasının türk rakısından üstünlüyü barədə gurultulu fikirlər söylədi, axşama yaxın isə Mariyanın ürəyinə toxunacaq, Tomas əmi və Merio xalanın heç vaxt unutmayacaqları həmin qanqaraldıcı hadisə baş verdi.

- Qismət, kim düşünərdi ki, biz tayların vətənində nə vaxtsa qarşılaşa bilərik? Belə götürəndə müxtəlif adamlarıq, amma bəlkə də, müxtəlif deyilik, - otelin sərin, dəbdəbəli lojasında Uilyam viskidən bir qurtum alıb söhbətə başladı. Üzündəki ifadəsindən olduqca xoşbəxt görünən Seryoja badəni axıra kimi başına çəkib məmnunluqla ona baxırdı.

- Tamamilə razıyam, Uli, qismət gözəl şeydi.

- Şükür, nəhayət ki, kiminsə fikriylə razılaşdın, - Uilyam gülümsədi.

- Nədi, elə bilirsən mən höcət adamam? Bu, heç də elə deyil. Adamlar mənimlə razılaşsalar, mən də razı qalıram. Burda nə var ki?

- Səninlə sonsuza qədər mübahisə edərdim, amma baş qoşmaq istəmirəm Seryoja, inan Allaha, sənə baş qoşmaq dünyanın ən cəncəl işidi. Yaxşısı budu viskimizi içək.

- Bravo! Bu, başqa məsələ, sən mənə viski süz, fikir ver badəm boş qalmasın. Məgər çox şey istəyirəm. Xoşbəxt olmaq üçün özünü çox da dağa-daşa vurmaq lazım deyil, Uli, ömür qısadı., sadəcə, mənimlə hesablaş, bir də badəmi boş qoyma. Bax, görürsən nə qədər az şey istəyirəm.

- Müsibətsən, Seryoja! Sizdə hamı belə fikirləşir, yoxsa sən lap cavanlığına salmısan?

- Kimin nə fikirləşdiyi mənim heç vecimə deyil. Adam yerinə qoyulmamaq və boş bakal heç kimin xoşuna gəlməz. Hamı görməlidi ki, bax mən – Sergey İvanoviç burada oturmuşam, yəni mən burdayam. Səncə, məni görməmək olar? Yox! Sən məni görürsənmi? Deməli, hörmət eləməlisən.

- Hörməti qazanmaq lazımdır, əzizim. İnsanların səninlə razılaşması üçün gərək sənin də nəsə fikrin olsun, özü də elə fikir ki, hamı hardasa ona ehtiyac duysun, hamının nəyinəsə yarasın.

- Ay sağ ol, Uli, biz elə eyni şeydən danışırıq da. Hörmət! Sən hörmət deyəndə nəyi nəzərdə tutursan ki? Yəni nüfuz, eləmi? İnsan yalnız güclü olanda nüfuzlu olur. Mən güclüyəm, bunu nəzərə almaq lazımdı. Qurtardı getdi. Kimsə bunu görməsə, lazımdır ki, ona yerini göstərəm. Güclə hesablaşmaq lazımdı, elə fikir budu də.

- Gücün o biri üzü də qorxudu…
- Sağ ol, Uli! Bravo! Elə mən də onu demək istəyirdim, bəli, qorxu. Neyləyim axı adamlar qorxduqlarına görə hörmət edirlər? Mənim öhdəmə düşən güclü olmaqdı.
- Seryoja, qiyamətsən! Səninlə razılaşdıqca ürəyində nə varsa açıb tökürsən.
- Görürsən, mən necə səmimiyəm, Uli. Çünki çox şey istəmirəm, hə?
- Sən axı həmişə güclü ola bilməzsən? Hər şeyin necə sürətlə dəyişməsinə fikir vermək lazımdı. Biz indi bu gündən danışırıq, bəs sabah nə olacaq…
- Dayan, dayan… niyə məsələni qəlizləşdirirsən? Sabah nə olacaqsa, o da qismətdən asılıdı. Mən bu gündən danışıram. Bax, oturmuşuq üzbəüz, viski içirik, ağlımıza nə gəlsə edə bilərik, elə deyilmi? Sabahı düşünmə, Uli!
- Seryoja, sizdə hamı belə fikirləşir?
- Əşi, cəhənnəm olsun hamı! Süz görək! Bu gün, yalnız bu gün!
Tomas əmi və Merio xala otelə daxil olanda Uilyam artıq ikinci butulkanın qapağını açırdı, onları görcək əl eləyib qımışdı. Seryoja xumarlanan baxışlarını qocaların üstündə gəzdirib dodaqaltı nəsə qımıldandı. Onların foyenin iri sütunları arxasındakı qırmızı divanda əyləşdiklərini, Tomas əminin göy üzlü dəftərçəsini çıxarıb nəsə yazmağa başladığını heç biri fərq etmədi.
- Bunları görürsən, Uli? Mən heç vaxt belə qocalmaq istəməzdim, Allah eləməsin. İnsan anadan olur, yaşayır və bax beləcə mənasız yerə qocalaraq ölür. Bu həyatdırmı? Elə gəzirlər, özlərini elə aparırlar, heç elə bil yoxdurlar.
- Qocalmaq pis deyil, gərək qocala biləsən. Əvvəl elə bilirdim onlar, sadəcə, laldırlar, sən demə, həm də kar imişlər. Özlərini xoşbəxt göstərməyə çalışan bədbəxt, zavallı cütlük...
- Mən qocalmağa nifrət edirəm, bilirsən niyə? Çünki gücün qalmır, deməli, nə olacaq? Səninlə hesablaşmayacaqlar. Bəlkə də, yenə deyirəm, bəlkə də, kimlərsə hörmət edəcək, amma qorxduqları üçün yox, yazıqları gəldiyi üçün. Bax, mənim atam döyüşdə həlak olub, onun atası da müharibədə ölüb. Bir işə bax Uli, qəribədi, indi ağlıma gəldi ki, bizim nəsildə heç öz əcəliylə ölən olmayıb, heç kim də qocalmayıb. Qəribədi, nə əcəb indiyə kimi bu haqda düşünməmişəm?
- Mənim atam da müharibə iştirakçısıdı…
- Sənin atan qiyamət kişidi, Uli. Heç qabağından yemir ha. Yəqin elə bilir ki, mən ona nifrət edirəm. Amma inan ki, bu, belə deyil. Düzdü, höcətdi, amma sərt kişidi. Əgər mənim atam da qocalsaydı, eynən o cür olardı. Necə deyim sənə, bizdə beləsinə “mujik” deyirlər. Amma mən bunu sənə deyirəm, onun yanında heç vaxt etiraf etmərəm.
- Seryoja, gəl ataların şərəfinə içək…
- Bravo, Uli! Bayaqdan heç sağlıq deməmişik. Mən döyüşən ataların şərəfinə içirəm. Onlar bizi məhz beləcə görmək istəyərdilər, özləri kimi güclü, özləri kimi cəsur. Uli, bayaqdan ancaq suallar verirsən, niyə sən də öz fikrini demirsən?
- Ay səni, Seryoja, nə yaxşı yadına düşdüm? Mən bayaqdan sual vermirəm, sadəcə, ağzımdan çıxanı tamamlamağa macal vermirsən. Həm də söz danışdıq axı, heç olmasa, bugünlük səninlə mübahisə eləmək istəmirəm.
- Yəni, güc, hörmət barədə dediklərimlə razı deyilsən, eləmi? Bəs mənimlə hesablaşmaq barədə necə?
- Bilirsən, Seryoja, sən daha çox mənim atam kimisən, o da hər şeyi bax beləcə görür…
-Çünki “mujik”di.

-Mənim güc haqqında anlayışım başqa cürədi, yəni, demək olar ki, eyni fikirləşirik, amma həm də yox. Mən bankda işləyirəm. Bilirəm ki, güc puldu, müharibə isə elə keçmişdə də, indi də əlverişli biznesdi. Kimlərsə müharibədə qəhrəman olmaq üçün döyüşür, kimlərsə bundan yaxşı pul qazanır.

- Uli, sənin atan Vyetnamda pula görə döyüşürdü?

- Seryoja, bəs sənin atan Əfqanıstanda pula görə döyüşüb?

- Sayıqlama… Vətən…

- Axı ikimiz də bilirik ki, bizim vətənimiz haradı.

- Uli, sən yaxşı olar danışmayasan, yoxsa məni əsəbləşdirə bilərsən. Süz! Yaxşı sağlıq gəlir – bunu içək vətənimizin şərəfinə!

- Vətənimizin şərəfinə!

Tələsik foyedə peyda olan Mariya iri sütunların arxasındakı qırmızı divanda əyləşmiş Tomas əmi və Merio xalanı görcək gülümsünərək onlara tərəf bir-iki addım atmışdı ki, Seryojanın yarı nəvazişli, yarı ciddi səsini eşitdi "Maşa, Maşinka, bizə yaxınlaş zəhmət olmasa". Mariya bir az duruxsa da, özünü o yerə qoymadı və masaya yaxınlaşdı. "Maşinka, niyə tək gəzirsən? Kimsə xətrinə dəyməyib ki? Yox, kimsə xətrinə dəyibsə, mənə deyə bilərsən. Bax ha…".

- Sən narahat olma, xətrimə dəyən olsa özüm cavabını verərəm, - Mariya özünü bacardıqca nəzakətli göstərməyə çalışsa da alınmadı.

- Sağ ol Maşa. Bəs onda niyə təksən?

- Nə olsun? İndi sənin arvadın da otaqda təkdi, deməli, onun da xətrinə dəyiblər?

- Nə danışırsan Maşa, mən onun anasını… oy bağışla, özünü, hə lap özünü sevirəm. Biz bal ayındayıq axı.

-A, heç güman eləməzdim. Təbrik edirəm.

-Sağ ol Maşa, amma bilirsən bəzən təzə evlənənlər arasında nəsə problemlər olur, necə deyim, psixi problemlər…

-Psixoloji.

-Ay sağ ol. Mənə bax, sən hardan bilirsən?

-Çünki psixoloqam.

-Bax gördün, Uli, necə ağıllı qadındı. Ağıllı qadınlar bizim cəmiyyətdə nadir tapıntıdı, bunu yadda saxla.

-Sizin cəmiyyətdə, yəni?

-Maşa, bu nə söhbətdi axı "bizim", "sizin"? Maşinka, bizim vaxtıyla bir vətənimiz olub, təsəvvür edirsənmi, ikimizin də qırmızı, qıp-qırmızı pasportumuz var idi. Maşa, gəl bir əlli qram viski iç, bir ucunda gün çıxanda o biri tərəfində gün batan gözəl vətənimizin şərəfinə!

- Yox, əziz yoldaş, mənim vətənimin üzərində gün çıxanda hər tərəfi işıqlanır, qaranlıq yeri qalmır. Özün iç. Bilirsən, bəzən aşırı nostalgiyanı da psixoloji diaqnoz kimi qiymətləndirmək olur.

Seryoja karıxmış halda Mariyaya, Uilyama və bir də yarımçıq süzülmüş badəsinə baxdı. Bu arada ortaya pərtlik yağan lal sükut da çökə bilərdi, yaxud qadın necə gəlmişdisə eləcə də "məclisi" tərk edərdi. Lakin bunların heç biri olmadı. Seryoja nəsə demək istədi, ancaq boğazına ilişmiş hikkəsi bütöv bir fikri ifadə eldən cümlə qurmağa heç cür imkan vermədi. O, ayağa qalxıb Mariyanın biləyindən yapışdı, əlindəki badəni onun dodaqlarına yaxınlaşdırıb bağıranda Uilyam artıq təlaşla gözlərini bərəltmişdi.

- İçəcəksən, ləçər! Vətənin şərəfinə içmək istəmirsən?! Aç ağzını!

- Seryoja, lazım deyil, nə edirsən? - Uilyam onu sakitləşdirməyə cəhd göstərmək istəyərkən Mariya sərt hərəkətlə biləyini onun iri, cod barmaqları

arasından sıyıraraq özündən kənara itələdi. Seryoja müvazinətini saxlaya bilməyib arxadan onun çiyinlərindən yapışmış Uilyamla bir yerdə divana sərildi. O, bu vaxta qədər Banqkok otelinin eşitmədiyi və yəqin ki, heç vaxt da eşitməyəcəyi çoxmərtəbəli söyüşlərini elə yıxılı halda Mariyanın üzünə söylədi. Uilyam çiyinlərindən yapışmasaydı, sadəcə, yerindən təpik atmaz, eyni qəzəblə ayağa qalxıb hamının gözü qarşısında qadını yarımcan olana qədər yumruqlaya bilərdi. Amma ona uzanıqlı vəziyyətdə söyüş söymək ayağa qalxıb yumruqlarını düyünləməkdən daha çox yaraşırdı. "Sənin şərəfinə içmək istədiyin vətən artıq yoxdu, bədbəxt! O, dağılıb! Əyyaş patriot! Bir bax, nə gündəsən? Başqalarının hesabına əyyaşlıq eləmək, hər yanı murdarlamaq – budu sənin sifətin. Tfu!", - ilk dəfə üzlərindəki təbəssümün yerini qorxu almış Tomas əmi və Merio xala Mariyanın yanında dayanıb eyni qəzəblə divana sərilmiş iki əyyaşa baxırdı. Ağzı köpüklənmiş Seryojanın artıq heç nə vecinə deyildi, təsadüfən gözünə sataşan masanın altına düşmüş viski bakalını qamarlayıb onlara tərəf qolayladı. Bakal foyenin iri güzgülü sütunlarından hansınasa dəyib çiliкləndi. "Nahaq məni saxladın, Uli. O qancığa yerini göstərməliydim", - deyə hayqırsa da, Uilyamın onu dinləməyə halı qalmamışdı. O, başlarının üstünü kəsdirmiş otel mühafizəçilərinə nəsə izahat verir, üzrxahlıq edirdi. Seryoja hələ bir müddət bağırmağına davam etdi: "Vətənin şərəfinə içmək istəmir! Vətən xaini! İt qızı! "Beşinci kalon"un qancığı! İmperializmin nökəri!", - o bir neçə kəlmə də hansısa imperializmin anasına söydükdən sonra yarımçıq viski butulkasını qamarlayıb qoltuğuna vurdu. Uilyam səndələyə-səndələyə birtəhər onu təmiz havaya çıxaranda isə, artıq Banqkokun əlvan işıqları sayrışan axşam saatları başlamışdı.

"Khaosan road" Banqkokun adi küçələrindən biri də ola bilərdi; hamının hər səhər işə gedib-gəldiyi, tələsik addım səslərinin şütüyən maşınların uğultusuna qarışdığı, axşamlar fənərlərin solğun işığının düşdüyü səkilərə düzülmüş girdə masalarda insanların qəhvə içdiyi adi şəhər küçələrindən biri. Bəlkə də o da nə vaxtsa adicə küçə ömrünü yaşayıb, ya da həmişə adını eşitdiyi başqa sakit küçələrin xiffətini çəkərək, nə vaxtsa onu hüzura qovuşduracaq günəşin doğmasını arzulayıb. Dünyanın dörd bir yanına səs salmış indiki halı onun ürəyindən idimi, nə biləsən? Hər halda, insanlar onu necə görmək istəyirdilərsə, "Khaosan road" elə görsənirdi. Gecə düşər-düşməz avtomobillərin hərəkətinin yasaqlandığı küçəni qarışqa seli kimi qamarlamış adamların arasında çaşıb qalmaq olardı, amma azmaq mümkün deyildi. Kənardan anlaşılmaz xaosa oxşasa da, hər qarışının öz sahibi, öz müştərisi olan yerdə istəsən də aza bilməzsən. Dünən axşam Vəli Özdəmiri qarınağrısına salan süddə pörtlədilmiş darçınlı banan satan balacaboylu, cır səsli xala da, ananas şirəsi sıxan, qurbağa çığırtması, ilan qızartması bişirən aşpazlar da, öz bədənini hırıldayaraq "endirimli" qiymətlə istənilən yoldan keçənə təklif edən yarıçılpaq fahişələr də iş başındadı. Hər tinindən ədviyyat iyi gələn, tay ritmlərinin qulaq deşdiyi küçədə dünyanın adidən adi alveri gedir – kimsə nəsə satır, kimsə nəsə alır. Biz bilirik "fast-fud" zərərlidi, lakin bütün sanitariya qaydalarına tüpürərək məmnuniyyətlə ona pul xərcləyirik. Bizi təsadüfi intim münasibətin ağır fəsadlar verə biləcəyinə inandırmaq üçün dünyanın donorları nə qədər qrantlar xərcləyirlər, lakin biz yarıçılpaq gözəlçələrin yanından ötəndə maarifçilərin gözünün yaşına məhəl qoymuruq. Göydə ay görünən kimi "Khaosan road"da başlayan coşqunluğu London birjasında hay-küy salmaqdan boğazı qurumuş brokerlərin canfəşanlığıyla müqayisə etməmək üçün nəsə arqument fikirləşmək istəyirsən, amma baş sındırmağa dəyməz, alver hər yanda alverdir, istəyirsən bunu bahalı

kostyumda elə, istəyirsənsə elə-belə, çılpaq bədənlə. Bura bütün qadağalara bilərəkdən meydan oxuyan həyatın özüdür. Burada heç kim ikinci planda deyil, hamı öz həyatının baş rolunu oynayır. Zəncəfil, darçın, qızardılmış ət qoxuyan, tay ritmlərinə qarışmış gözəlçələrin qəhqəhəsinin ərşə qalxdığı məkana xoş gəlmisiniz! Bura insanların maskalarını çıxardığı, içlərindəki vəhşi ehtirası oyadaraq özləri kimi olmağa çalışdıqları planetin tək yerlərindəndi! Bura "Khaosan road"dur!

"Əgər azad insan azad seksdən doğulursa, onda belə çıxır ki, azad insanın anası fahişədi?" - bayaqdan Cek Kruzu dinlədikcə tükləri biz-biz olan Vəli, nəhayət ki, beynində vurnuxan qənaətini dilinə gətirdi. Banqkokun gecə həyatını çəkmək üçün kamerasını sazlasa da, yol boyu səfər yoldaşının azadlıq haqqında söylədiyi fikirlər onun azad dünya haqqında bütün düşüncələrinin altını üstünə çevirmişdi. Vəlidən fərqli olaraq, Cek beyninə hakim olmuş həyat ideologiyasını elə əsaslandırırdı ki, onun fikrincə, bütün ömrü boyu əlləşib hazırladığı azadlıq konsepsiyasına qarşı çıxmaq günaha bərabər idi. Təbii ki, onunla razılaşmamaq da olardı, amma bunun üçün Cekin təfəkküründə şübhələrə yol açan nəsə arqument söyləmək lazım idi ki, bu da Vəliyə görə iş deyildi. Biri var gurlayan meydanda çıxış edən, özünü hamının ürəyini oxuyurmuş kimi göstərən və ən əsası kütlənin nə istədiyini bilib barmağının işarəsiylə onu öz bildiyi səmtə yönləndirən hiyləgər natiq, biri də var aşağıdan yuxarı heyranlıqla ağzını açıb baxan, nə eşitdiyini fərqinə varmadan əlləri qabar olana kimi çəpik çalıb hayqıran sıradan biri. Belə götürəndə Cekin parlaq nitqi yox idi, elə adına konsepsiya dediyi də filosofların seks və azadlıq haqqında sitatlarından çırpışdırılmış gurultulu sözlərdən başqa bir şey deyildi.

"Artıq dünya hetroseksual liderlərin hökmranlığından yorulub, onu yeni məcraya salmaq, yeni düzən vermək lazımdı", - Cek yavaş-yavaş Vəlinin gözlərinin bərəlməsinə səbəb olacaq monoloquna məhz bu sözlərlə başlamışdı. Monoloq ona görə ki, Vəlinin bu vaxta kimi eşitmədiyi sözlər qulağına dəyib qayıtdıqca o, yalnız öz ürəyində donquldanırdı. Yalnız axırda cəmi bircə dənə sual verdi, vəssalam. "Başa düşürsənmi, mən Amerikanın prezidenti seçiləndə, inaqurasiya mərasimindəki çıxışımın əsas məzmununu indi səninlə bölüşürəm, Vəli. Bunu mənim yalnız ən yaxın dostlarım bilir. Əgər yeni dünyada yerini tutmaq istəyirsənsə, sən də qərar versən yaxşı olmazmı? Dəqiqləşdir, bizimləsən, yoxsa yox? Bizimlə olsan planetin simasını bir yerdə dəyişərik. Siyasi xəritələr, coğrafiyalar, milli kimliklər, nə bilim, daha nələr, nələr, hamısı artıq köhnəlib. Babamın uğrunda döyüşdüyü dəyərlər də, atamın hər şeydən çox sevdiyi pul da artıq əvvəlki kimi deyil, hamısı dəbdən düşüb. Artıq insanların əvəzindən çox şeyləri süni intellekt icra edir və vaxt gələcək ki, qərarları da o, verəcək. Bizim – insanların əvəzindən, başa düşürsənmi? Bizə yalnız sevişmək və azadlıq hissi qalır, yəni azad sevgi – bunu bizim əlimizdən almağı heç kim bacarmaz". Cek yol boyu Vəlinin çaşqın baxışlarını yerə zilləyib susmasından ruhlanaraq gələcək haqqında daha odlu-alovlu nələrsə söyləyə bilərdi, lakin birdən gələcəyin azad insanının anasını şübhə altına alan solaxay sual səsləndi. Cek hazırcavablıq göstərib yenə də öz baxışlarının siyasi-fəlsəfi tərəfləri barədə nələrsə deyə bilərdi, amma sual kifayət qədər dəqiq, bir qədər də sərt olduğundan o, taym-aut götürməyə üstünlük verdi. Əvvəlcə başını qaşıdı, sonra barmaqlarını şaqqıldatdı, əlini Vəlinin çiyninə qoyub qımışaraq dilləndi:

- Axı azad insanın anasının fahişə olub-olmamasının məsələyə nə dəxli var? İnsanın ruhu azaddırsa, bu yetər.

- Yaxşı, onda belə çıxır ki, "Khaosan road"da hər gecə nə qədər azad insanın bünövrəsi qoyulur? Bir gör nə qədər atasından xəbərsiz azad insanlar doğulacaq?

- Vəli, bilirsən problem nədədi? Sən müsəlman kimi düşünürsən. Çoxlu komplekslərin var, bax, əgər onlardan imtina etsən, bu vaxta kimi doğru hesab etdiklərinin çoxunun yalan olduğunu görərsən və ya əksinə. Yəni incimə, müsəlman kimi düşünüb gələcək qurmaq – nəsə mənə çatmır?

- Cek, demək istəyirsən ki, sənin qurmaq istədiyin dünyada müsəlmanlar olmayacaq?

- Bax, yenə də hər şeyə eyni bucaqdan yanaşırsan. Söhbət insanların yox, ideyaların idarə edilməsindən gedir. Bu gün dəbdə olan nədirsə, adamlar da onunla ayaqlaşmağa çalışır. Bunun üçün çoxlu pul xərcləyirlər, dəridən-qabıqdan çıxırlar, çünki dəbdən geri qalmaq gerilikdi, bunu ki bilirsən. Yəni söhbət yeni dünyanın yeni dəbindən gedir, biz bunu yaratmalıyıq. O ki qaldı ana söhbətinə, məncə, çox dərinə getmək lazım deyil. Bilirsən, bunlar hamısı formadı…

- Bəs birdən kimlərsə dəblə ayaqlaşmaq istəmədi, onda necə? Onda müharibələr aparıb etiraz edənlərin hamısını qırmaq lazım gələcək?

- Of Vəli! Gərək sən əvvəlcə beynindəki tarakanlardan yaxa qurtarasan. Onsuz da dünyada hardasa həmişə müharibə gedir və gedəcək də? Bizim məqsədimiz öz ideyamızı, dəbə mindirməkdi, bu, sənin başa düşəcəyin qədər bəsit bir formuldu. Dərindən fikirləşsən, əgər hamı eyni dəblə ayaqlaşarsa heç müharibələrə də gərək qalmaz.

- Bəs birdən ayaqlaşmasalar, birdən istəməsələr?

- Əgər yeni dəb kiminsə xoşuna gəlmirsə, ondan yaxşısını təklif etsin. Hə, buyur, bəlkə, daha yaxşı fikrin var?

Vəli Özdəmir, sadəcə, çiyinlərini çəkdi. Köhnə dünyaya yeni düzən verəcək ideyaları anlamaq üçün ona hələ bir müddət, bəlkə də sonsuza qədər vaxt lazım olacaqdı. Onlar artıq "Khaosan road"a yaxınlaşmışdılar. Parlaq əlvan işıqların kölgəsini bir-birinə qarışdırdığı adamlar arxayınca gəzişir, vitrinlərə baxaraq hərə öz dilində nəsə üyüdüb-tökürdü. Anlaşılmaz səslərin bir-birini batırdığı küçədə onların qulağına tanış nərilti gəldi – darısqal səkilərdə düzülmüş balaca dördkünc masalardan birinin arxasında əyləşmiş Seryoja hiddətdən gözləri bərəlmiş Saşaya baxaraq uğunub getmişdi.

"Özünü heyvan kimi apardığını təsəvvür edirsənmi? Mariyaya təpik atdığını eşidəndə utandığımdan yerə girdim. Sən Tailandın paytaxtında bağırırsan, kef edirsən, mənsə xəcalət çəkirəm. Deyəsən kim olduğunu çox tez unutmusan?", - Seryoja nə qədər içkili olsa da, Saşanın nifrətlə söylədiyi sözlərin, sərt atmacaların arxasında nələrin dayandığını yaxşı başa düşürdü, elə ona görə də susmağa üstünlük verirdi. Susurdu, ona görə yox ki, bu çəkiləsi ağır olan sözləri üzünə tərs şillə kimi vuran bal ayına çıxdığı arvadıydı, ona görə ki, qarşısında oturan ölkəsinin oğru dünyasının tanınmış simalarından birinin qızıydı. Onunla ukraynalı qadın kimi rəftar etmək; viski dolu badəni zorla dodaqlarına pərçimləmək, var-yoxunu söyüb təpik atmaq olmazdı. Seryoja üçün həmin anda vətən üstündə heç vaxt gün batmayan ucsuz-bucaqsız coğrafiya yox, hikkəsindən dil-dodağını gəmirə-gəmirə danışan bu bəstəboylu sarışın qızcığaz idi. Bəlkə də, ayrı vaxt olsaydı Saşa ərinin hansısa başqa bir qadını söyməsini çox rahatlıqla onun içkili olmasıyla izah edərdi. Amma sinəsində qəflətən baş qaldıran küt ağrılardan qıvrılarkən onun köməyinə ərindən əvvəl yetişmiş Mariyanın oteldən xeyli aralıda yerləşən aptekdən ağrıkəsici alıb qayıdanda Seryojanın məzhəkəsinin düz

ortasına düşməsini həzm edə bilmirdi. “Bağışlayın, üzr istəyirəm” sözlərinin yaralanmış ürəyə məlhəm olacaqdısa, Seryoja bunu yüz dəfə edərdi, özü də hamının gözü qabağında, lazım gəlsə, dizlərini yerə ataraq. Lakin çamurun həmişə izi qalır və o, acı xatirəyə çevrildikcə heç vaxt özünü unutdurmur.

Seryoja qorxusundan səsini içində boğmuşdu. “Kim olduğunu unutmusanmı”, sualı isə onun içkidən keyləşmiş bədənini soyuq duş kimi sızıldatdı, bütün həyatı göz qırpımında ağ-qara kino lenti kimi sürətlə geriyə - kim olduğu vaxtlara fırlanırdı. Doğrudan da kim idi o? Onun fiziki mövcudluğunu ikicə kəlməlik sadə cümləylə ifadə etmək mümkün olsaydı, belə alınardı – küçə adamı. Bütün ağıllı başların kəsilib tükəndiyi, dərrakəli beyinlərin küncə sıxışdırıldığı, məntiqlə düşünüb yaşamaq istəyənlərin lağ obyektinə çevrildiyi günlərdə lap nağıllardakı kimi başına dövlət quşu qonmuş sıradan bir küçə adamı. Dünyamızın milyonlarca şəhərləri, kəndləri var, o şəhərlərdə və kəndlərdə bir-birinə paralel, ya da kəsişən, kimlərinsə adını daşıyan və ya, sadəcə, nömrələriylə tanınan on milyonlarla küçə var. İməkləyə-iməkləyə qəddini düzəldən bəşər övladı ilk qədəmlərini atan kimi küçəyə tələsir, hələ küçələrdə doğulub-böyüyən milyonlarca insanı demirəm. Amma onların heç də hamısı küçə adamı sayılmaz, bu, tamam ayrı kateqoriyadır. Bu, elə növ adamlar dəstəsidir ki, qarışıqlıq və hay-küyün yaratdığı fürsətdən faydalanıb layiq olmadıqları zirvələrə qalxır, layiqli adamların yerlərini tutur, israrla başqalarını da özlərinə oxşatmağa səy göstərir, onlara bənzəməyənlərinsə insafsızcasına ömürlərini çürüdürlər. Küçə adamı kateqoriyasına aid olanlar yoxuşa doğru qalxan ensiz kənd yolunun tozanağını, palçığını, maşınların şütüdüyü enli prospektlərinsə tıxaclarını, basırığını sevirlər. Çünki onlar yalnız tozanaqda və ya basırıqda heç kimdə olmayan fitri istedadlarını işə salıb hamını əzib keçmək şansı qazanırlar. Küçə adamları ağıldan qorxmazlar, məntiqdən çəkinməzlər, parlaq zəkaları tezcə aldadıb yoldan çıxarar, başlarına corab hörüb barmaqlarına dolayarlar. Belə adamlarda ləyaqət olmaz, heç bunu özlərinə dərd də eləməzlər, sadəcə, ləyaqət haqqında eninə-boyuna danışmağı sevərlər. Onlar harda peyda olurlarsa olsunlar, həmişə təsadüfidirlər və bunu hamıdan yaxşı anladıqları üçün gurultulu şüarlarla əla qrimlənə bilirlər. Küçə adamlarının qorxduqları yeganə şey təzədən küçəyə qayıtmaqdı. Onlar arxalarınca kimlərin gəldiyini, kimlərin pusquda dayanıb növbə gözlədiyini yaxşı bilirlər, yenidən küçəyə qovularlarsa, özlərindən betərlərinin caynağında parça-parça olacaqlarına əmindirlər. Küçə adamları küçəyə qovulmaqdan qorxurlar! Seryoja məhz bunun üçün susmuşdu. Yırğalanan başını viski butulkasına söykəyib bəstəboy, sarışın arvadının atmacalarını udmaqdan başqa çarəsi yox idi, ola da bilməzdi.

Seryoja küçədə püxtələşmiş fiziki ömründə başına “dövlət quşu” qonduran mühüm bir sirri ürəyinin dərin yerində əbədi qıfılladığını güman edirdi. Yalnız bircə dəfə labüd ölümün qarşısında illərcə trenajor zallarında bərkitdiyi əzələləri mum kimi yumşalıb titrəyəndə, dili topuq vura-vura həmin müdhiş sirrin ucundan-qulağından nəsə anlatmışdı. “Saşa, sənin anan fahişədi, bunu bilirdin? Onun çoxlu pulu var. Amma səndən gizlədir. Bilirsən, mənə elə təkliflər eləyib ki… mən də hamısına razılaşmışam. Biz bunu gizlədirdik səndən. Onsuz da əvvəl-axır biləcəkdin… Saşa, mən səni sevirəm… mən ölmək istəmirəm atam kimi…” Göyün yeddinci qatında hamı kimi ölümün soyuq nəfəsini duyan Saşa bu sayıqlamaları ciddiyə almamışdı, heç ümumiyyətlə, Seryojanın nə danışdığına fikir də verməmişdi. “Boeinq-737”nin göyərtəsindəki 189 nəfərdən biri kimi Saşa da ölməyə hazırlaşdığından onun

üçün yanında oturan adamın atasının cangüdəni, ya anasının “boy-frendi”, ya da özünün əri olmasının heç bir anlamı yox idi. Lakin onlar ölmədilər axı. Həyat ağına-bozuna baxmadan ənənəvi sürətiylə davam etməyindəydi. Yalnız o zaman Saşanın ilk tərəddüdləri, sinəsində küt ağrıya çevrilən şübhələri də göyərməyə başladı. Təyyarə yerə endikdən, ölümün caynağından qurtulmuş adamlar sanki yenidən həyata vəsiqə aldıqdan sonra elədikləri etirafları, hətta dualarını da unutdular. İnsanlar hər gün ölmürlər, amma hər gün yaşayırlar. Uilyam Kruzun sözü olmasın, qismət, yalnız qismət.

Küçə adamının cangüdən, boy-friend, ər triadasının bütün fazalarını eyni uğurla adlayaraq ağ atın belinə atlanıb işıqlı dünyaya çıxması çoxları üçün bəlkə də, “cek-pot” udmaq kimi görünə bilər, lakin həyatda belə şeylər də olur və bunu etiraf etməmək mümkün deyil. Bəziləri üçün bu, çoxdan gündəlik həyat normasına çevrilib. Milyonlarla insan belə acı reallıqlar məngənəsində sıxılaraq beyinlərində qabar bağlamış “niyə axı” sualına bütün ömürləri boyu cavab tapmaq üçün əlləşir, amma heç vaxt kələfin ucunu tapa bilmirlər. Çünki ağıllı adamlar heç şübhəsiz, bütün çətin sualların cavabını kitablarda axtarırlar, fəqət, onları əbləh yerinə qoyan tarix küçədə yaranır. Mayasında küçə təfəkkürünün dayandığı, oğru qanunlarına yazılı sənədlərdən daha çox riayət olunduğu dünyanın alaqaranlıq labirintlərindən çıxış yolunu kitabda axtarmaq eybəcər dərəcədə sadəlövhlükdür.

Kim olduğunu unutma! Seryojanın gicgahları dəhşətli küt ağrılardan sıxılsa da, arvadının sərt xatırlatmasından sonra ömrünün bütün mənalı-mənasız anlarını dərhal yadına saldı, daha doğrusu, kim olduğunu xatırladı. Oğru dünyasının tanınmış simasının qızıyla evlənmək, inanılmaz etimad idi. Oğru öz övladını cibində bıçaq, tinlərdə siqaret tüstülədən, eynəkli qocalara, köməksiz qadınlara “xox” gələn milyonlarla küçə uşağı arasından məhz ona etibar etmişdi. O isə özünü əsil oğru kimi apararaq sahibinin qızından əvvəl arvadının da könlünü oğurlayıb, orada özünə xudmani guşə rahatlamağa müvəffəq olmuşdu. Seryoja yaxşı başa düşürdü ki, oğrunun intuisiyası nə qədər güclü olsa da, onun bu dünyadan umduğu heç də hamının zənn etdiyi kimi, pul, xəzinə, sərvət yox, yalnız sədaqətdir. Sədaqət bütün oğruların zəif yeridi. Söhbət sümük görəndə ağzının suyunu axıdıb quyruğunu bulayan köpək sədaqətindən gedir. Seryoja da köpək kimiydi, bəlkə də, ondan da betər idi. O, “Khaosan road”da çənəsinə dayaq verdiyi butulkanı fırladıb arvadının başına çırpa bilərdi, İlahi bunu etməyi necə də çox istəyirdi. Lakin “sədaqətli ər” obrazından çıxmaq ona həyatı bahasına başa gələrdi. Bəlkə də, o da nə vaxtsa maskasını dəyişmək, ya da yeni maska seçmək hüququna yiyələnəcəkdi. Lakin bunun üçün əvvəlcə sayılıb-seçilən, hörmət qazanmış oğru olmaq lazım idi. Nə dünəni, nə də sabahı haqqında fikirləşməyən və belə adamlardan uzaq gəzən Seryojanın bu basabasda yadına atası düşdü. Onun hamının gözünün içinə dik baxaraq heç bir maskasız-filansız qürurla deyə biləcəyi yeganə həqiqət üzünü görmədiyi atasının Əfqanıstanda döyüş tapşırığını yerinə yetirərkən hərbi vertolyotda həlak olması idi. Hər halda, ona belə demişdilər. Seryoja yetim qalanda çox balaca idi - böyüyəndə atası kimi əsgər olacağını düşünəcək qədər tərtəmiz və balaca. İndi isə onun arvadının məzəmmətinə sakitcə qulaq asmaqdan başqa yolu yox idi və naəlac qalıb dişlərini ağartdı.

- Hə, çox gülməlidi? - birdən-birə ərinin qımışması Saşaya bayaqdan bəri danışdığı bütün sözləri unutdurdu. Bəlkə, doğrudan da onunla danışmağın mənası yox idi? Elə hər şey bal ayındaca başa çatmalı, bu mənasız sevgi məzhəkəsinə nöqtə qoyulmalı idi? O, seçim etməkdə çətinlik çəkdiyini səhəri

günü ilk dəfə Vəli Özdəmirin yatağında etiraf edəcəkdi, amma seçməkdən əvvəl qərar vermək lazım idi, tərslikdən Saşa bunu da bacarmırdı , - burda ələ salınası adam varsa, o da sən özünsən, Sergey İvanoviç, - dedi.

- Saşa, Saşinka, nədən danışırsan? Ələ salmaq hardan çıxdı? İnan ki başım partlayır. Bilirsən, Saşinka, burda hər şey geydirmədi, görəsən, viskidən olar? Bəlkə, heç yerli-dibli bu Amerika zibilini içməyim, nə deyirsən?

- Sən dözülməzsən, Seryoja. İslaholunmazsan. Mən bayaqdan nədən danışıram? Sən həmişə yalnız qarnını fikirləşirsən. Yox, səhv elədim, sən daha çox qarnınla fikirləşirsən...

- Yaxşı, bax, indi bu dəqiqə gedib Mariyadan üzr istəyərəm. Deyərəm "Maşinka, bağışla məni. Qələt eləmişəm! Keç günahımdan! Lap istəyirsən bir dənə də üzümə şapalaq vur. Vur hə, istəsən təpik də at". Bax, elə belə də deyəcəm. Bu, sənin hirsini soyudar?

- Sən mənə xəyanət eləmisən..., - bu kəlmələr Saşanın ağzından niyə və necə çıxdısa, heç özü də anlaya bilmədi. Bəlkə də, demək istəyirdi ki, yalnız arvadlarına xəyanət eləyən kişilər belə üzrxahlıq edə bilər. Amma o, son sözünü qabaqcadan söylədi. Seryojanın içkidən keyləşmiş beynində elə bir şimşək çaxdı ki, qorxudan ayaqları titrəməyə başladı. Hərçənd ki, o, təyyarədə nə sayaqlamışdısa, trapdan enən kimi də hamısını unutmuşdu, heç Saşa da nəyisə üzə vurmamışdı. Qızın dodaqları arasından sıyrılan "xəyanət" kəlməsindən sonra ortaya mənasız sükut çökdü. Seryoja həmin bu ağır dəqiqələrdə yanan vertolyotdan xilas olmaq üçün çarpışan atasının iztirablarından betər ağrılar yaşayırdı. Gənc arvadının onun xəyanətindən xəbərdar olması vurulmuş vertolyotun içərisində yanıb külə dönməyə bərabər idi. Küçə adamları küçəyə qovulmaqdan qorxurlar. Qovulmamışdan öncə onun hansı işgəncə üsullarına "qonaq" edilməsi isə artıq oğru atanın verəcəyi qərardan asılı idi. Ən zəif yeri sədaqət olan oğruların bağışlamadığı ən böyük günah da heç şübhəsiz, xəyanət idi. Seryoja çənəsinə dayaq verdiyi butulkanı nəhayət, masanın bir küncünə qoydu. Həmin anda beynində qığılcım kimi doğan fikri arvadının üzünə demək üçün özünü toparlayıb ağzını açmaq istəyirdi ki Saşa dilləndi: "Düzünü de, Mariya ilə aranızda nə var?" Uzun sürən mənasız sükut qızın sinəsində küt ağrıya çevrilmiş şübhələrin artıq nöqtəsini qoymuşdu, lakin görünür oğru atasından keçmiş instinktlər Saşanı həlledici zərbəni endirməmişdən qabaq hələ bir az oynamağa, həqiqətlə məzələnməyə təhrik edirdi. Onun özünü lap kütbeyin yerinə qoyub ərinin Mariya ilə münasibətindən şübhələndiyini söyləməsi gözlədiyi effekti verdi. Seryoja məhz onun istədiyi nəticəyə gəlmişdi. O, artıq tam əmin idi ki, arvadı nə qədər müasir görünsə də, bütün gününü televizorun qabağında əttökən seriallara baxaraq keçirən evdar qadınlardan artıq heç nə düşünə bilməzdi, daha doğrusu, bacarmazdı da. Bir qədər əvvəl Seryojanın beynində qığılcım kimi doğan fikri isə özünü toparlayıb hər şeyi etiraf etməkdən ibarət idi – "Bağışla məni Saşa, məni sənin anan yoldan çıxartdı", - söyləyərək qaçmaq... "Khaosan road"da adamların arasında gözdən itmək və heç vaxt geriyə boylanmamaq... Elə bu an arvadı öz sərsəm versiyası ilə onun həyatını xilas etmiş oldu. Keşkə yanan vertolyotdan atasını də xilas etmək mümkün olaydı... O, yenə də gülürdü, bu dəfə lap ucadan. Hətta nəriltiyə oxşayan qəh-qəhələri bu qədər adamın arasından fərq edən Ceklə Vəli uzaqdan əl edib onlara yaxınlaşdılar.

"Ay səni, kütbeyin heyvan!", - Saşa balaca dördkünc masanın üstündəki butulkanı onun başına çırpmaq üçün yerindən sıçradı. Özünü yetirən Vəli cəldliklə qızın biləyindən tutdu, Cek ani olaraq başını geri çəkən Seryojanın

kətildən yıxılmaması üçün kürəyindən yapışdı. Saşanı özündən çıxaran ərinin onun sualına, ümumiyyətlə, heç bir cavab verməməsindən daha çox uğunub getməsiydi. Ona yaxşı bir şillə ilişdirmək üçün bir az dartınsa da, Cek hırıldamaqdan ağzı əyilmiş Seryojanın qoluna girib adamların arasında itdi. Saşa hələ də uzaqdan həyasız hayqırtıları eşitdikcə qəzəbdən titrəyirdi. Vəli onu sakitləşdirmək üçün küçə restoranından, sadəcə, su almaq istəsə də, vitrində pivə və tekila butulkalarından başqa gözünə tanış heç nə dəymədi. Hər şey pivədən başladı.

"Khaosan road" qaynayırdı, Banqkokda olduqları sonuncu gün Vəli üçün Youtube kanalının izləyicilərinə söz verdiyi küçənin gecə həyatını çəkmək üçün axırıncı fürsət idi. O, yalnız indi kamerasının sərxoş Seryojanı uzaqlaşdıran Cekdə qaldığını fərq etdi. Əslində kamera oteldən çıxıb bura gələnə kimi yeni dünya düzəni haqqında konsepsiyasını əsaslandırmağa çalışan Cekin çiynində olmuşdu. Pivələri masanın üstünə qoyub uşaqların arxasınca getmək istədiyini söyləyəndə, Saşanın ağladığını gördü. Qız bu qədər gurultunun içində yalnız onun qulaqlarının eşidə biləcəyi pıçıltıyla "məni tək qoyma" dedi. "Narahat olma, kameranı alıb tez də qayıdıram", - Vəli ağızucu mızıldınab özünü adamların arasına vurdu. Ona elə gəlmişdi ki, Ceklə Seryoja heç yana uzaqlaşmayıb, sadəcə, ala-qaranlıq tinlərin birində dayanıb onlara göz qoyurlar. Ona elə gəlmişdi… Hamının unudulmaz gecə yaşamaq üçün nəsə soraqladığı nəhəng küçədə onların heç biri gözə dəymədi. Bütün ümidini itirdiyi, məyusluqdan hətta hönkür-hönkür ağlamağa hazırlaşdığı vaxtda yad adamların arasında tanış bir cüt gözdən başqa heç nə görmədi. Bal ayına çıxmış rus gəlini ensiz səkinin üstündəki dördkünc masadan nəmli və ürkək baxışlarını ona sarı zilləmişdi. Vəlinin həmin anda planetin bütün canlıları arasında nifrət etdiyi yeganə kimsə vardısa, o da bu yazıq baxışların sahibi Saşa idi.

* * *

Tomas əmi və Merio xala hərəsi Mariyanın bir qolundan yapışıb öz otaqlarına gətirəndən sonra belə, Seryojanın bütün oteli başına götürmüş söyüşləri qulaqları dəlib keçməkdəydi. Pilləkənləri qalxanda Mariya geri qayıdıb əhlikef kişinin cavabını vermək üçün dartınsa da, qolundan yapışmış nurani qocalardan keçə bilmədi. Tomas əmi və Merio xalanın üzündə ədəbi yuva qurmuş təbəssümün yerini indi bir az nigarançılığa, bir az təlaşa bənzəyən hiss almışdı. Onlar Mariyanı bacardıqca tez bu rüsvayçı mənzərədən uzaqlaşdırmaq üçün tələsirdilər. Yaşları imkan versəydi, bəlkə də, qaçardılar, lap göydən alov yağan gecə Reyn sahilində əl-ələ tutub qaçdıqları kimi. Qocalar elə həyəcanlı idilər ki, ikinci mərtəbədə qalsalar da, hələ də pilləkənlərlə yuxarı qalxırdılar. Yalnız üçüncü qatda Mariya ayaq saxlayıb Seryojagilin qaldığı otağa tərəf gedəndə Tomas əmi səhv gəldiklərinin fərqinə vardı və onu dayandırmaq üçün qolundan dartdı. "Dərman… ağrıkəsici… Saşaya dərman almışam", - Mariya onun üçün nə qədər ağır olsa da, gülümsünərək dilləndi. Qocaların israrıyla bütün gecəni onların yanında keçirən Mariya sinəsindəki küt ağrılardan qıvrılan Saşaya dərman almaq üçün oteldən çıxdığını söyləyəndə Tomas əmi və Merio xalanın sifətindəki əbədi təbəssüm təzədən öz yerini tutdu.

Onların söhbəti bütün gecə boyu uzandı. Bu, söhbətdən daha çox Mariyanın monoloquna, qocalarınsa göy üzlü dəftərçənin səhifələrinə yazdığı sözlərdən ibarət yazılı və şifahi nitqin bir-birinə qarışmış maraqlı kombi-

nasiyasına bənzəyirdi. Dünya səyahətinə çıxmış drezdenli qocaların Babil qüllələrini tədqiq edən tarixçilər olduğunu biləndə, Mariya da özünün insanların kollektiv davranışındakı problemlər haqqında dissertasiya yazan sosial psixoloq olduğunu söylədi. Hər şey bir-birini elə tamamlayır, elə üst-üstə düşürdü ki, sanki bütün ömürləri boyu dünyanın bu qərib yerində məhz bu gecəki söhbət üçün yol gəlirmişlər.

“Adam cəmi bir dəfə ölür, lakin hər gün yaşamağa məhkumdu”, - Mariya Merio xalanın dəmlədiyi yaşıl çaydan bir qurtum içib dilləndi, - “insanı öyrənmək, onun davranışından baş açmaq çətin işdi. Təsəvvür edirsinizmi, iyirmi ildən çoxdu Kiyev Universitetində bu mövzuda mühazirələr oxuyuram. Tələbələrim elə bilir ki, mən hər şeyi bilirəm, mənimsə, demək olar ki, lap az şeylərdən başım çıxır. Amma həmişə çalışmışam ki, öyrəndiklərimin mahiyyətini anlayım. Gənclər həmişə eyni sualları verir, nəsillər dəyişir, təzə tələbələr gəlir, amma suallar dəyişmir. Nə qədər təzə adamların dilindən səslənsə də, köhnə sual elə köhnədi, cavabı da həmçinin. İndi anlayıram ki, insanı öyrənib başa çatmaq, sadəcə, mümkün deyil, amma yenə də öyrənirəm”, - parıldayan gözlərini Mariyaya zilləmiş qocalar böyük həvəslə birinci kursa qədəm qoymuş tələbələr sayaq nəfəslərini içlərinə çəkib ona qulaq kəsilmişdilər.

Tomas əmi göy dəftərçəsində tezcə nəsə qaralayıb ona tərəf uzatdı - “Maraqlı işlə məşğulsunuz”.

“Hə, hardasa maraqlı görünür. Həm də yorucu və cansıxıcı. Bəzən utanıram, bəzən də özümə yazığım gəlir. Başa düşürəm ki, faydası yoxdu, amma yenə də kitabların arasında əlləşirəm. Sanki insan qəsdən özünü sehrli qapılar arxasında gizlədib ki, ondan baş açmaq olmasın. İnsanları öyrənmək dünyanın ən lazımsız peşələrindən biridi, buna heç vaxt sosial sifariş olmayıb, heç kim bunu istəməyib. Bəlkə, heç buna lüzum yoxdu. Gec də olsa, belə qənaətə gəlmişəm, amma gecdi”, - Mariya başını yelləyib gülümsündü. O, danışdıqca tələbələr kimi qeyd aparan Tomas əmi dəftərçəsini Merio xalaya ötürdü, o da nəsə yazıb Mariyanın qarşısına qoydu.

Tomas əmi: “Tədqiqatın predmetini yox, rakursu dəyişmək olmazmı? Məsələn, insanın özünü dərk etməsinə nəzər sal. İnsanı başqa canlılardan fərqləndirən elə budu”.

Merio xala: “Ruhdan düşmə, qızım!”

“Eh, Merio xala, ruhdan düşməmək üçün əsas yoxdu, lakin ruhdan düşüb nə edə bilərəm ki?” - Mariya gülərək çiyinlərini çəkdi, - “rakurs məsələsinə gəldikdəysə, Tomas əmi, haqlısınız, amma insanın özünü dərkini nəzərdə tutursunuzsa, sizinlə razılaşa bilmərəm. Mən insanı başqa canlılarla müqayisədə xeyli müşahidə etmişəm və gəldiyim qənaətləri desəm, yəqin təəccüblənəcəksiniz. Kollektivdə insan və sürüdə heyvan – paralellik aparanda gördüm ki, heyvanların dərketməsi heç də bizdən pis inkişaf etməyib və nə qədər əcaib görünsə də, hardasa, onlar daha humanistdirlər, amma tərsinə olmalı idi, deyilmi?”

Sifətlərindəki anlaşılmaz ifadədən qocaların Mariyanın tərs sualından bir şey anlamadıqları aydınca sezilirdi. Onlar anlayırdılar, lakin insanın bir varlıq kimi belə aşağılanmasını və hətta bunun elmi müddəalarla əsaslandırılmasını başa düşməyə çətinlik çəkirdilər. Bütün ömürləri boyu əl-ələ tutub oddan-alovdan keçmiş qocalar başlarının tükü sanı soyuq sifətlər görmüşdülər, haqsızlıqlarla qarşılaşıb, ətürpədən mənzərələrin şahidinə çevrilsələr də, heç vaxt heyvanların insanlardan daha humanist keyfiyyətlərə malik olduğu qənaətinə gəlməmişdilər. Daha doğrusu, gəlmək istəməmişdilər.

“Əvvəlcədən deyim - mən sürüyə qarşıyam. Sürünün bütün formalarına nifrət edirəm. Bir alim kimi yox, insan kimi həmişə bu düşüncədə olmuşam. Sürü kimi hamını bir-birinə bənzətməyə çalışmaq həyatı mənasızlaşdırmaqdan başqa bir şey deyil”, - deyərək Mariya davam etdi, “bax, sizə qoyun-canavar-insan sürüsü üçbucağında insanın mübarizəsi və ümidləri haqqında danışa bilərəm. Qoyunlar yapıncılı çobanın dəyənəyi altında sürü kimi yaşamaqdan ona görə məmnundurlar ki, onların yumşaq tüklü dərisinin altındakı yeməli ürəklərinin dərinliyində daim məğlub olmaq instinkti gizlənib. Davamlı olaraq elliklə məğlub olmanın qorxusu bu canlı növün özünü sürüdən kənarda hiss etməsinə imkan vermir. Əbədi qorxu qarşısında daim tir-tir əsən sürü şüurlu şəkildə özünü düşünmə və digər bacarıqlarını çobana təslim edir, onun tütəyinin avazı, çomağının qalxıb-enməsi ilə həyatını qurur, güzəranını sürür. Əvvəl-axır boğazına bıçaq dirənəcəyini bilsə də, yenə də sürüdən uzaqlaşmır, çünki başının kəsilməsini yalnız özünün fərdi faciəsi və yaxud da qəzavü-qədərin qaçılmazlığı kimi başa düşür. Axı bu vaxta kimi heç bir çoban bütün sürünün başını eyni vaxtda kəsmir. Sürüdən kənarda isə həyat yoxdu, ağzıqara çoban itlərinin gözündən uzaqlaşan kimi labüd ölümlə, yəni yeməli ürəyin dərinliyində gizlənmiş qorxuyla rastlaşmaq qaçılmaz olur. Qoyunlar və canavarlar sürü halında yaşayanda nəyi necə etmək lazım gəldiyini çox gözəl bilirlər, onların arasında səssiz və incə harmoniya mövcuddur - qoyunlar başa düşürlər ki, onlar qorunmalıdır, canavarlar da bilirlər ki, onlar parçalamalıdır. Yəni “qorun” və “parçala” əmrlərini onlara xatırlatmağa ehtiyac qalmır, bu həyatdır, onun ən bayağı ritmi belədir. İnsanlar da belədir, sürüyə çevriləndə, hərəkət siqnallarını mütləq kənardan gözləyirlər, ən adi şeylər barədə birgə fikirləşmək imkanından məhrum kütlə yalnız qeyri-müəyyən dirijorun çubuğunun qalxıb-enməsinə tabe olan başını itirmiş icraçıdan başqa bir şey deyil. İnsan bir qayda olaraq ürəyində başqa şeyi tutub, dilində hamının eşitmək istədiyi şeyi deyirsə, bu, artıq sürüləşmənin ilkin simptomudur. Müasir insan artıq düşünmək istəmir – bu isə ikinci simptomdur. Tomas əmi, qəribəliyi görürsünüzmü, qoyunun əbədi ölüm mələyi sayılan canavar da sürü halında yaşayır. Siz elə bilirsiniz ki, canavarların birgəyaşayışı mükəmməldir, çünki çobana ehtiyacları yoxdur? Bu, yanlış təsəvvürdür. Bütün sürülərin çobanı var, kimisi əlində çomaq təpənin üstündə oturur, kimisi də dişlərinin qıcayıb beyinin içində. Bütün sürüləri birləşdirən bir cəhət var: bu, genetik yaddaşa işləmiş qorxudu. Hətta qorxacaq bir şey olmasa belə, onu təsəvvür etmək kifayətdir ki, istənilən canlı sürüyə çevrilsin. Fərdin ən böyük mübarizəsi özünü göstərmək, yəni insan olduğunu sübut etmək üçün atdığı ilk addımdan başlayır. Düşünmək imkanı olmayan və ya bunu bacarmayan varlığın ümidi və mübarizəsi haqqında danışmağa dəyərmi? Artıq insan bütün fərdi keyfiyyətlərini xərcləyib qurtarıb, heç kim başqasından fərqlənmək istəmir. Heç kimin fərqlənmək şansı qalmayıb. Çünki bizim zamanın adamları artıq düşünmək qabiliyyətini itirməkdədir”.

Tomas əmi əlində qələm hazır dayanmışdı və lakonik sualdan sonra ortaya çökmüş qısa pauzada tələsik dəftərçəsində nəsə yazıb Mariyaya uzatdı: “Bəs nəticə?”

“Açığı mən konkret nəticəyə gəlməyə hələ çətinlik çəkirəm. Amma söyləməkdən özümü zorla saxladığım bir qənaətim var – deyəsən, insan artıq Yer kürəsində öz missiyasını başa vurub. Deyəsən, bizim yerimizi daha mükəmməl varlıqların tutmasına hazır olmalıyıq”, - Mariya yorğunluq və təlaş yağan səsiylə pıçıldadı.

Tomas əmi: “Siz yəqin süni intellektə işarə edirsiniz. Amma onu da insan yaradır və insan da təkmilləşdirir”.

Merio xala: "Lakin süni intellektin ruhu olmur, qızım, ola da bilməz".

"Elə bir zaman gələ bilər ki, insanların yaratdıqları onu qabaqlayar və istədiyi əmrləri verərək, bizi köləyə çevirə bilər. Bəli, mən təzə heç nə danışmıram, bu, köhnə nəzəriyyədi. Amma reallaşa da bilər və biz günbəgün, bəlkə də, daha sürətlə həmin vaxta doğru yaxınlaşırıq. İnsanların böyük əksəriyyəti onların əvəzindən verilən qərarlara nəinki etiraz edir, əksinə, bundan məmnun görünür. Hər şeyin məhz belə, rahat və əlçatımlı olması hamının ürəyindəndir. Merio xala, çox düz buyurursunuz, süni intellektdə ruh olmaz, bəs ruhu olan düşüncəsiz adama nə deyirsiniz? Guya onun robotdan bir fərqi varmı?"

Bu dəfə araya içinə çaşqınlıq hopmuş sükut çökdü. Nurani qocaların sifətində təəccübdən əsər-əlamət olmasa da, nigarançılıq sezilirdi. Onların itirməyə heç nəyi qalmamışdı; başlarına od yağan gecə əl-ələ tutub var gücləriylə qaçmışdılar, keçmişlərindən, doğmalarından uzaqlaşsalar da, sonradan tarixi öyrənərək, yaddaşlarında pozulmuş doğma səhifələri qismən də olsa bərpa edə bilmişdilər. Yaşanmış günləri geriyə qaytarmaq mümkün deyilsə də, onun xatirəsini heç olmasa, bir ömür boyu uzatmaq, yaddaşın ən təmiz, ən saf guşəsində qoruyub saxlamaq imkanı həmişə olur. Müharibə görmüş qocalara insanın necə vəhşiyə çevrilməsini, amansızcasına hər şeyə qənim kəsilməsini, öz həmcinslərinin yaratdığı dəyərləri necə alt-üst etməsini sübut etməyə ehtiyac yox idi. Mariya bütün bunları yalnız nəzəri baxımdan təsəvvür edirdisə, Tomas əmi və Merio xala onları yaşamışdı. Amma… Elba sahilindəki Florensiyanın göylərindən alov yağdıran da, onları qana susamış əjdahaların caynağından xilas edən də insan idi axı.

"Bircə əlimi buraxma"- deyib ayaqları qançır olana kimi naməlum səmtə qaçan tifillər özlərini səfil paltarında bostan müqəvvasına oxşayan adamın arıq qolları arasına atanda dünya öz vicdanını ovutmaq üçün heç olmasa, iynənin ucu boyda təsəlli tapdı. Məhz həmin an hardasa çox uzaqlarda torpağın bağrını yarıb boy göstərməyə tərəddüd eldən Sakuranın doğulmasına səbəb oldu. Elba sahili alovlanır və tərslikdən həyat davam edirdi.

Bostan müqəvvası qollarının arasından sıyrılmamaları üçün tifilləri az qala sümükləri görsənən qabırğalarına sıxıb yarıdağılmış dəyirmana tərəf qaçırdı. Onlar zirzəmidə özlərinə oxşayan, özləri boyda və özləri dərddə divarın küncündə qarın-qarına dayanmış bir neçə adamçığazın da parlayan gözlərini gördülər. Onların hamısı insan olmaqdan utanan və yalnız başlarına yağan alovun gətirdiyi əzabverici ölümdən gizlənmək üçün titrəyən canlılar idi. Döyüş təyyarələrindən şəhərin başı üzərinə bombalar yağdıran cavan pilotlar əmrini yerinə yetirdikləri komandirlərinin gözündə daha da yüksəlmək üçün koordinatları bacardıqca dəqiq vurmaq uğrunda yarışa girmişdilər. Pilotlar məsafə etibarı ilə Allaha daha yaxın idilər və o yüksəklikdən aşağı baxanda alovlu atəşfəşanlıqdan savayı heç nə görmürdülər. Hamısının da bəraəti əvvəlcədən hazır idi "biz əmr icra edirik"… və sonra "al sənə medal, qüsursuz hərbi qulluğa, göstərdiyin rəşadətə, başqa sözlə, insanları yaxşı öldürdüyünə görə". Alov dilimlərinin içində qovrulan qundaqdakı körpələr məsafə etibarı ilə Allahdan aşağıda idilər, onların analarının naləsində, dağıntılar altında son nəfəsini verən insanların iniltisində çox sadə və hamının başa düşəcəyi bir arzu düyünlənmişdi: "yaşamaq istəyirik"… və sonra hardasa köhnə dəyirmanın küncündə gözləri parlayan tifillərin mükafatı olacaq həyat – "al sənə yaşamaq, əgər bundan sonra yaşa biləcəksənsə…".

Tomas əmi və Merio xala o zaman onların başına mərmiləri yağış kimi yağdıraraq tarixlərini və doğmalarını bir gecənin içində silib atan qırıcıların

Amerika təyyarələri olduğunu bilmirdilər, lakin onların həyatını xilas edən bostan müqəvvasının Drezdendə əsir saxlanılan Amerika əsgəri olduğunu elə həmin müdhiş gecədə bilmişdilər. “Bu, dəhşətdir, özümüz özümüzü öldürürük! Təsəvvür edirsinizmi, adamın doğma bombalardan gizlnəməsi necə çətindi…”, - müqəvvaya çevrilmiş əsgər titrəyə-titrəyə dodaqaltı mızıldanırdı. Onun məzlum sifətində həyat əlamətləri yalnız işıldayan gözlərində qalmışdı. İçəri batmış ovurdlarından yuxarıda qabaran iri almacıq sümüklərinin üstünü tük basmasaydı, onun sifətini başı aşağı asılmış armuda da oxşatmaq olardı. Fevralın soyuğu arıq vücudunu qılınc kimi kəssə də, viran qalmış küçələrin künc-bucağında insan harayına yetişmək üçün mücadiləsini davam etdirən bu müqəvva doğma bombaların yağışı altında əsil mələk kimi idi. Yiyəsiz dəyirmanın qaranlıq zirzəmisində əl-ələ tutub titrəyəndə də, labüd ölümə doğru getdiyi heç kimdə şübhə doğurmayan təyyarədə olanda da Tomas əmi və Merio xala artıq Yer kürəsində insanın öz missiyasını başa vurması haqqında düşünməmişdi. O dəhşətli gecədə hətta öz həyatını itirmək bahasına olursa belə, yad insanları od saçan əjdahaların caynağından qurtaran əsgər də bu haqda fikirləşə bilməzdi. Onları həmin gecə bütün ömürləri boyu nə özlərinin, nə də məşğul olacaqları tarix elminin bu vaxta kimi cavab tapa bilməyəcəyi bir sual düşündürürdü – axı Drezden niyə bombalandı? Xeyir və şərin mübarizəsi gedir – bu, köhnə söhbətdi və təbii ki, xeyrin qələbə çalması da xeyirxah insanların uydurduğu təsəlliverici sonluqdu – bu da təzə məsələ deyil. Ancaq insan! Bütün amansız mübarizələrin, qanlı savaşların qalibi də, məğlubu da, kimin üçün xeyir, kimin üçün şər olanda odu. Və qəribədir, öz missiyasının başa çatdığını düşünəndə odur…

“Bəşəriyyətin bətnində orta əsrlərdən qalmış vəhşi bir güc özünə yer eləyib. Gördüyümüz təzə nə varsa hamısını öz libasına bürüyür, xirtdəyimizdən asılıb qalır, nə udqunmaq olur, nə tüpürmək”, - Mariya sonsuzluğa danışırmış kimi davam etdi. “Bax, bu qüvvə ayaqlarımıza qandallanmış bir cüt qara daş kimi bizi daim geriyə, özü gəldiyi səmtə sarı sürükləyir, nə qədər çırpınsaq da, əlimizi uzatsaq da XXI əsrə çatmır ki çatmır. Dünyanın heç də hər yerinə XXI əsr gəlməyib, ona hələ çox var. Tarixin seçim anı yaxınlaşanda isə, babalarımızın üç yüz il, beş yüz il bundan qabaq elədiyini təkrarlayırıq - yəni heç nə etmirik… Yəqin tez-tez eşidərsiniz – deyirlər “tarix təkrarlanır”. Tarix təkrarlanmır, Tomas əmi, biz səhvlərimizi təkrarlayırıq”.

Tomas əmi buğlanan yaşıl çayından bir qurtum alıb bayaqdan bəri dayanmadan qeyd götürdüyü dəftərçəsini Merio xalaya uzatdı. Qadın ərinin qeydlərinə baxıb gülümsündü və tezcə nəsə qaralayıb dəftəri Mariyaya ötürdü. Bayaqdan fikir ümmanının burulğanında yelkənli qayıq kimi sahilə çatmaq üçün əlləşən Mariya qeydlərə baxanda heyrətdən donub qaldı – o, alovlu polemikaya gətirib çıxaracaq suallar əvəzinə qarşısında təzəcə çiçəkləməyə başlayan ağac şəklini gördü. Şəklin aşağısında bayaq Merio xalanın yazdığı beşcə kəlmə söz vardı: “uğur”, “oyanış”, “gümrahlıq”, “sevinc” və “sülh”. Mariya bayaqdan bəri danışdıqları və hər kəlməsindən məyusluq yağan qənaətləriylə qocaların bahara işarə edən çiçəklənmiş ağac şəkli arasında heç bir səbəb-nəticə əlaqəsi tapa bilmədi. Universitetdə də özünü mühazirə dinləyirmiş kimi göstərən tələbələr bəzən olurdu ki, qeyd götürmək əvəzinə şəkillər çəkərdilər, amma Mariya bunların heç birini onların üzünə vurmaz, ciddiliyini pozmadan dərsinə davam edərdi. Lakin, indi onun qarşısında həyatın dadını çıxatmaq istəyən tələbələr yox, ömrünün qürubunu yaşayan Babil qüllələrini öyrənən tarixçilər oturmuşdular. Qürub çağında - günəşin son közərtisinin üfüqdə itməsini seyr edərkən belə, bahar haqqında düşünmək yalnız insana

xas qəribəliklərdən sayıla bilərdi. Merio xala çoxdan yır-yığış etdiyi səfər çantasından axtarıb tapdığı medalyonu ona göstərəndə isə Mariyanın təbəssümü sifətində donub qaldı. Dördkünc miniatür kitaba bənzəyən, qızılı suya salınmış medalyonun üstündə Tomas əminin çəkdiyi ağacın – bəxtəvərcəsinə qollarını yana açıb gərilmiş Sakuranın əksi var idi. O qədər canlı idi ki, hətta balaca medalyondan belə, onun ətrini duymaq olardı. Arxa tərəfində isə Merio xalanın dəftərçəyə yazdığı beşcə kəlmə söz həkk olunmuşdu – "uğur", "oyanış", "gümrahlıq", "sevinc" və "sülh". Mariya bütün bu əlamətlərin nə demək olduğunu anlamaq üçün hələ bir müddət gözləməli olacaqdı. Tomas əmi ona nəsə izah etmək üçün qələmini götürüb yazmağa başlayanda gözlənilmədən qapı döyüldü. Saat üçə on dəqiqə qalmışı göstərirdi.

Gecənin bu saatında otel xidmətçilərinin əgər fövqəladə nəsə baş verməmişdisə, qapını döyməsi ağlabatan deyildi. Tomas əmi qapını açar-açmaz otağı bürüyən spirt iyindən çağırılmamış qonağın özünü təqdim etməsinə ehtiyac qalmadı – Seryoja başını aşağı sallayıb kandarda dayanmışdı, o, yalnız sözlərini deyib geriyə çevriləndə, arxasınca Cek Kruzun arıq kölgəsinin süründüyünü gördü.

"Maşinka burdadırmı?" - dodaqaltı pıçıldadı. Həyatın hər üzünə bələd olduğundan sifətində əbədi yuva qurmuş təbəssümü əsla dəyişməyən Tomas əminin belə heyrətdən ya qəzəbdən əlləri titrəməyə başladı və həmin anda ona elə gəldi ki, qarşısında dayanmış kimdirsə indicə onun üstünə atılmağa hazırlaşır. O isə yırğalanırdı, bəlkə də, kürəyini söykədiyi Cek Kruzun arıq çiyinləri olmasaydı, heç öz ayaqları üstündə belə, dayana bilməyəcəkdi. Tomasın titrəyən əlindən yapışan Merio xala isə "Maşinka" sözünü eşidəndə zavallının arvadını axtardığını zənn etdi. Lakin qocaların qarşısına keçib Seryoja ilə az qala burun-buruna dayanan Mariyanın "burdayam", söyləməsindən sonra məsələnin nə yerdə olduğunu anladı.

- Maşa, Maş… mən çox pisəm. Bağışla... Hamısı geydirmə Amerika viskisinə görə oldu. Maşa, viski heç yaxşı deyil. Zibildi. Heç vaxt içmə. Adamı dəli edir. Nə deyirsən, bağışlayırsanmı? - Seryojanın üzr istəməyi də qəribəydi, sanki dodağının altında öz-özüylə danışırdı və peşmançılığını, ya utandığını pərdələmək üçün başını qaldırmırdı.

- Nə bağışlayım? - Mariya məzəmmət edirmiş kimi dilləndi – "indi hardan tapım sənə əsil irland viskini?

- Yox, Maşinka, nə viski? Unut getsin. Unut, xahiş edirəm.

- Yaxşı, unutdum, - Mariyanın sakit danışığı və artıq-əskik heç nə demədən qanqaraldıcı hadisəni unutduğunu söyləməsi Tomas əmi və Merio xalaya, qaranlıqda heç silueti də görünməyən Cek Kruza nə qədər qəribə gəlsə də, Seryojanı daha da ürəkləndirdi. O, bu dəfə başını yuxarı qaldırıb Mariyanın gözlərinin içinə baxaraq növbəti xahişini etdi.

- Onda onu da başa sal. Saşanı… Başa sal ki, mən heyvanam, ancaq səninlə mənim aramda heç nə yoxdu, - dilləndi.

- Yaxşı, başa salaram. Deyərəm ki, belə lazımsız şeylərə görə başını ağrıtmasın. Deyərəm, ağlını başına yığsın. Bizim aramızda heç nə yoxdu və olmasını təsəvvür eləmək səfehlikdi, - Mariya yarızarafat, yarıciddi dilləndi.

- Ay sağ ol! Hə, bax belə də de, Maşa. Unutdun, eləmi?

- Unutdum!

- Sağ ol.

- Yaxşı yol.

Seryoja gəldiyi kimi də uzun dəhlizin qaranlığında gözdən itdi. Yalnız arxasınca Cek Kruzun arıq kölgəsi sürünürdü. Mariya yarımçıq qalmış

mühazirəsini məmnuniyyətlə davam etdirmək istəyirdi. Elə Tomas əmi də bayaqdan əlamətlərlə başa salmağa çalışdıqlarını nəhayət, dəftərçəsinə yazıb ona anlatmaq üçün səbirsizlənirdi. Lakin dan yerinin sökülməsinə bir şey qalmamışdı. Sabahkı uzun yolçuluq ərəfəsində Mariya yaşlı dostlarını çox yormamaq üçün otağına getmək istədi. Gedərkən Merio xala bayaq göstərdiyi qızılı suya salınmış medalyonu onun ovcuna basdı və iki daşın arasında imkan tapıb dəftərçəyə yazdığı "hədiyyə" sözünü ona göstərdi. O, öz böyük ürəkləri və tükənmiş fiziki gücləriylə onu qorumağa çalışan qocaları bağrına basaraq sağollaşdı. Hər şey arxada qalmışdı və bundan sonrakı saatı yalnız rahat uyumaq qalırdı, lakin…

Banqkokdakı sonuncu gecə heç birinin gözünə yuxu getmədi; Tomas əmi və Merio xala, eləcə də Cek Kruz unutmaqla bağışlamaq arasındakı əlaqəni, daha doğrusu, bu kəlmələrin doğrudanmı eyni məna verdiyini anlamaq üçün xeyli səy göstərdilər. Və heç nə anlamadılar … Bunu yalnız bir ucunda gün çıxanda o biri ucunda gün batan keçmiş ölkənin keçmiş vətəndaşları anlaya bilərdilər. Ən ağır cinayətləri, ən iyrənc əməlləri unutdurmaqla hər şeyin arxada qaldığını zənn etmək və bunu kütləyə aşılamaqla qırmızı yalanlara haqq qazandırmaq bu dünyada yalnız keçmiş sovet vətəndaşlarının yaşadığı tale idi. Lakin heç kim və heç nə unudulmur - sovet insanına bunu da orta məktəb kitablarından əzbərlətmişdilər.

Günəşin doğmasına az qalırdı...

* * *

- Başa düşürsünüzmü, sizin saatlarınız səhv işləyir. Vaxta uduzursunuz, aydındırmı? Bu, lənətə gəlmiş saatları kimsə düzəldəcək, ya yox, - resepşına düşən kimi Endryu Kruzun səsi aləmi başına götürmüşdü. Qolundakı saatla divarda müxtəlif şəhərlərin vaxtını göstərən saatlar arasında ciddi fərq olduğunu görən kimi özündən çıxmışdı.

- Axı burda niyə heç kim vaxta fikir vermir? - Endryu gözüylə etirazını bildirmək üçün adam axtararkən Tomas əmi və Merio xalanın aşağı düşdüyünü gördü. Onlardan vaxtı soruşanda məlum oldu ki, üzügülər qocalar heç vaxt saat taxmırlarmış. "Əcəb adamlarsınız", - Endruyu istehzayla dilləndi, "dünyanı gəzib-dolanırsınız, amma qolunuzda saat yoxdu. Hətta lazımınız olmasa belə, yanınızda saat gəzdirməyiniz məsləhətdi. Vaxtla zarafat eləmək olmaz. Özü də bu yaşda".

Seryoja otelin qapısından içəri özünü atanda istər-istəməz hamının gülməyi tutdu, hətta Endryu Kruzun da sifətində gülüşə bənzər nəsə cizgilər gəzişdi. O, ortasından yapışdığı elə təxminən özü boyda olan oyuncaq ayı ilə içəri daxil olarkən kandarda ayağı büdrədi və üzü üstə yerə sərildi. Qucağında tutduğu iri yumşaq oyuncaq olmasaydı, heç şübhəsiz, xəsarət də alacaqdı. Onun arxasınca çiynində Vəli Özdəmirin kamerası Çek Kruzun pıqqıltısı eşidildi, "neylədin? Kadr korlandı. Dur ayağa, təzədən! Dayan, yaxşısı budu içəri əvvəlcə mən keçim"- dedi. Seryoja bacardıqca "rejissor"un bütün işarələrinə əməl eləyən aktyorlar sayaq heç nə olmamış kimi yerindən qalxdı, "ayı"sını qucaqlayıb bayıra çıxdı. İndi o, növbəti "dubl"a hazır idi. Cek əlini aşağı endirən kimi yenidən otelin qapısını açaraq, bu dəfə ehtiyatla içəri keçdi. Əvvəlcədən danışdıqları kimi iri oyuncağı kameranın obyektivinə yaxınlaşdırıb bir müddət beləcə də dayandı. Bəli, ikinci "dubl"dan hər şey planlaşdırılmış kimi alındı. Cek "OK" deyib kameranı söndürdü. İndi onların hər ikisinin həyəcanlı baxışları pilləkənə dikilib qalmışdı. Baba Kruza

nəvəsinin elə bil onu görməməsi, görmüşdüsə belə, nədən əhəmiyyət verməməsindən daha çox Seryojanın Cekin göstərişlərinə dinməz-söyləməz əməl eləməsi çatmadı. “Ayı”sını otelin iri sütunu arxasında gizlədəndən sonra Seryoja sanki Cekə yalvarırmış kimi soruşdu, “bəs indi nə edim?”. “Zəng elə, onsuz da bir azdan aşağı düşməlidi”, - Cek gözünü pilləkəndən çəkməyərək cavab verdi. Xəttin o başındakı adam telefonu gec açdığından Seryoja pəncələrini yerə döyəcləyə-döyəcləyə dizini yumruqlayırdı. Nəhayət telefona cavab verən tapıldı. O, qarşı tərəfin heç “alo” deməsini də gözləmədən “doroqoy, yatmısan? Cəld aşağı gəl!”, - söyləyərək “NO” düyməsini basdı. Ceklə bir-birlərinə göz vurub gülüşdülər. Onlar elə həyəcanlı idilər ki, çiynində ağır yol çantaları liftdən çıxan Uilyamı da fərq etmədilər.

- Bu nə komediyadır? - Endru oğlunu görən kimi dilləndi.

- Gənclər yəqin nəsə planlaşdırıblar. Fikir vermə, ata.

- Onların nə elədiyi eynimə deyil. Saatlar yenə düz işləmir, axı dünən bu kütbeyinlərə tapşırmışdım ki, məni özümdən çıxarmasınlar. Buna bir əncam çəksinlər!

- Ata, yenə köhnə söhbət? Axı dünən heç bunu demirdin?

- Demirdim? Mən tələb edirdim! Mənə bax, vaxtdan dala qalmanın nə boyda qəbahət olduğunu onlara başa sal.

Uilyam artıq heç nə söyləmədi. Təcrübədən bilirdi ki, belə vəziyyətlərdə nəsə deməyin heç bir mənası yoxdu. O, resepşının qarşısında bir az dayandıqdan sonra gülərək ona yaxınlaşan mühafizəçiyə saatların səhv işlədiyini söylədi. Uilyam dünən axşam Seryojanın qaldırdığı mərəkədə ciliklənmiş viski bakalını təmizləyib ortalığı sahmana salmaq üçün məhz bu mühafizəçinin cibinə iyirmi dollar qoyduğunu xatırlamadı. Mühafizəçi onun axmaq sualından karıxmış kimi bir divardan asılmış saatlara, bir də Uilyamın pörtmüş sifətinə baxdı və başını yırğaladı. Yəni bu mümkün deyil, yaxud da “siz səhv edirsiniz”. “Bilirsən, - oğul Kruz nəsə təklif edəcəkmiş kimi onun qoluna girib kənara çəkdi, - atamın xasiyyəti tünddü, tutduğunu buraxan deyil. Yəni heç olmasa, Nyu-York vaxtını göstərən saatı düzəldə bilərsinizmi?” - soruşdu. Mühafizəçi bu dəfə kinayəsi açıq sezilən kobud ingilis ləhcəsində “sən bilirsən Tailand sözünü mənasını”, - sual etdi. Uilyam eşitdiyi qəribə sualdan tutuldu və, sadəcə, başını yelləməklə kifayətləndi. “Öyrənərsən, pis olmaz. Biz kiminsə diktəsiylə vaxtımızı dəyişmirik”, - mühafizəçi sərt və amiranə səslə sözlərini deyəndən sonra oradan uzaqlaşdı və az keçməmiş nə fikirləşdisə geriyə qayıtdı. Eləcə yerində donub qalmış oğul Kruzun üzünə sonuncu dəfə qımışaraq “amma bir variant mümkündür”, - söylədi. “İstəsəniz, Nyu-York vaxtını müvəqqəti satın ala bilərsiniz”, - deyərək barmağını qoşalayıb yellədi. “İki yüz?” - Uilyamın gözləri az qala hədəqəsindən çıxacaqdı. “Yox, biz insafsız deyilik, iyirmi də bəs edər”. Üstündə ən aşağı nağd pulun yalnız əlli dollarlıq olduğunu söyləyən kimi mühafizəçi dərhal cibindən çıxardığı bir dəst dolların arasından pulun xırdasını qaytardı. Uğurlu sövdələşmədən sonra mühafizəçi resepşının arxasına keçib Nyu-York vaxtını göstərən saatı divardan çıxarıb yerə qoydu. Ata Kruz isə oteldən çıxana kimi divardakı dəyişikliyə fikir vermədi, indi onu nəvəsinin dikbaş Seryojanı muma çevirməyə necə müyəssər olması maraqlandırırdı.

“Onun könlünü almasam qanım getdi. Başa düşürsən, Cek, mənimki bura qədərmiş. Nəsə eləmək lazımdı!”, - butulkanı başında sındırmaq istəyən Saşanın hiddətindən qorxaraq “Khaosan road”da adamların arasında tezbazar gözdən itən Seryoja pişik kimi miyoldayırdı. Kənardan baxana elə gələ bilərdi ki, Cek yekəpər kişinin qolundan yapışıb zorla harasa sürütləyir,

əslində bunların hamısı bəhanə idi, Seryoja özü dabanına tüpürüb qaçmaq üçün fürsət gəzirdi. Onun əlindən zəncir gəmirən Saşanın hirsini soyutmaq üçün nəsə fikirləşmək lazım idi. Seryoja istəmirdi ki, bal ayının elə əvvəlindən onun haqqında qayınatasının qulağına lazımsız sözlər çatsın. Nə qədər kefli olsa da, özünə haqq qazandırmaq üçün kifayət qədər ciddi arqumenti var idi, çünki törətmədiyi əmələ görə günahlandırılırdı. Xəyanət böyük sözdü. O qədər böyükdür ki, onun bədəlini ödəmək üçün insanlar bəzən həyatlarını verirlər. İş orasındadır ki, Saşa onu həqiqi xəyanətinə görə yox, öz xəstə müşahidələrinə əsaslanaraq, işləmədiyi günaha görə ittiham edirdi. Deməli, Seryoja haqlı idi və elə buna görə də özünü hardasa güclü tərəf kimi aparmağa çalışırdı. Amma istənilən halda arvadının könlünü almaq üçün mütləq nəsə eləmək lazım idi. Amma nə?

- Nə bilim nə, Seryoja? Bayaqdan elə üstüörtülü danışırsan ki, elə bil, tapmaca deyirsən. Axı sizin aranızda birdən-birə nə baş verdi ki? - Cek “Khaosan road”un qaranlıq tinlərinin birində daldalanmış Seryojadan soruşdu.

- Kütbeyinə elə gəlir ki, ona xəyanət eləmişəm, - başqaları eşitməsin deyə dodaqaltı pıçıldadı.

- Xəyanət? Əcəb də eləmisən!

- Başın xarab olub, dedim axı, Cek, ona elə gəlir.

- Seryoja, onda niyə gizlənirsən? Axı sən haqlısan? Gəl bu dəqiqə gedək yanına, de ki, nahaq mənim haqqımda belə fikirləşirsən.

- Çox ağıllısan, balaca. Demək istəyirdim də, görmədin az qaldı butulkanı başımda sındırsın.

- Onda nəsə bir şey al. Biz ki, “Khaosan road”dayıq. İstəsən pəncərəsinin qabağında serenada oxuya bilərsən. Hə, necə fikirdi? Ya da, bütün yataq otağına qədər hər yeri qızıl güllə bəzə. Yox, bu, alınmaz, axı biz oteldəyik. Bilirsən, ən yaxşısı nəsə almaqdı. Onun ən çox sevdiyi şey nədi?

- Başın işləyir ha! Afərin sənə, - Seryoja Cekin nəsə almaq təklifiylə göydə razılaşsa da, arvadının ən çox nədən xoşunun gəlməsi məsələsində əməllicə ilişmişdi. Xatırladı ki, ildırım sürətiylə tanış olub ailə qurduqları qısa vaxtda heç vaxt bu haqda kəlmə də kəsməmişdilər və “8 mart”da isə ona qayınanasının xoşladığı ətri hədiyyə etmişdi. Elə Saşa da Seryojanın ürəyindən keçənlərdən xəbərsiz idi, hətta bir dəfə alış-verişə çıxanda ona atasının ölçüsündə, atasının sevdiyi rəngdə köynək almışdı. Seryojanın qaşlarını çatıb fikrə getdiyini görcək Cekin ağlına ilk gələn sözü dilinə gətirdi:

- Mənə bax, pulun azdısa, mənim kartımdan çəkə bilərsən.

- Söhbət təkcə pulda deyil”, - Seryoja nəhayət özünə gəlib dişlərini ağartdı – “nəsə almaqda tərəddüd edirəm. Hər halda, nəsə gərək yumşaq şey olsun ki, başıma çırpmaq istəyəndə ağrıtmasın.

- Seryoja, doğrudan arvadının nədən xoşu gəldiyini bilmirsən? Onda özün istəyən nəsə al. Məsələn, sən ən çox nəyi xoşlayırsan?

- Ayını, - Cekin birdən-birə gözlərinin bərəldiyini görən Seryoja eynən onun kimi gözlərini ağardaraq – “diri yox, oyuncaq ayı. Həmişə istəmişəm ki, ağappaq, qəşəng bir ayım olsun. Düzdü, anam söz verirdi, axırda dedi ki, atan qayıdanda alacaq. O isə... Hə ayı alacam! Hardan ayı tapa bilərik?

Cek onunla söhbət eləyən ayı boyda adamın arzusunun kiçikliyinə heyrətlənsə də, bunu üzə vurmadı. O, əslində Seryoja ilə söhbət etmək üçün yaxşı mövzu tapmışdı - xəyanət. Özlüyündə ona verəcəyi sualları da sıralamışdı; “doğrudanmı arvadına xəyanət etmisən”, “və ya nə vaxtsa xəyanət eləmək istərdinmi”, “qadınlar daha çox xəyanətə meyillidi, yoxsa kişilər”. Cekin bütün bu sualları verməkdə məqsədi eşidəcəyi bayağı cavab-

lardan daha çox Seryojanı söhbətə çəkmək, onun beyninin dərin qatlarını qurdalamaq idi. Və bütün bunların ardından azad insan və yeni dünya düzəninin trendləri haqqında Vəli Özdəmirə söylədiklərini onunla da bölüşmək niyyətindəydi. Lakin… O, baxışlarını "Khaosan road"un yan-yörəsindəki mağazaların vitrinlərindən ayırmadan addımlarını yeyinlədən Seryojaya, küçə boyu bədənlərini münasib qiymətə və istənilən valyutaya kimə gəldi təklif edən gözəlçələrə baxaraq düşünürdü ki, bütün bunlar yeni dünyaya köhnə dünyadan miras qalmış əmtəədən başqa bir şey deyil. Onları idarə etməkdən ötrü hər gün nələrsə fikirləşmək, nələrsə diktə etmək lazım gələcəkdi.

Bütün küçəni ələk-vələk etsələr də, axtardıqları "ayı"nı qaldıqları otelin lap yaxınlığındakı mağazanın vitrinində gördülər. Mağaza bağlı idi və qapıya vurulmuş balaca lövhədə onun sabah sübhdən açılacağı yazılmışdı. Deməli, aeroporta gedənə kimi Seryojanın hələ özünü bağışlatması üçün şansı qalırdı. Hava yavaş-yavaş işıqlandığından ikisi də elə otelin foyesindəki divanların üstündə mürgü vurdular. Cekin başına dostunun ürəyindən xəbər verən elə bir parlaq ideya gəldi ki, hətta eşidəndə Seryojanın yorğun sifəti birdən-birə işıqlandı. O, çiyninə asdığı Vəlinin kamerasını işə salıb hədiyyənin Saşaya təqdim edilməsi anını lentə almağı, yaxşı bir rolik hazırlamağı təklif etdi. Rolikin adı da işıq sürətiylə beyninə girdi – "Banqkokda sevgi etirafı". Cek bunu eşidəndə Vəlinin gözlərinin necə alışıb-yanacağını təsəvvür edirdi. "Khaosan Road"un gecə həyatını çəkmək ona müyəssər olmasa da, hər halda, təzə ideya məyusluğu ört-basdır etmək üçün yaxşı variant idi. Cekin dahiliyinə əmin olduqdan sonra Seryoja onu "ideya çəlləyi" hesab edirdi və elə onun təhrikiylə də Vəliyə zəng eləyib "doroqoy, yatmısan? Cəld aşağı gəl!", - söyləmişdi. İndi onlar qulaqlarını şəkləyib dayanmışdılar və pilləkəndə bir qaraltı görər-görməz irəli şığımağa hazır idilər.

Əvvəlcə Mariya göründü; çamadanını bir küncdə rahatlayanda gözü Seryojanın qucağındakı ayıya sataşdı, gülümsəyərək ona göz vurdu, zavallı Seryoja xala xətrin qalmasın dişlərini ağartdı. Qadının bu jestindən sonra onun hər şeyi unutduğuna tam arxayınlaşmışdı. İndi yalnız Saşanın könlünü almaq qalırdı. Mariya Tomas əmi və Merio xalanın ona bağışladığı medalyonu taxmışdı, lakin qocaların sifətində həmişə daimi təbəssüm olduğundan bu jestin onların nə dərəcədə xoşuna gəlməsini aydınlaşdıra bilmədi. Vəli Özdəmir birinci mərtəbəyə enənə kimi təzəcə düşünməyin dadına baxan beynində sevgi və tarakanlar arasında mövqe savaşı başlamaq üzrəydi. Aşağıdan gələn "Ura!", "Yes!" qarışıq hayqırtı sədaları hələ ki, təzəcə qızışmağa başlayan "savaşı" yarıda kəsdi. Vəli, sadəcə, heyrətdən donub qalmışdı. Onun gözünün qabağında heç yuxusunda da görə bilməyəcəyi mənzərə var idi.

Cek Kruzun ssenari müəllifliyi, rejissorluğu, prodüserliyi və operatorluğu ilə "Banqkokda sevgi etirafı" roliki gözləniləndən də uğurlu alındı. Saşa pilləkəndə görünən kimi "ağ ayı"nın arxasında gizlənmiş Seryoja irəli çıxıb diz üstə çökdü və nədənsə ingiliscə "I love you, my baby", - deyə qışqırdı, sonra hardansa Frenk Senatranın eyni adlı mahnısının nəqarət hissəsi guruldadı. Cek bunu romantikanın barıtını bir az da artırmaq üçün düşünmüşdü. Mənzərəni seyr edənlərdən kimlərsə kövrəlmiş, kimlərsə "vau" deyərək gözlərini bərəltmiş, bəzi diribaşlarsa bu qeyri-adi sərgüzəşti qaçırmamaq üçün onu telefona çəkmişdilər. Adamlara təbii olaraq elə gəlmişdi ki, cavan əcnəbi turist uzun yol qət eləyərək, məhz bu ecazkar Şərq ölkəsinə sevgi etirafında bulunmaq üçün gəlibmiş. Bircə dünən axşam sındırılmış viski bakalının qırıqlarını təmizləyən, bir az əvvəl isə "Nyu-York" vaxtını iyirmi dollara Uilyama

satan qarabuğdayı mühafizəçi başını bulayırdı. O, tur iştirakçılarının ayaq üstə Seryojanın jestini alqışladığını, hətta Mariyanın lap ucadan “Ura!”, “Yes!”, - deyərək qışqırmasını görəndə təəccübdən ağzının bir balaca əyildiyini də hiss elədi. Saşa əməlli-başlı karıxmışdı. Hətta özünü elə itirmişdi ki, birinci “ayı”ının burnundan öpdü, əgər Seryoja vaxtında ayağa qalxmasaydı, az qalmışdı ki, oyuncağı qucaqlasın.

Çəkilişi yekunlaşdıran kimi Cek özünü pillələrin başında ayaqları yerə kilidlənmiş Vəlinin üstünə atdı. “Alındı! Super! Adını da fikirləşmişəm – “Banqkokda sevgi etirafı”. Necədi?”. “Axı onlar…” - Vəlinin dodağından çıxacaq kəlməni havada tutan Cek tələsik dilləndi: “Nə dəxli var axı! Onlar ki, Ancelina Coli ilə Bred Pitt deyil? Kimdi onları tanıyan? İnan, bunu kanalına yükləyən kimi reytinqləri dağıdacaqsan”. Hər şey Cekin dediyi kimi də oldu; nəhayət, qarışıq hisslərinin əsarətindən yaxasını qurtarmağı bacaran Vəli roliki kanalına yükləyən kimi “layk” yağışına düşdü. Adamlara daha çox Senatranın ifası fonunda Seryojanın diz çökməsi və Saşanın ağlayaraq onun boynuna sarılması anı təsir etmişdi. Vəli istifadəçilərin yazdıqları şərhləri oxuyandan sonra rolikə bir daha baxdı və yalnız bu zaman Saşanın ağladığını fərq etdi. Onun niyə ağlaması, daha doğrusu, nəyə ağlaması Vəliyə çatmadı.

***(Ardı var)***


**OXUCULARIN NƏZƏRİNƏ!**

**2021-ci İL ÜÇÜN**

**“AZƏRBAYCAN”**

**jurnalına abunə yazılışı davam edir.**

**“AZƏRBAYCAN”**

**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**

**İNDEKS: 76300**